RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 192 (9937) 10 sentyabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan beynəlxalq əhəmiyyətli tədbirlərin təşkil olunduğu etibarlı qlobal məkana çevrilib

### "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasında salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İlk dəfə olaraq Çindən kənarda keçirilən bu forumun məhz Azərbaycanda baş tutması məmnunluq doğurur.

Bu il ərzində Çinə həyata keçirilmiş səmərəli dövlət və işgüzar səfərlərim, bir çox sənədlərin, xüsusilə də strateji tərəfdaşlıq barədə iki sənədin imzalanması, qarşılıqlı viza rejiminin ləğvi Azərbaycan ilə Çin arasında sıx tərəfdaşlıq və dostluq münasibətlərinin bariz nümunələridir.

Müasir dünyada beyin mərkəzlərinin dövlətlərin və cəmiyyətlərin inkişafında rolu olduqca böyükdür. Onların müxtəlif sahələrdə apardığı araşdırmalar qlobal çağırışların - təhlükəsizlik, iqtisadiyyat, texnologiya və ekoloji problemlərin həlli üçün mühüm zəmin yaradır. Bununla da beyin mərkəzləri həm milli, həm də beynəlxalq səviyyədə qərarların daha səmərəli və düzgün qəbuluna öz töhfələrini verirlər. Bu baxımdan AQEM ölkələrinin beyin mərkəzlərinin əməkdaşlığı ölkələr və xalqlar arasında qarşılıqlı anlayışın güclənməsi və regional inteqrasiyanın dərinləşməsi üçün əlverişli perspektivlər açır.

Bu gün Asiya həm iqtisadi potensialı, həm də qlobal proseslərə təsiri baxımından dünyanın güc mərkəzlərindən birinə sürətlə çevrilməkdədir. Buna baxmayaraq, təəssüf ki, qitə ölkələrinin də daxil olduğu Qlobal Cənub əhəmiyyətli qərarların qəbulu prosesində kifayət qədər təmsil olunmur.

2019-2023-cü illərdə Qoşulmama Hərəkatında uğurlu sədrliyi dövründə Azərbaycan Qlobal Cənub ölkələrinin üzləşdiyi ədalətsizliyə qarşı çıxış etmiş, Hərəkatın beynəlxalq müstəvidə mövqelərinin gücləndirilməsi istiqamətində çalışmışdır. Təqdirəlayiq haldır ki, Qlobal Cənub QHT platformasının təsis konfransı bu il məhz Bakıda baş tutmuşdur. Eyni zamanda COP29-un sədri qismində Qlobal Cənub ölkələrinin iqlim gündəliyi ilə bağlı baxışlarının təşviqi, ən az inkişaf etmiş ölkələrin, xüsusilə də kiçik ada dövlətlərinin ehtiyaclarının təmin edilməsi prioritetlərimiz arasında yer almışdır. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş COP29-un uğurlu nəticələri "Bakı sıçrayışı" kimi tarixə düşmüşdür.

Qlobal Cənubun tarixən üzləşdiyi ədalətsizliklərdən biri də Asiya və Afrika xalqlarının taleyində ağrılı izlər buraxmış müstəmləkəçilik siyasəti olmuşdur. Azərbaycan müasir dövrdə müstəmləkəçiliyin utancverici mirasının aradan qaldırılması və neokolonializm təzahürlərinin ifşa olunması sahəsində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Biz bu vacib məsələ ilə əlaqədar beynəlxalq həmrəyliyin səfərbər edilməsi yolunda səylərimizi bundan sonra da qətiyyətlə davam etdirəcəyik.

Hesab edirik ki, Qlobal Cənub ölkələri yeni ədalətli dünya nizamının formalaşdırılmasında yaxından iştirak etməli və bu işə öz töhfələrini verməlidirlər. Bu xüsusda, BMT-də müvafiq islahatların aparılması, Təhlükəsizlik Şurasının (TŞ) daimi üzvləri sırasında Qlobal Cənub ölkələrinin təmsil olunmasının təmin edilməsi çox vacibdir. TŞ artıq günümüzün reallıqları ilə uzlaşmayan təsisata çevrilib. Azərbaycan vaxtilə işğal olunmuş torpaqlarının azad edilməsinə çağıran, lakin sadəcə kağız üzərində qalmış TŞ qətnamələrinin icrasını özü təmin etmiş bir ölkə kimi bunu çox gözəl anlayır.

Ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda təşviq etdiyimiz sülh gündəliyi xarici siyasətimiz üçün yeni üfüqlər açır və onun daha qlobal xarakter daşıması baxımından mühüm amil rolunu oynayır. Keçən ay Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması həm bölgə, həm də daha geniş coğrafiya üçün əlverişli imkanlar yaradır.

"Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri üzərində yerləşən Azərbaycan Avrasiyada ən mühüm nəqliyyat-logistika qovşaqlarından birinə çevrilir. Eyni zamanda şübhə etmirəm ki, Orta dəhlizin bir istiqaməti kimi Zəngəzur dəhlizi yaxın gələcəkdə qitələri birləşdirən mühüm nəqliyyat bağlantısı rolunu oynayacaqdır. İnanıram ki, bütün bu kommunikasiya xətləri AQEM üzvləri arasında da əməkdaşlığın inkişafına töhfə verəcək.

Hörmətli forum iştirakçıları!

Ölkəmizdə regional və qlobal əhəmiyyətli mötəbər tədbirlərin təşkili artıq ənənə halını alıb. Azərbaycan cari ilin iyul ayında Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin başçılarının Zirvə Görüşünü təşkil etmiş, oktyabr ayında isə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünə evsahibliyi etməyə hazırlaşır. Eyni zamanda 2026-cı ildə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının və İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısının Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq əhəmiyyətli tədbirlərin təşkil olunduğu etibarlı qlobal məkana çevrildiyinin növbəti əyani göstəricisidir.

2026-cı ilin payızında Azərbaycanın sədrliyi altında AQEM Zirvə toplantısının da keçirilməsi planlaşdırılır. Asiya qitəsinin 90%-ni əhatə edən və 28 üzv dövləti bir araya gətirən AQEM regionda etimadın gücləndirilməsi və ölkələrarası əməkdaşlığın inkişafı baxımından çox əhəmiyyətli bir təsisatdır. Azərbaycan AQEM-də 2024-2026-cı illər üzrə sədrliyinə böyük məsuliyyətlə yanaşır. Sədrliyimizin fəaliyyəti "Daha güclü AQEM, Asiyada bağlantılar, rəqəmsallaşma və dayanıqlı artım" mövzusu üzərində qurulur.

Biz sədrliyimiz dövründə AQEM-in təşkilati baxımdan gücləndirilməsi, onun beynəlxalq təşkilat kimi təsisatlanması, yeni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və təsisatın beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirməsini prioritet olaraq müəyyənləşdirmişik. Eyni zamanda AQEM çərçivəsində Maliyyə Sammitinin keçirilməsini, Qadınlar Şurasının, Dayanıqlı Bağlantılar Şurasının, AQEM İqlim Şurasının yaradılmasını hədəf götürmüşük.

Əminəm ki, nüfuzlu beyin mərkəzlərinin iştirakı ilə keçirilən hazırkı forum Azərbaycan sədrliyinin prioritetləri də daxil olmaqla AQEM-in gündəliyində duran qlobal əhəmiyyətli məsələlərin müzakirəsinə dəyərli töhfə verəcəkdir.

Forumun işinə müvəffəqiyyətlər arzulayır, uğurlu nəticələrin əldə edilməsini diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2025-ci il*

## Suverenlik qüruru



### İlham Əliyevin qətiyyətli siyasəti Azərbaycana daha böyük uğurlar və zəfərlər qazandıracaq

**Müstəqillik və suverenlik millətlərin sahib ola biləcəyi ən qiymətli sərvətdir. Hər bir millətin müstəqillik salnaməsi və suverenlik yolu məhz onun malik olduğu dövlətçilik ənənələrindən, azadlıq düşüncəsindən, milli-mənəvi irsindən, tarixi keçmişindən asılı olaraq əldə edilir və yaşadılır.**

Müasir demokratik dövlətdə suverenliyin daşıyıcısı və hakimiyyətin yeganə mənbəyi xalq olduğu üçün konstitusiyalar da xalq tərəfindən, yaxud xalqın adından qəbul edilir. Demokratik hüquqi dövlətdə Konstitusiya nəinki dövlətin, habelə xalqın dövlətçilik iradəsini, ifadə edən əsas qanundur.

Dövlət müstəqilliyi dövlətin tarixdə yaşama mərhələsidir. Ona görə də dövlət müstəqilliyi hər bir vətəndaş üçün ən böyük sərvətdir. Zəngin tarixi keçmişə malik xalqımız tarixin müxtəlif dövrlərində azadlığı, dövlət müstəqilliyi uğrunda mübarizələr aparıb.

Ötən ilin dekabrında Prezident İlham Əliyevin 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında imzaladığı sərəncamda da qeyd edilir ki, müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olub. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlayıb, öz ideallarına həmişə sadiq qalıb və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edib.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

6

## Zəngəzur dəhlizi (TRIPP) yeni dövrə qapı açır

### O, sadəcə yol deyil, həm də əməkdaşlıq platformasıdır



Zəngəzur dəhlizi (TRIPP) yalnız regional deyil, həm də qlobal geosiyasi balansların formalaşmasına əhəmiyyətli təsir göstərir. Orta dəhlizin "qısa yol"u və "regional qovşağı" kimi çıxış edən Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə yol daha çevik, rəqabətədavamlı və səmərəli logistika şəbəkəsinə çevriləcək.

7



## Quruculuq işləri Qarabağa firavan həyat gətirir

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə diqqət yetirdikcə görürük ki, gündən-günə iqtisadi gücünü artıran, regionda söz sahibinə çevrilən dövlətimiz ermənilər tərəfindən vaxtilə doğma ocaqlarından didərgin salınmış keçmiş məcburi köçkünlərin ata-baba yurdlarına qayıtmasını təmin edən uğurlu layihələr həyata keçirir. Artıq keçmiş köçkünlər tikintisi başa çatmış yeni yaşayış məntəqələrinə dönürlər.

3

## Dünyanın su təchizatı problemləri Azərbaycanda müzakirə olunacaq

"Bakı Su Həftəsi" sentyabrın 10-12-si tarixlərində keçiriləcək 2-ci Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransını əhatə edəcək. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin dəstəyi ilə təşkil edilən sərgi "Bakı-Ekspo" Mərkəzində baş tutacaq. Sərgidə su təsərrüfatı sahəsində ən son texnologiyalar, innovativ mexanizmlər, müasir dünya təcrübəsi nümayiş olunacaq. Sərgi dövlət qurumlarını,



beynəlxalq şirkətləri, ekspertləri və peşəkar ziyarətçiləri bir araya toplayacaq. Burada Azərbaycanla yanaşı, Almaniya, Amerika Birləşmiş Ştatları, Avstriya, Belarus, Böyük Britaniya, Çexiya, İsrail, İsveçrə, Hindistan, Macarıstan, Türkiyə, Serbiya, Səudiyyə Ərəbistanı və Sinqapuru təmsil edən 60-dan çox şirkət və nümayəndə heyəti iştirak edəcək.

10

## Milli Məclisin iclasında

# Prezident İlham Əliyevin Vaşinqton səfəri tarixi əhəmiyyətə malikdir

**Sentyabrın 9-da Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasının "Vaşinqton razılaşmaları: sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi" mövzusunda xüsusi iclası keçirilib.**






Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra spiker bildirib ki, xüsusi iclas çox mühüm bir məsələyə həsr olunub. Spiker deyib ki, Prezident İlham Əliyev avqust ayının 7-si və 8-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkəyə işgüzar səfər edib. Səfər çərçivəsində aparılmış danışıqlar, əldə olunmuş razılaşmalar və imzalanmış sənədlər fonunda əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri tarixi əhəmiyyətə malikdir. Belə ki, Vaşinqton razılaşmaları yalnız Azərbaycan-Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətləri, Azərbaycan-Ermənistan sülh gündəliyi baxımından mühüm məqamları ilə deyil, həm də Cənubi Qafqazda və daha geniş regionda proseslərə ciddi şəkildə təsir göstərən tərəfləri ilə yadda qaldı.

Milli Məclisin Sədri deyib ki, böyük liderləri fərqləndirən ən mühüm xüsusiyyətlər onların dövlətçilik təfəkkürü, strateji və yaradıcı düşünmək bacarığı, cəsarəti, prinsipiallığı və diplomatik məharətidir. Onlar öz düşüncələrini qətiyyətlə və ardıcıl surətdə həyata keçirir, yeni tarixi reallıqları yaradır.

Vaşinqton razılaşmaları da ilk növbədə məhz bu prizmadan qiymətləndirilməlidir. Bu gün qürurla söyləmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına tarixi səfəri zamanı əldə edilmiş razılaşmalar Ümummilli Lider Heydər Əliyevin milli maraqlara əsaslanan siyasi kursunun davam etdirilməsi yolunda qazanılmış ən böyük uğurlardan biridir.

Bu hadisənin Konstitusiya və Suverenlik ilində baş verməsi isə dərin rəmzi məna daşıyır. Ulu Öndərin dövlətçilik irsi və yaratdığı dəyərlər onun layiqli davamçısı olan möhtərəm Prezidentin fəaliyyəti ilə qorunub saxlanılır və daha da zənginləşdirilir.

Spiker qeyd edib ki, dövlət başçısının Vaşinqton səfərini ikitərəfli münasibətlər kontekstində qiymətləndirsək, bu səfər Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə xarakterizə olundu. Əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi əzmi, həmçinin Prezident D.Trampın 907 saylı düzəlişin icrasını dayandıran sənədi imzalamasında öz ifadəsini tapdı. Burada Prezident D.Trampın Cənubi Qafqaz reallıqlarını obyektiv qiymətləndirən, sülhə və əməkdaşlığa əsaslanan mövqeyi də əhəmiyyətli rol oynadı.

Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir.

Qeyd olunub ki, Vaşinqton razılaşmaları ölkə Prezidentinin Vətən müharibəsindən sonra qətiyyətlə reallaşdırdığı sülh diplomatiyasının məntiqi sonluğa çatması baxımından da əlamətdar bir hadisə oldu.

Dövlət başçısı əzəli torpaqlarımızın otuzillik işğalına son qoyulmasına, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail oldu. O həm də məlum prinsiplər əsasında sülh gündəliyini müəyyən edərək, bu gündəliyin həyata keçirilməsini təmin etdi.

Spiker bildirib ki, ölkəmizə qarşı müxtəlif iftira və təzyiqlərlə sülh danışıqlarına müdaxilə etmək, öz məkrli planlarını icra etmək istəyənlərin siyasi-diplomatik təxribatları isə böyük məharətlə dəf edildi. Bizlər bütün bu proseslərin canlı şahidiyik.

Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Prezidentinin və Ermənistannın Baş nazirinin görüşünə dair Birgə Bəyannamənin imzalanması, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması haqq-ədalətin zəfərini ifadə edir.

Bu hadisə bizim ölkəmiz və bütün Cənubi Qafqaz regionu qarşısında sülh, sabitlik və əməkdaşlığı təcəssüm etdirən yeni üfüqlər açır.

Spiker çıxışında deyib ki, Vaşinqton razılaşmalarının nəticəsi olaraq, dövlət başçısı İlham Əliyevin irəli sürdüyü və ardıcıl surətdə müdafiə etdiyi Zəngəzur dəhlizi təşəbbüsünün reallığa çevrilməsi də tarixi əhəmiyyət daşıyır. Bu dəhliz yalnız Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etmir, o həm də Avrasiyanın nəqliyyat xəritəsini dəyişir və daha geniş bir regionda işbirliyi üçün yeni imkanlar yaradır. Heç şübhəsiz, Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi" kimi layihələr Avrasiyanın enerji xəritəsini dəyişdiyi kimi, Zəngəzur dəhlizi də Avrasiyanın nəqliyyat xəritəsinə önəmli yeniliklər gətirəcək. Birləşmiş Ştatların bu məsələdə dəstəyi bəzi ölkələrin Azərbaycana qarşı əsassız hücumlarının və qarayaxma kampaniyasının üzərindən də xətt çəkdi.

Qeyd olunub ki, Prezident Donald Trampın Zəngəzur dəhlizini "Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu" adlandırması heç də təsadüfi deyil. Bu bir daha cənab Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslərin yalnız və yalnız sülhə, əməkdaşlığa və tərəqqiyə xidmət etdiyini bariz şəkildə təsdiq etdi.

Milli Məclisin Sədri vurğulayıb ki, Cənubi Qafqaz regionunda sülhün bərqərar olması baxımından Vaşinqton razılaşmaları həlledici əhəmiyyətə malik oldu. Digər bir mühüm məqam da ondan ibarətdir ki, bu razılaşmalar beynəlxalq ictimaiyyət tərəfindən də dəstəkləndi.

Vaşinqtonda imzalanmış Birgə Bəyannamə sülh sazişinin rəsmi şəkildə imzalanması üçün Azərbaycanın irəli sürdüyü hər iki şərti təsbit etdi. İlk nəticə olaraq, artıq ATƏT-in Minsk Qrupu ləğv olundu.

İnanırıq ki, Vaşinqtonda əldə edilmiş razılaşmalar heç bir kənar müdaxilə olmadan tam şəkildə yerinə yetiriləcək, Ermənistanın konstitusiyasına müvafiq dəyişikliklər edildikdən sonra iki ölkə arasında rəsmi sülh sazişi imzalanacaqdır.

Çıxışının sonunda Sahibə Qafarova vurğulayıb ki, Azərbaycanın və Cənubi Qafqazın taleyində dönüş nöqtəsi olan, daha geniş regionda proseslərə istiqamət verən Vaşinqton razılaşmaları uzaqgörən siyasətin çətinlikləri qələbələrə çevirməyə qadir olduğunu parlaq surətdə təsdiq edir. Bu gün xalqımızın arzu və istəkləri reallığa çevrilir, regionumuzda uzunmüddətli sülh, əməkdaşlıq və tərəqqi üçün möhkəm təməl yaradılır. Bütün bunlar isə cənab Prezident İlham Əliyevin sülh diplomatiyasının və müdrik liderliyinin təntənəsidir.

Sonra iclasda mövzu ilə bağlı deputatların çıxışları dinlənilib.

Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Rafael Hüseynov, Musa Qasımlı, komitə sədrləri Əli Hüseynli, Səməd Seyidov, Fazil Mustafa, Zahid Oruc, Anar İsgəndərov, Sadiq Qurbanov, Şahin İsmayılov, Hicran Hüseynova, Siyavuş Novruzov, deputatlar Qüdrət Həsənquliyev, Kamal Cəfərov, Kamran Bayramov, Elman Nəsirov, Vüqar Bayramov, Azay Quliyev, Jalə Əliyeva, Səyyad Aran, Bəhruz Məhərrəmov, Rizvan Nəbiyev, Azər Badamov, Elşən Musayev, Səbinə Xasayeva, Tural Gəncəliyev, Vüqar Rəhimzadə, Nizami Səfərov və Qaya Məmmədov öz fikirlərini bölüşüblər.

Bildirilib ki, Vaşinqton razılaşmaları ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı mühüm tarixi nailiyyətlərdən biridir və onun "Konstitusiya və Suverenlik İli"nə təsadüf etməsi rəmzi xarakter daşıyır. Qeyd olunub ki, bu mühüm razılaşmalar beynəlxalq ictimaiyyət tərəfindən də dəstəkləndi ki, bu da çox önəmlidir. ATƏT-in Minsk Qrupunun ləğv edilməsi isə münaqişənin başa çatmasının və əlavə heç bir vasitəçiyə ehtiyac qalmadığının göstəricisidir. Diqqətə çatdırılıb ki, Azərbaycan post-sovet məkanında öz ərazisini işğaldan azad etmiş yeganə ölkədir.

Deputatlar bildiriblər ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri zamanı Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Prezidentinin və Ermənistan Baş nazirinin görüşünə dair Birgə Bəyannamə imzalandı, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsi paraflandı və Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi üçün beynəlxalq zəmanət əldə edildi. Qeyd olunub ki, bu razılaşmalar, eyni zamanda Azərbaycanın ABŞ ilə əlaqələrinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsidir və ölkəmizin beynəlxalq iqtisadi inteqrasiyasının daha da genişlənməsinə öz töhfəsini verəcək. Diqqətə çatdırılıb ki, Zəngəzur dəhlizi yaranmaqda olan yeni tarixin mühüm layihəsi olacaq və onun açılması Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsini təmin etməklə yanaşı, Avropa və Asiyanı, həmçinin bütün türk dünyasını birləşdirəcək.

Çıxış edənlər Prezident İlham Əliyevin avqustun 7-8-də ABŞ-yə səfərinin həm də Azərbaycanla ABŞ münasibətləri baxımından mühüm tarixi əhəmiyyət daşıdığını bildiriblər. Millət vəkilləri səfər zamanı keçirilən Azərbaycan-ABŞ sammitini ölkələrimiz arasında münasibətlərdə tarixi dönüş, keyfiyyətcə yeni mərhələyə yüksəldilməsi kimi dəyərləndiriblər. Vurğulanıb ki, Vaşinqton görüşündə iki ölkə arasında yeni strateji mərhələnin başlanğıcı qoyulub. Sammit çərçivəsində imzalanan Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu iki ölkənin əməkdaşlığının enerji, ticarət, müdafiə, süni intellekt və rəqəmsal infrastruktur kimi prioritet sahələr üzrə daha da dərinləşdirilməsini nəzərdə tutur. Memorandum əsasında Strateji Tərəfdaşlıq Xartiyasının altı ay ərzində hazırlanması qərara alınıb ki, bu da hər iki tərəfin ciddi siyasi iradəsini nümayiş etdirir.

Deputatların sözlərinə görə, Ağ Evdə uzun illər Azərbaycana qarşı ədalətsiz sanksiya kimi istifadə olunan "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılması isə ikitərəfli münasibətlərdə yeni və olduqca parlaq bir səhifənin açılmasının simvolu oldu. Onlar ABŞ Prezidenti cənab Donald Trampın bu qərarı məhz cənab Prezident İlham Əliyevin iştirakı ilə imzalamasını dövlətimizin başçısına və Azərbaycana göstərilən xüsusi hörmətin bariz nümunəsi kimi qiymətləndiriblər.

Çıxışlarda Ağ Evin rəmzi açarının Prezidentimizə təqdim olunması cənab Donald Trampın cənab İlham Əliyevə olan böyük ehtiramının və Azərbaycana verdiyi önəmin göstəricisi kimi qeyd olunub.

Deputatlar səfərin nəticələrini Prezident İlham Əliyevin strateji baxışlarının, müdrik siyasətinin, qətiyyətli siyasi mövqeyinin və beynəlxalq münasibətlərə peşəkar və praqmatik yanaşmasının göstəricisi kimi xarakterizə ediblər. Vaşinqtonda imzalanan razılaşmalar göstərir ki, Azərbaycan yalnız regionun deyil, beynəlxalq siyasətin fəal oyunçusudur və bu mövqeyini daha da gücləndirməyə davam edəcək.

Qeyd olunub ki, dünyanın fövqəldövləti olan ABŞ və onun paytaxtında qəbul olunan qərarlar bütün qlobal proseslərə təsir göstərir. Çıxış edənlər əminliklə bildiriblər ki, Vaşinqtonda əldə olunmuş razılaşmalar ümumilikdə Cənubi Qafqazın gələcək inkişafında mühüm dönüş nöqtəsi olacaq və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bu uğurları artan silsilə ilə davam edəcək, ölkəmiz yeni dünya nizamında öz layiqli yerini qoruyacaq.

Müzakirələr başa çatdıqdan sonra Milli Məclisin Sədri Sahibə Qafarova deputatlara təşəkkür edərək bildirib ki, xüsusi iclasda 30 nəfər çıxış edib. Qeyd olunub ki, müzakirə zamanı çıxışlarda dərin fikirlər səslənib, dövlət başçısının həyata keçirdiyi siyasətlə bağlı qürur və Azərbaycanın xoşbəxt gələcəyinə əminlik ifadə olunub.

Spiker əmin olduğunu bildirib ki, Vaşinqton razılaşmaları ölkəmizin həyatında yeni səhifə açıb. Prezident İlham Əliyevin sayəsində Azərbaycan nəinki milli maraqlarını müdafiə edib, həm də regionda yeni geosiyasi reallıqlar yaradıb. Vurğulanıb ki, Azərbaycan yenə də göstərdi ki, həm döyüş meydanında qələbə qazanmağa, həm də danışıqlar masası arxasında ədaləti bərqərar etməyə qadirdir.

Səmərəli iş üçün deputatlara təşəkkür edən spiker Sahibə Qafarova, xüsusi iclasa yekun vuraraq deyib ki, bütün bu uğurlara görə biz cənab Prezidentə bir daha minnətdarlığımızı bildirərək, ölkəmizi yeni qələbələrə aparmaq naminə dəyərli fəaliyyətində ona böyük uğurlar arzulayırıq.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Milli Məclisin növbədənkənar sessiyası başa çatıb.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" qanun layihəsi müzakirəyə çıxarılacaq

**Sentyabrın 9-da Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Arzu Nağıyev gündəliyə 3 məsələnin daxil olunduğunu bildirib.

Komitə sədri, ilk növbədə, 2025-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin fəaliyyəti barədə məlumat verib. O söyləyib ki, sessiya dövründə komitənin 11 iclası keçirilib, ümumilikdə 27 məsələyə baxılıb və 11 qanun layihəsi müzakirə olunub.

Bildirilib ki, 2025-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan ümumilikdə 351 ərizə daxil olub. Onlardan 283-ü müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına göndərilib, digər müraciətlər isə komitədə araşdırılıb və qanunvericilik təşəbbüslərinin hazırlanmasında nəzərə alınıb.

Daha sonra Arzu Nağıyev Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2025-ci il payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Bildirilib ki, sessiya dövründə qanunvericilik təşəbbüsü əsasında təqdim olunmuş qanun layihələrinin müzakirəsinin aparılması, komitənin səlahiyyət dairəsinə daxil olan mövzular üzrə dinləmələr təşkil olunması, bununla yanaşı, aidiyyəti qurumlardan daxil olan təkliflərin araşdırılması, vətəndaş müraciətlərinə baxılması nəzərdə tutulur.

Komitə sədri daha sonra "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" qanun layihəsinin birinci oxunuşu barədə məlumat verib. Arzu Nağıyev diqqətə çatdırıb ki, bu qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinə əsaslanaraq, daxili qoşunların fəaliyyətinin hüquqi əsaslarını müəyyən edəcək. Sənəddə daxili qoşunların vəzifə və səlahiyyətləri, idarə olunma prinsipləri, həmçinin ölkənin konstitusiya quruluşunun, suverenliyinin, ictimai asayiş və təhlükəsizliyinin qorunmasındakı rolu əksini tapıb. Bildirilib ki, təklif olunan yeni qanun layihəsinin qəbulu ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi və daxili sabitliyin təmin edilməsi baxımından zəruridir.

Müzakirələr zamanı komitənin sədr müavini Qüdrət Həsənquliyev, üzvləri Qaya Məmmədov, Gülşən Paşayeva, Samir Vəliyev çıxış ediblər, təqdim olunan sənədlər barədə fikir və qeydlərini açıqlayıblar.

İclasda Azərbaycan Respublikası daxili işlər nazirinin müavini - Daxili Qoşunların Komandanı Şahin Məmmədov, Azərbaycan Respublikası daxili işlər nazirinin müavini - Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisi Fazil Quliyev çıxış edərək sualları cavablandırıblar, təkliflərlə bağlı fikirlərini bildiriblər.

Müzakirələrin sonunda komitənin 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib, qanun layihəsi isə birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*



# Quruculuq işləri Qarabağa firavan həyat gətirir

**Ölkəmizin ərazi bütövlüyünün bərpa olunması xalqımızın çoxəsrlik tarixində olduqca mühüm yer tutur. Dövlət sərhədlərini bərpa edən Azərbaycan xalqı hərbi və diplomatik sahədə ən böyük uğura nail oldu. Arzular, istəklər həyata keçdi, xəyallar gerçəkləşdi. Bizi Zəfərə qovuşduran Vətən müharibəsi qəhrəmanlıq tariximizə böyük hərflərlə yazıldı.**

Şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında 30 ilə yaxın erməni işğalında qalmış torpaqlarımızı azad etdi. Qarabağ və Şərqi Zəngəzur düşmənlərdən təmizlənəndən sonra dövlətimizin başçısının tapşırığı ilə qısa müddət ərzində həmin ərazilərdə quruculuq işlərinə başlanıldı.

Hazırda da quruculuq işləri sürətlə davam edir, bir an olsun belə dayandırılmır. Keçmiş məcburi köçkünlərin doğma ocaqlarına qayıdışı üçün dövlətimiz tərəfindən genişmiqyaslı işlər görülür, müvafiq layihə və proqramlar həyata keçirilir. Artıq keçmiş köçkünlər Zəngilanda, Cəbrayılda, Füzulidə, Laçında, Kəlbəcərdə, Xocalıda, Şuşada, Ağdərədə və başqa bölgələrdə yenidən tikilmiş yaşayış məntəqələrinə köçürülürlər. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdış Dövlət Proqramı uğurla həyata keçirilir.

Aparılan böyük quruculuq və bərpa işləri bu gün qəsbkarlardan azad olunmuş və işğal zamanında düşmən tərəfindən viran qoyulmuş torpaqlarımıza xoşbəxt, işıqlı bir həyat gətirir. 5 ilə yaxın müddətdə bu ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı geniş işlər görülüb. Bu işlərə baxdıqca hər bir insanın üzü gülür, ürəyi fərəhlənir. Bütün bunları gördükcə fikirləşirik ki, Azərbaycan xalqı İkinci Qarabağ müharibəsində nümayiş etdirdiyi rəşadəti, igidliyi və hünəri Qarabağda və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa-quruculuq işlərində də göstərir. Bərpa işlərində çalışan insanlar bölgənin inkişafı və tərəqqisi naminə üzərinə düşən bütün işləri bacarıqla, peşəkarlıqla yerinə yetirirlər.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə diqqət yetirdikcə görürük ki, gündən-günə iqtisadi gücünü artıran, regionda söz sahibinə çevrilən dövlətimiz ermənilər tərəfindən vaxtilə doğma ocaqlarından didərgin salınmış keçmiş məcburi köçkünlərin ata-baba yurdlarına qayıtmasını təmin edən uğurlu layihələr həyata keçirir. Artıq keçmiş köçkünlər tikintisi başa çatmış yeni yaşayış məntəqələrinə dönürlər. Yaşayış binaları ilə bərabər ərazilərdə infrastruktur da yaradılır. Doğma ocaqlarına dönmüş və dönəcək keçmiş köçkünlərin iş yerləri ilə təmin olunması məqsədilə sənaye müəssisələri və digər obyektlər tikilərək istifadəyə verilir. İşğaldan azad olunmuş bölgələrdə kənd təsərrüfatı sahəsi də dirçəldilir. Yaşayış məntəqlərini bir-birinə birləşdirəcək yeni yollar çəkilir, körpülər, tunellər tikilir. Görülən bütün bu işlər isə bölgənin inkişafına böyük təkan verir.

İşğaldan azad olunmuş bölgələrdə yollar, dəmir yol xətləri ilə yanaşı, beynəlxalq hava limanları da tikilərək istifadəyə verilir. Zəngilan, Füzuli və Laçın rayonlarında tikilmiş hava limanları bölgənin inkişafını daha da sürətləndirəcək. Ürəkaçan faktlardan biri də odur ki, erməni işğalından azad olunmuş şəhərlərimiz beynəlxalq səviyyəli tədbirlərə də evsahibliyi edirlər. Artıq Qarabağ dünyanın müxtəlif bölgələrindən gəlmiş çoxsaylı qonaqlar üçün rahat, gözəl bir məkana çevrilib. Musiqi beşiyimiz olan Şuşada, Qarabağın mərkəzi şəhəri olan Xankəndidə keçirilən beynəlxalq səviyyəli tədbirlər dediklərimizə əyani nümunədir.

Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işlərindən danışan Prezident İlham Əliyev demişdir: "Biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq". Dövlətimizin başçısı onu da demişdir ki, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. Bu gün inamla deyə bilərik ki, Şərqi Zəngəzur da, Qarabağ da aparılan böyük quruculuq işlərindən sonra gözəliyyi ilə görənləri heyran edir, əsl cənnəti xatırladır.

İstənilən bir bölgənin iqtisadiyyatının, sosial həyatının yüksəlişi orada yaşamaqla, qurub-yaratmaqla bağlıdır. Uzun illər doğma yurdundan didərgin düşmüş vətəndaşlarımız artıq böyük sevinc içində torpaqlarına qovuşurlar.

Şərqi Zəngəzur da, Qarabağ da yeraltı və yerüstü sərvətlərlə zəngindir. Bölgənin aqrar üstünlüyü, xammal bazası və emaledici sənaye istehsalı baxımından olduqca əlverişlidir. Bu torpaqlar üzümçülük, tütünçülük, pambıqçılıq və baramaçılığın, meyvə-tərəvəzçiliyin, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Doğma ocaqlarına qayıtmış keçmiş köçkünlərin yekdil fikri budur: böyük zəhmətlərə qatlaşaraq işləyəcək və bölgənin inkişafına əvəzsiz töhfələr verəcəklər.

Qarabağa və Şərqi Zəngəzura köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə həyata keçirilən layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən insanlar da yaşayırlar. Onların da sayı davamlı şəkildə artır və bütün proses Böyük Qayıdışa dair Dövlət Proqramına uyğun şəkildə aparılır.

Hazırda erməni işğalından azad edilmiş ərazilərimiz demək olar ki, böyük tikinti məkanına çevrilib. Bölgələrdə quruculuq işləri getdikcə daha da sürətlənir. Azərbaycan qısa müddət ərzində bu yerlərdə geniş infrastruktur layihələrindən tutmuş yaşayış məskənlərinə qədər çoxsaylı uğurlu layihələr həyata keçirib və keçirməkdə davam edir. Dövlətimiz bütün bu işləri sırf öz maliyyə imkanları hesabına reallaşdırır. Böyük qayıdış proqramının birinci mərhələsinin sonunda Qarabağ və Şərqi Zəngəzurda 140 min keçmiş məcburi köçkünün məskunlaşması təmin ediləcək. Azərbaycan dövlətinin prioritetlərindən biri işğaldan azad olunmuş ərazilərdə Böyük qayıdışı tez gerçəkləşdirməkdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 iyul tarixli 154 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 356 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 248** **Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 iyul tarixli 154 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 356 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 mart tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 367 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 2, maddə 206, № 5, maddə 495) ilə təsdiq edilmiş "Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası"nın 2.5.5-ci yarımbəndinə "siyahısını" sözündən sonra "rəsmi" sözü əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 may tarixli 267 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 604) ilə təsdiq edilmiş "Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi Qaydaları"nın 2.2-ci bəndinin üçüncü cümləsinə "Mərkəzin" sözündən sonra "rəsmi" sözü əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 may tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 614) ilə təsdiq edilmiş "Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.2.2-ci yarımbəndə "Mərkəzin" sözündən sonra "rəsmi" sözü əlavə edilsin;

3.2. 3.2.6-cı yarımbənddən "internet" sözü çıxarılsın.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## "Liman şəhərinin 2042-ciilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 250** **Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Liman şəhərinin 2042-ci ilədək inkişafına dair Baş planı" təsdiq edilsin (əlavə olunur).

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## "2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına icazənin forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 296 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 251** **Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 276 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına icazənin forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 296 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1279) aşağıdakı dəyişikliklər edilsin:

1. Adına və 1-ci hissəyə "qeyri-yaşayış təyinatlı binaların" sözlərindən sonra "və nəqliyyat, rabitə, energetika və digər mühəndis-kommunikasiya obyektlərinin" sözləri əlavə edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına İcazə"nin adına "qeyri-yaşayış təyinatlı binaların" sözlərindən sonra "və nəqliyyat, rabitə, energetika və digər mühəndis-kommunikasiya obyektlərinin" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# "347 Çin şirkəti sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti sahələrində aktiv fəaliyyət göstərir"





Çinin Siamen şəhərində davam edən 25-ci Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisi (CIFIT) çərçivəsində "Bir kəmər, bir yol" beynəlxalq investisiya əməkdaşlığı mövzusunda tematik iclas keçirilib. AZƏRTAC xəbər verir ki, "Bir kəmər, bir yol" təşəbbüsü ölkələrinin investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair müzakirələrin aparıldığı iclasda çıxış edən Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Komisisyasının həmsədri Şahin Mustafayev tədbirin ölkələrimizi bir-birinə daha sıx bağlayan, sərmayə və ticarət üçün konkret imkanlar yaradan nüfuzlu platforma olduğunu bildirib.

Baş nazirin müavini növbəti mərhələdə ticarət strukturunun daha da şaxələndirilməsi, eyni zamanda logistik xərclərin optimallaşdırılması ilə rəqabət qabiliyyətinin yüksəldilməsi hədəflərini vurğulayıb. Şahin Mustafayev 1995-ci ildən Azərbaycana Çindən 942,3 milyon dollar həcmində birbaşa investisiya yatırıldığını, bununla yanaşı, Çin biznesinin ölkəmizdə geniş təmsil olunduğunu, ölkəmizdə 347 Çin şirkətinin sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrində aktiv fəaliyyət göstərdiyini vurğulayıb.

Ş.Mustafayev Azərbaycanın xüsusi iqtisadi zonalarında, o cümlədən Ələt Azad İqtisadi Zonasında və ölkəmizin sənaye parklarında biznesin həyata keçirilməsi üçün hər cür əlverişli şərait yaradıldığını deyib, bundan başqa, hökumətin Azərbaycanda əsas bərpa-quruculuq bölgələri olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında özəl investisiyaların cəlb edilməsini fəal şəkildə təşviq etdiyini bildirib. "Sözügedən ərazilərdə, eləcə də müəyyən edilmiş xüsusi iqtisadi zonalar 10 ilə qədər vergi güzəştləri də daxil olmaqla qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq üçün vacib imkanlar yaradır. Bu kontekstdə cari ilin 22-23 sentyabr tarixlərində Bakıda 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçiriləcək. Forum Şərqlə Qərbin kəsişməsində yerləşən ölkəmizi dayanıqlı ticarət və təchizat zəncirlərinin gələcəyini formalaşdıran açıq bir platforma kimi təqdim edəcək", - deyə Şahin Mustafayev əlavə edib.

Baş nazirin müavini Azərbaycanın Avrasiyanın təbii körpüsü olduğunu, Bakı-Tbilisi-Qars dəmir yolu da daxil olmaqla Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin "Bir kəmər, bir yol" təşəbbüsünün dayanıqlı hissəsini təşkil etdiyini vurğulayıb: "Ötən il Orta dəhliz üzrə tranzit daşımalar 86 faiz, cari ilin yanvar-iyul aylarında isə 44 faiz artıb". Azərbaycan nümayəndə heyətinin Çinin "Hasee" və "Kinglong" şirkətlərinin rəhbərləri ilə görüşü olub.

Çen DONGXİAO: "Azərbaycan həm coğrafi, həm də strateji baxımdan çox önəmli ölkədir"

# Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq məsələləri müzakirə edilib

**Sentyabrın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyunciç ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndəliyin rəhbəri Mariyana Kuyunciç təyinatı ilə əlaqədar məktubu nazir Ceyhun Bayramova təqdim edib.

Ceyhun Bayramov Mariyana Kuyunciçi təyinatı münasibətilə təbrik edib, ona ölkəmizdəki fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı Azərbaycanla Aİ arasında müxtəlif, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat-kommunikasiyalar, humanitar və sair istiqamətlər üzrə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Ölkəmizin Aİ ilə həyata keçirilən birgə enerji layihələrinin əhəmiyyəti vurğulanıb. Digər əhəmiyyətli istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsinə maraq ifadə olunub.

Nazir, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar barədə ətraflı məlumatlandırıb. Ölkəmizin təşəbbüsü ilə başladılan sülh gündəliyinin irəlilədilməsində Vaşinqton görüşü çərçivəsində əldə olunmuş razılıqlar, sülh müqaviləsinin paraflanması, keçmiş münaqişənin qalığı olan ATƏT-in Minsk prosesi və əlaqəli strukturların ləğvi ilə bağlı qərarın əhəmiyyəti qeyd olunub. Nümayəndəliyin rəhbəri Mariyana Kuyunciç fəaliyyəti müddətində Azərbaycan-Aİ gündəliyinin irəlilədilməsi istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının açılış mərasimi keçirilib

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun (SIIS) birgə təşkilatçılığı ilə "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əmədaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə foruma həsr olunan videoçarx nümayiş etdirilib.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti səsləndirilib.

Müraciəti BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev oxuyub.

Açılış mərasimində çıxış edən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay qeyd edib ki, Prezident İlham Əliyevin Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına müraciəti, həqiqətən də ilhamverici oldu və tədbirin əhəmiyyətini daha da artırdı. Builki toplantı xüsusi önəm daşıyır, çünki Azərbaycanın sədrliyi ilə keçirilən ilk beyin mərkəzləri forumudur.

Onun sözlərinə görə, AQEM səmərəliliyin artırılmasını əsas prioritet hesab edir. Bu gün Asiya elm və texnologiya sahəsində yüksələn nüfuzu ilə qlobal inkişafın mühüm mərkəzinə çevrilir. Dövlətlərin artan qarşılıqlı asılılığı fonunda AQEM-in dəyəri bir daha aydın görünür. Bu, Asiya ölkələrinin strateji baxışlarını bölüşməsi üçün vacib platformadır.






"Asiyanın dünya səhnəsində yüksələn təsiri AQEM-in əhəmiyyətini daha da artırır. Regional sabitlik isə həlledici rol oynayacaq. Əsas missiyamız böhrandan çıxış yollarını müəyyənləşdirmək və davamlı inkişafı təmin etməkdir. Bu baxımdan, builki mövzumuz olan "İnkişaf və təhlükəsizliyin rezonansı" dövrün çağırışlarına tam uyğun gəlir və regionumuzu formalaşdıran amillərin daha dərindən anlaşılmasına imkan verir.

Xüsusilə bu il diqqətin ətraf mühit məsələlərinə yönəldilməsi böyük əhəmiyyət kəsb edib. Azərbaycanın COP29-a evsahibliyi regional iqlim diplomatiyasını yeni səviyyəyə yüksəldib. Bu sahə gələcəkdə AQEM-in əsas sütunlarından biri olacaq. Üzv dövlətlərin əməkdaşlıq və dialoqa maraq göstərməsi isə müzakirələrin davam etdirilməsi üçün güclü zəmin yaradıb", - deyə Baş katib bildirib.

SIIS-in prezidenti Çen Dongxiao AQEM-in Beyin Mərkəzləri Forumunun önəmini özünü, ilk növbədə, dialoq imkanlarında göstərdiyinə diqqət çəkib. Onun sözlərinə görə, bərabər və səmimi ünsiyyət qlobal qeyri-sabitlik dövründə xüsusilə vacibdir: "Dünyada multilateralizmə qarşı artan skeptisizm müşahidə olunur və yeni konsensusun qurulmasına ehtiyac var. AQEM bu istiqamətdə mühüm platformadır".

O qeyd edib ki, AQEM-in Asiya qitəsini bütövlükdə əhatə etməsi böyük üstünlükdür. Qazanılan bilik və təcrübə yalnız regional əməkdaşlıq üçün deyil, həm də beynəlxalq ictimaiyyət üçün dəyərli töhfədir. Forum isə bu bilik mübadiləsinin əsas meydanıdır. "Təbii ki, çətinliklər də mövcuddur. Regionun bir çox ölkəsi təhlükəsizlik, inkişaf və idarəetmə çatışmazlıqları ilə üzləşir. Dialoq anlayışı və empatiya yaratsa da, bəzən fundamental fərqləri aradan qaldırmağa yetmir. Buna görə biz daha yaradıcı düşünməli, yeni yanaşmalar inkişaf etdirməliyik. Qarşıda isə böyük imkanlar dayanır. Dünya tədricən Qərb mərkəzli modeldən çoxqütblü nizama doğru irəliləyir. Asiya ölkələri bu transformasiyanın əsas aparıcı qüvvəsidir və qlobal modernləşmə prosesində mühüm rol oynayır. Bu şəraitdə AQEM-in Beyin Mərkəzləri Forumunun rolu daha da artacaq", - deyə SIIS-in prezidenti əlavə edib.

Çinin Xarici İşlər Nazirliyinin Avropa-Mərkəzi Asiya İşləri Departamentinin səfiri Yan Venbin isə vurğulayıb ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrlik edən Azərbaycan qarşılıqlı fəaliyyət, rəqəmsallaşma və davamlı artım mövzusu çərçivəsində bir sıra mühüm əməkdaşlıq təklifləri irəli sürüb.

Yan Venbinin sözlərinə görə, Çin Azərbaycanın sədrliyini dəstəkləmək və AQEM çərçivəsində müxtəlif sahələrdə etimadın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsinə, həmçinin AQEM-in məhsuldar sammitinin uğurla keçirilməsinə fəal töhfə vermək üçün bütün tərəflərlə işləyəcək.

"AQEM region ölkələri arasında əlaqələrin genişləndirilməsində, qarşılıqlı etimadın möhkəmləndirilməsində və əməkdaşlığın inkişaf etdirilməsində önəmli və konstruktiv rol oynayır. Çin AQEM prosesini dəstəkləyir və onun aktiv iştirakçısıdır. Bizim ölkəmiz Asiyada və dünyada inkişaf naminə bir sıra mühüm anlayışlar və təşəbbüslər irəli sürür, o cümlədən sülh, əməkdaşlıq, inklüzivlik və inteqrasiyaya əsaslanan Asiya dəyərlərinin təşviqini, hərtərəfli, kooperativ və davamlı təhlükəsizliyi dəstəkləyir", - deyə Yan Venbin bildirib.

O qeyd edib ki, qlobal inkişaf təşəbbüsü, qlobal təhlükəsizlik təşəbbüsü və qlobal sivilizasiya təşəbbüsündən sonra bu yaxınlarda Tiencin şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının sammitində qlobal idarəetmə təşəbbüsü də təklif olundu. Bu anlayışlar və təşəbbüslər bir çox AQEM dövlətləri də daxil olmaqla, beynəlxalq səviyyədə tanınıb.

Daha sonra BMTM-nin İdarə Heyətinin sədri Fərid Şəfiyev və SIIS-nin prezidenti Çen Dongxiao Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının gündəliyini təsdiq ediblər.

Açılış mərasiminin sonunda iştirakçılar xatirə şəkli çəkdiriblər.

BMTM və SIIS-in birgə təşkilatçılığı ilə keçirilən ikigünlük forum işini sessiyalarla davam etdirib.

# Regional əməkdaşlıq və təhlükəsizlik çağırışları müzakirə olunub



**"İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyası işini iclaslarla davam etdirir.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Yunis Qurbanovun moderatorluğu ilə keçirilən iclasda "İnkişaf vasitəsilə təhlükəsizliyin təşviqi - Asiyada təhlükəsizlik idarəçiliyinə yeni yanaşmaların araşdırılması" mövzusu müzakirə olunub.

Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun fəxri prezidenti və Elmi-Məsləhət Şurasının sədri **Yan Jiemian** son illər ərzində Asiya ölkələrinin Çinin qlobal inkişafını çox müsbət qarşıladığını deyib: "Biz və ümumilikdə Asiya son 80 il ərzində keçmişin müharibələrində ilişib qalmadıq. Baxmayaraq ki, regional müharibələr davam edirdi, bizim ölkəmiz yalnız irəliləyirdi. Çinin ənənəvi təhlükəsizlik yanaşması və bizim burada danışdığımız texnoloji, iqtisadi yanaşmalar stabilliyə rəvac verir".

Yan Jiemian Heydər Əliyev Beynəlxalq Hava Limanından Bakı şəhərinin mərkəzinə gedərkən yolboyu dinamik inkişaf edən şəhər gördüyünü qeyd edib: "Mən Bakıya ən xoş arzularımı diləyirəm. Burada mən sülh və əmin-amanlıq, sosial inkişaf gördüm".

Banqladeşin Beynəlxalq və Strateji Araşdırmalar İnstitutunun Baş direktoru **İftekhar Anis** bu gün Asiyanın dünya əhalisinin 60 faizini təşkil etdiyini və qlobal inkişafın mühüm mərkəzlərindən birinə çevrildiyini qeyd edib: "Bununla belə, təəssüf ki, regionumuzda təhlükəsizlik problemləri hələ də qalıb. Asiyada sabitliyin möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi bütün dövlətlər üçün prioritet olmalıdır".

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) bir çox problemlərin həlli üçün ideal platforma olduğunu diqqətə çatdıran Baş direktor bu təşkilatın üzv ölkələr arasında dialoqu gücləndirmək, birgə təşəbbüslər irəli sürmək və beynəlxalq əməkdaşlıq mexanizmlərini inkişaf etdirmək baxımından mühüm imkanlara malik olduğunu vurğulayıb. "Biz AQEM-in rolunu gücləndirməliyik. Terrorizmə qarşı mübarizə, kibertəhlükəsizlik, iqlim dəyişikliyi ilə mübarizə, pandemiyaların nəticələrinin aradan qaldırılması kimi sahələrdə birgə tədbirlər görülməlidir. Texnologiya və logistika imkanlarının genişləndirilməsi isə regional əməkdaşlığı daha da səmərəli edə bilər", - deyə o əlavə edib.

Şri-Lankanın Lakşman Kadirqamar Beynəlxalq Münasibətlər və Strateji Tədqiqatlar İnstitutunun nümayəndəsi **Wijesinghe Arachchige Sulochana Madhubhashini Wijayasinghe** ölkəsinin regionun sabitliyinin qorunmasında etibarlı tərəfdaş kimi çıxış etdiyini vurğulayaraq deyib: "Burada qarşılıqlı etimad və əməkdaşlıq prinsipləri böyük əhəmiyyət daşıyır və ölkələrarası münasibətlərin möhkəmlənməsi üçün vacib zəmin yaradır".

O qeyd edib ki, rəqəmsal dövrün çağırışları, xüsusilə kibertəhlükəsizlik və texnoloji sahələrdə ortaya çıxan problemlər, regional əməkdaşlığın vacibliyini bir daha göstərir. Şri-Lanka bu məsələlərin həllində fəal iştirak etmək, dialoqları gücləndirmək və birgə təşəbbüslər irəli sürmək istəyir. Bununla regionda daha təhlükəsiz və dayanıqlı mühitin yaradılmasına töhfə vermək mümkündür.

Çin və Müasir Asiya İnstitutunun direktoru, Milli AQEM Tədqiqat Mərkəzinin sədri **Kirill Babayev** Avrasiyanı iqtisadi əməkdaşlığın vahid məkanı kimi dəyərləndirərək qeyd edib ki, ən vacib məsələ qarşılıqlı hörmət prinsiplərinə əsaslanan ümumi təhlükəsizlik platformasının yaradılmasıdır.

Sədr bütün Avrasiya məkanını birləşdirəcək, həm böyük, həm də kiçik ölkələrin maraqlarını nəzərə alacaq ortaq tərəfdaşlığın dəstəklənməsinin vacibliyini vurğulayaraq, bu birliyin məhz qarşılıqlı əməkdaşlıq prinsipləri üzərində qurulacağını ifadə edib.

Asiya Araşdırmaları İnstitutunun direktor müavini **Jirayudh Sinthuphan** qlobal nizamın sabit olmadığı bir dövrdə görüşdüklərini və bu dövrdə kibertəhlükə təhdidlərinin iqtisadiyyatları və bir çox sahələri sarsıtmaqda olduğunu diqqətə çatdırıb. "AQEM-in təsirli institut olması üçün inklüziv idarəetməyə üstünlük verilməli, institusional islahatlar aparılmalıdır. Biz AQEM-i sülh və rifahın ortaq qoruyucusu kimi göstərməliyik", - deyə o əlavə edib.

İranın Siyasi və Beynəlxalq Araşdırmalar İnstitutunun əməkdaşı, tədqiqatçı **Mohsen Mohammadi** Xəzər dənizində suyun səviyyəsinin azalması probleminə toxunaraq deyib: "Sərhəd dövlətləri bu sahədə bir iş görməsələr, Xəzər Aral dənizinin aqibətini yaşayacaq". O, həmçinin bütün sahələrdə birgə regional kiberçərçivələri formalaşdırmaqla rəqəmsal cinayətlərin qarşısını ala biləcəyinin vacibliyini qeyd edib.

Hindistan Dünya İşləri Şurasının baş direktoru vəzifəsini icra edən **Nutan Kapoor Mahavar,** Kambocanın Asiya Vizyonu İnstitutunun prezidenti **Chheng Kimlong,** Tacikistan Respublikası Prezidentinin yanında Strateji Araşdırmalar Mərkəzinin Regional Təhlükəsizlik Məsələlərinin Təhlili və Proqnozlaşdırılması Departamentinin rəhbəri **Saidhomid Şarifzoda** çıxışlarında mövcud geosiyasi problemlərin ölkələrə misli görünməmiş zərbələr vurduğunu bildiriblər. Natiqlər vurğulayıblar ki, belə şəraitdə Asiya ölkələri ümumi və hərtərəfli əməkdaşlığa əsaslanan dayanıqlı təhlükəsizlik vizyonunu daha geniş şəkildə reallaşdırmalı, regionda açıq və inklüziv əməkdaşlıq çərçivəsi formalaşdırmalıdırlar.

İclas müzakirələrlə davam etdirilib.

# *Bakıdan dünyaya çağırış:*

## "Yaşıl inkişaf", rəqəmsal transformasiya və dayanıqlı əməkdaşlıq

**"İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyası işini iclaslarla davam etdirir.**

AZƏRTAC xəbər verir ki, Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun direktor müavini Zhao Longun moderatorluğu ilə keçirilən iclasda "Yaşıl və rəqəmsal transformasiya şəraitində təchizat zənciri üzrə əməkdaşlıq" mövzusu müzakirə olunub.

İclasa onlayn formatda qoşulan Kambocanın Asiya Vizyonu İnstitutunun prezidenti **Chheng Kimlong** deyib: "Bu gün Asiyada geosiyasi risklərin aradan qaldırılması və mövcud boşluqların qarşısının alınması məsələsi gündəliyimizin ən aktual mövzularından biridir. Asiya ölkələri regionda bu sahədə nümunə rolunu oynayır və biz, xüsusilə rəqəmsal texnologiya və yaşıl siyasət sahələrində yeni vizyona doğru irəliləyirik".

O qeyd edib ki, dünya sürətlə dəyişir və bu çağırışlara necə cavab verə biləcəyimizi qiymətləndirməliyik. Asiyanın əhalisi bir neçə ölkəni çıxmaq şərti ilə yaşlanan cəmiyyətlərdən ibarətdir. Eyni zamanda bəzi ölkələrdə əhalinin çoxluğu yeni nəslin demoqrafik dividendlərindən faydalanmaq üçün fürsət yaradır. Bu gənc nəsil rəqəmsal texnologiyaları tətbiq edərək, regionun inkişafına töhfə verə bilər.

Şri-Lankanın Lakşman Kadirqamar Beynəlxalq Münasibətlər və Strateji Tədqiqatlar İnstitutunun İdarə Heyətinin üzvü **YN Jayarathna** foruma onlayn formatda qoşularaq bugünkü strateji vəziyyətin artıq dəyişdiyini və proseslərin sürətlə cərəyan etdiyini deyib: "Asiya artıq beynəlxalq səhnədə öz mövqeyini möhkəmləndirir. Bu mövqenin əsas dayağı isə iqtisadiyyatdır".

Dəniz əlaqələrinə və gəmilərin təhlükəsizliyinin xüsusi əhəmiyyət daşıdığına diqqət çəkən nümayəndə qeyd edib ki, təhlükəsiz limanların yaradılması, təchizat zəncirinin etibarlılığı və dayanıqlığı, həm dəniz, həm də quru bağlantılarının inkişaf etdirilməsi Asiyanın iqtisadi mövqeyini daha da gücləndirəcək.

"Geostrateji mənzərə onu göstərir ki, Asiya artıq dünyanın istehsal bazarı kimi çıxış edir. İstehsal gücünün artması regionda keyfiyyət standartlarına və iqtisadi dəyərin yüksəlməsinə müsbət təsir göstərir. Əlbəttə, mövcud kiçik problemlər var, lakin bu məsələləri regional mexanizmlər vasitəsilə həll etmək mümkündür. Bu baxımdan, AQEM-in rolu xüsusilə önəmlidir. Bu platforma hökumətləri bir-birinə yaxınlaşdırmalı, əməkdaşlıq əlaqələrini gücləndirməli və regional sabitliyin möhkəmlənməsinə töhfə verməlidir. Biz birlikdə hərəkət etsək, Asiya yalnız istehsal və iqtisadi mərkəz deyil, həm də təhlükəsizliyin, sabitliyin və əməkdaşlığın nümunəsi ola bilər", - deyə o əlavə edib.




Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri **Şahmar Hacıyev** bərpaolunan enerji inkişafının bu gün Azərbaycan üçün ən prioritet istiqamətlərdən biri olduğundan danışıb: "Yaşıl iqtisadiyyatın qurulması yolunda ötən il Bakıda keçirilən COP29 isə ölkəmizə güclü təkan verib. Biz yaxşı bilirik ki, bərpaolunan enerji resurslarının səmərəli istifadəsi yalnız iqtisadi tərəqqi üçün deyil, həm də ekoloji dayanıqlılıq baxımından mühüm əhəmiyyət daşıyır".

O qeyd edib ki, "Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf üzrə milli prioritetlər" sənədində ölkənin davamlı inkişafını təmin edəcək beş əsas istiqamət müəyyən edilib. Bunlara rəqabətədavamlı və sabit artan iqtisadiyyat, sosial ədalətə əsaslanan inklüziv cəmiyyət, müasir innovasiyalar və rəqabətqabiliyyətli insan kapitalı, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış və nəhayət, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi konsepsiyası daxildir: "Milli prioritetlər çərçivəsində yüksəkkeyfiyyətli ekoloji mühitin təmin olunması, həmçinin "yaşıl enerji zonası"nın yaradılması əsas hədəflərdəndir. Azərbaycan BMT-nin Paris İqlim Sazişinə uyğun olaraq 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmağı qarşısına məqsəd qoyub. 2030-cu ilə qədər isə ümumi enerji istehsalında bərpaolunan enerji mənbələrinin payının 35 faizə çatdırılması planlaşdırılır. Xüsusilə qeyd etməliyəm ki, işğaldan azad olunmuş ərazilərimiz bu sahədə böyük imkanlara malikdir. Aparılan araşdırmalara görə, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi potensialı 7200 MVt, Kəlbəcər və Laçın rayonlarında külək enerjisi potensialı 2000 MVt, hidroenerji potensialının isə 510 MVt olduğu müəyyən edilib. Ümumilikdə isə Azərbaycanın bərpaolunan enerji potensialı 23 min MVt-dan çox Günəş, 3 min MVt külək, 380 MVt bioenerji və 520 MVt kiçik su-elektrik stansiyalarından ibarətdir".

Hindistanın İnkişafda olan ölkələr üçün Tədqiqat və İnformasiya Sisteminin dosenti **Priyadarşi Daş** deyib: "Əksər Asiya ölkələri sağlam iqtisadi göstəricilər nümayiş etdirir. Çin, Vyetnam, İndoneziya, Kamboca və digərləri son 20 il ərzində nəzərə çarpan dərəcədə böyük müvəffəqiyyətlərə nail olublar".

Priyadardi Daş region ölkələrinin pandemiyadan sonra kifayət qədər müqavimətlə qarşılaşdıqlarını, lakin bütün güclərini toplayaraq irəliləməyə çalışdıqlarını deyib. Onun sözlərinə görə, son illər investisiyalar elektronika, maşınqayırma tekstil sektorlarında inkişaf edir: "Asiyada beynəlxalq ticarət kifayət qədər artıb. Bu isə pozitiv bir siqnaldır, asılılığın aradan qaldırılması deməkdir".

Vyetnam Diplomatiya Akademiyasında direktor vəzifəsini icra edən Tu Anh Tuan foruma onlayn qoşularaq qeyd edib ki, müasir dünyada iqtisadiyyat təkcə inkişaf və tərəqqi vasitəsi deyil, eyni zamanda siyasi təzyiq alətinə çevrilib. Təəssüf ki, bəzi ölkələr iqtisadi alətləri qorunma və ya təhlükəsizlik məqsədi adı altında öz maraqlarını təmin etmək üçün istifadə edirlər. Bu isə beynəlxalq mühitdə ədalətsizliyin artmasına və qlobal sabitliyin pozulmasına gətirib çıxarır.

Hazırda qlobal iqtisadiyyatın yeni xəritəsinin formalaşdırıldığına diqqət çəkən direktor vurğulayıb: "Bildiyimiz kimi, ABŞ dolları hələ də beynəlxalq ticarət və maliyyə sistemində dominant rolunu saxlayır. Lakin biz, eyni zamanda böhran mühitində yaşayırıq. Dünyada silahlı münaqişələrin sayı artıb, hərbi xərclər isə rekord səviyyəyə çatıb. Bunun nəticəsində beynəlxalq iqtisadi münasibətlərdə qeyri-sabitlik və yeni risklər meydana çıxır. Mənim fikrimcə, bəşəriyyətin qarşısında duran ən böyük çağırışlara, yəni sağlamlıq problemlərinə və iqlim dəyişikliyinə daha çox diqqət və maliyyə ayrılmalıdır. Çünki bu məsələlər bütün dövlətlərin və xalqların gələcəyini birbaşa müəyyən edir. Silahlanmaya milyardlarla vəsait xərcləmək əvəzinə, həmin resursların pandemiyaların qarşısının alınmasına, səhiyyə sistemlərinin gücləndirilməsinə və ətraf mühitin qorunmasına yönəldilməsi daha doğru və səmərəli olardı. Əminəm ki, yalnız belə yanaşma ilə biz daha ədalətli, təhlükəsiz və dayanıqlı bir qlobal iqtisadi sistem formalaşdıra bilərik".

Onlayn formatda qoşulan Qazaxıstan Prezidenti yanında Strateji Tədqiqatlar İnstitutunun Beynəlxalq təhlükəsizlik şöbəsinin müdiri **Dauren Aben** isə əlavə edib ki, bugünkü tədbirin mövzusu Qazaxıstanın təhlükəsizlik vizyonu ilə üst-üstə düşür. Bizim regionun qlobal təchizat zəncirində iqtisadiyyat sürətlə inkişaf edir, lakin üstünlük ölkədən ölkəyə dəyişir. Qazaxıstan Şərqlə Qərbin, Şimal ilə Cənubun kəsişməsində yerləşir və bir çox dəhlizin vacib iştirakçısıdır. Bizim bir çox resursumuz var və buna görə də ölkələrarası əməkdaşlığa üstünlük veririk.

Ölkəsinin ekoloji hədəflər qoyduğunu, karbon qazının azaldılması, smart şəhərlər və digər layihələr icra etdiyini diqqətə çatdıran Dauren Aben çoxtərəfli tərəfdaşlığa önəm verdiklərini bildirib. "Geosiyasi resursları da unutmamalıyıq. Asiya ölkələri bunun üçün bəzi təlimatları sadələşdirir. Geosiyasi mövqeyimiz qlobal ticarətdə mühüm rol oynayır", - deyə D.Aben vurğulayıb.

İclas müzakirələrlə davam etdirilib.

# AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının birinci gününə yekun vurulub

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) və Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının birinci gününə yekun vurulub.**



AZƏRTAC xəbər verir ki, sessiyanın son iclası "Avrasiya inteqrasiyasının gücləndirilməsi: "Kəmər və Yol" Təşəbbüsü (BRI), Orta dəhliz, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi (INSTC) və digər təşəbbüslər" mövzusuna həsr olunub.

BMTM-in İdarə Heyətinin sədri **Fərid Şəfiyev** bugünkü tədbirdə "Bir kəmər, bir yol" təşəbbüsü, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu barədə danışdıqlarını, həmçinin Şimal marşrutundan söz açdıqlarını diqqətə çatdıraraq deyib: "Azərbaycanın bu layihələrdə məqsədi kimisə əvəz etmək deyil. Sadəcə, yüklərin qısa zamanda lazım olan nöqtəyə çatdırılmasına kömək göstərməkdir. Bir çox məhdudiyyətlər vardır: Rusiya-Ukrayna müharibəsi, Qırmızı dənizdə baş verən hadisələr və digər məsələlər. Bunun üçün bu marşrutlar önəmlidir".

O bildirib ki, tarixən İpək Yolu adlanan region təkcə ticarət yox, mədəniyyət marşrutu da olub. Arxeoloji qazıntılar zamanı burada bir çox mədəni abidələr aşkar edilib.

Zəngəzur dəhlizinin potensialı barədə söz açan BMTM sədri Vaşinqtonda əldə edilmiş razılaşmanı xatırladaraq bu marşrutun bir çox ölkələrin ticarət əlaqələrinə mühüm töhfə verəcəyini bildirib: "Zəngəzur dəhlizi Azərbaycan və Ermənistan arasında barışıq layihəsi olacaq. Getdikcə Orta dəhlizə tələbat artır. Bizim əsas məqsədimiz bu marşrutlara dəyər qatmaqdır".

Türkiyənin Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri **Turhan Dilmaç** Vaşinqtonda atılan tarixi addımın (Azərbaycan-Ermənistan arasında sülh sazişinin paraflanması - red.) yeni səhifənin açılmasına səbəb olduğunu deyib: "İnanıram ki, bu, regionda daimi sülhə gətirib çıxaracaq. Bu təşəbbüs dənizə çıxışı olmayan ölkələr üçün önəm daşıyacaq, həmçinin Orta Asiya ölkələrinin ticari əlaqələrinin inkişafına kömək göstərəcək".

O, Orta dəhlizin hərtərəfli inkişafın təzahürü olduğunu qeyd edərək, bu marşrutun Asiyanın Avropa ilə birləşdirilməsinə mühüm töhfə verdiyini deyib.

İranın Siyasi və Beynəlxalq Araşdırmalar İnstitutunun aparıcı elmi işçisi **Morteza Damanpak Jami** bugünkü dünyada iqtisadi və geosiyasi güclərin istiqamət dəyişdirdiyini müşahidə etdiyini diqqətə çatdırıb: "Əgər XX əsrdə qlobal inkişafın mərkəzi əsasən Qərbdə cəmlənmişdisə, bu gün artıq Şərqə doğru bir hərəkət müşahidə olunur".

O qeyd edib ki, Çin, Hindistan və digər Asiya ölkələrinin sürətli inkişafı, həm sənaye, həm də texnologiya sahəsində əldə etdikləri uğurlar onları yeni qlobal iqtisadi mərkəzə çevirir. Bu prosesin ən mühüm göstəricilərindən biri isə istehlakçı bazarının getdikcə daha çox Asiyada formalaşmasıdır.

Hindistan Dünya İşləri Şurasının aparıcı elmi işçisi **Athas Zafar** hazırda həm dünyanın, həm də regionumuzun böyük bir transformasiya dövrünü yaşadığını söyləyib: "Bu dəyişikliyin ən mühüm istiqamətlərindən biri isə rəqəmsal texnologiyaların sürətli inkişafıdır. İnnovasiyalar və rəqəmsallaşma artıq yalnız iqtisadiyyatın deyil, siyasətin, təhlükəsizliyin və cəmiyyət həyatının bütün sahələrinin əsas hərəkətverici qüvvəsinə çevrilib".

O qeyd edib ki, bu prosesin regionumuza da birbaşa təsiri olacaq. Yeni dünya nizamı formalaşarkən, xüsusilə Avrasiya məkanının rolu həlledici olacaq. Çünki çoxqütblü beynəlxalq sistemin sabitliyi, əslində, çoxqütblü Avrasiyanın mövcudluğundan asılıdır.

Çinin Avrasiya Sosial İnkişaf Tədqiqatları İnstitutunun direktoru **Li Yongquan** ölkəsinin Orta dəhlizin fəaliyyətində maraqlı olduğunu, həmçinin onun tikintisində də iştirak etmək istəyini ifadə edib: "Əməkdaşlıq, qarşılıqlı qazanc əsasında böyük layihələr həyata keçirə bilərik".

O, həmçinin qeyd edib ki, "Kəmər və Yol" təşəbbüsünün icrası Avrasiya qitəsində qarşılıqlı nəqliyyat əlaqəsinin səviyyəsini əhəmiyyətli dərəcədə artırır.

İclas müzakirələrlə davam etdirilib.

# *Fərid ŞƏFİYEV:* "Rusiya ilə gərginliyin səbəbkarı Azərbaycan deyil"

**"Rusiya ilə gərginliyin səbəbkarı Azərbaycan deyil. Yaxşı bilirik ki, bu problem dekabrda - bizim mülki təyyarəmiz Rusiya hava müdafiə qoşunları tərəfindən vurulandan sonra başlayıb".**

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev söyləyib.



Fərid Şəfiyev həmçinin bəzi hadisələrin də baş verdiyini vurğulayıb: "Yekaterinburqda yaşanan hadisələr, fevralda Azərbaycana qarşı kütləvi kiberhücüm, Ukraynada SOCAR-ın depolarının vurulması və sair... Bunlar onu göstərir ki, qarşı tərəf gərginliyin azaldılmasını hələ düşünmür".

"Biz adekvat addım atılmasını gözləyirik. Bu baş versə, çox güman ki, vəziyyət də yaxşılaşar", - deyə F.Şəfiyev bildirib.

# Azərbaycan çalışacaq ki, AQEM-in beynəlxalq səviyyədə institutları formalaşsın

**"Azərbaycan 2024-2026-cı illərdə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrlik edir. AQEM çərçivəsində Beyin Mərkəzlərinin Forumu fəaliyyət göstərir və bu forumun koordinatoru Şanxayda yerləşən Beynəlxalq Əlaqələr İnstitutudur. Adətən forumun sammitləri Şanxayda keçirilir. Keçən il bizim təşəbbüsümüzlə qərar qəbul olundu ki, ilk dəfə olaraq Şanxaydan kənarda, Azərbaycanda keçirilsin".**

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Bakıda keçirilən AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyası çərçivəsində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev deyib.

"Azərbaycan iki il ərzində çalışacaq ki, AQEM-in beynəlxalq səviyyədə institutları formalaşsın, bir sıra şuralar fəaliyyət göstərsin. Bu gün biz Bakıda Asiyada baş verən geosiyasi problemləri, xarici siyasəti, bəzi iqtisadi məsələləri, rəqəmsal inkişafı və digər buna oxşar məsələləri müzakirə edəcəyik", - deyə o əlavə edib.

# "Azərbaycan həm coğrafi, həm də strateji baxımdan çox önəmli ölkədir"

**AZƏRTAC xəbər verir ki, bu sözləri Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Beyin Mərkəzləri Forumunun 13-cü sessiyası çərçivəsində jurnalistlərə açıqlamasında Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun prezidenti Çen Dongxiao deyib.**



O, Azərbaycan Prezidenti İlham Əliyevin regional əlaqələrə xüsusi önəm verdiyinə diqqət çəkərək bildirib: "Bu əlaqələr vasitəsilə ölkəniz hər baxımdan inkişaf edəcək. Həmçinin düşünürəm ki, sizin xalqınız da bu prosesə hazırdır. Azərbaycan yalnız özü inkişaf etməyəcək, həmçinin bütün regionda rifahın yüksəlməsinə şərait yaradacaq".

Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun prezidenti qeyd edib ki, Çin xalqı Azərbaycan Prezidentinin faşizm üzərində qələbənin 80-ci ilinin qeyd edilməsi tədbirində iştirakından çox məmnundur.

# "Bütün dünya Qarabağın Azərbaycan ərazisi olduğunu tanıyır"

**"Bütün dünya Qarabağın Azərbaycan ərazisi olduğunu tanıyır. İndi Ermənistan bunun belə olmadığını söyləsə, bu, müharibəyə gətirib çıxaracaq".**

AZƏRTAC xəbər verir ki, bunu Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" partiyasının deputatı Qaqik Melkonyan deyib. Melkonyan bildirib: "Robert Köçəryan və Serj Sarkisyan hər biri 10 il prezident olub, Qarabağın "müstəqilliyini" tanımayıblar. Vitali Balasanyan deyirdi ki, Qarabağ heç vaxt Azərbaycanın bir hissəsi olmayacaq. Amma onlar da Qarabağı Azərbaycana təhvil verməyi üstün tutdular. Unutmusunuz? 200 ildir bizə deyirlər ki, türklər bizim düşmənimizdir. Biz artıq qonşularımızla qonşu olmalıyıq, qisas almaq üçün kənardan adam gətirməməliyik. Azərbaycan da müharibənin olmasında maraqlı deyil. Hamımız sülh istəyirik".

Melkonyan hesab edir ki, bəzi xarici qüvvələr və Ermənistanda onlara bağlı müxalif qüvvələr avqustun 8-də ABŞ-də Azərbaycan və Ermənistan arasında sülh üzrə əldə olunmuş razılaşmaları gözdən salmağa çalışırlar.

# Azərbaycan Respublikasının baş prokuroru Sinqapurda işgüzar səfərdədir

**Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 30-cu illik konfransı və ümumi yığıncağında iştirak məqsədilə Sinqapura işgüzar səfərə gedib.**



"Prokurorun dəyişən rolu və cinayət mühakimə sisteminin idarə edilməsi" mövzusuna həsr olunmuş konfrans çərçivəsində hüquq-mühafizə orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, o cümlədən süni intellektdən istifadə imkanları, prokurorluq orqanlarının kibercinayətkarlıqla mübarizə təcrübəsi, rəqəmsal sübutların cinayət mühakimə icraatında istifadəsi, əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, yeni çağırışlara uyğun birgə təşəbbüslərin həyata keçirilməsi və bu kimi aktual məsələlər müzakirə olunur.

Dünya prokurorlarını bir araya gətirən assosiasiyanın 30 illik yubileyinə təsadüf edən konfransın açılış mərasimində Sinqapur Respublikasının Prezidenti Tarman Şanmuqaratnam, baş prokuroru Lüsyen Vonq və Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti Xuan Batista Mahikes çıxış edərək qonaqları salamlayıblar.

Tədbirin açılışında çıxış edən rəsmi şəxslər konfransın cinayətkarlığın müasir təzahürlərinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcəyini qeyd edib, onun məhsuldar nəticələr verəcəyinə inamlarını ifadə ediblər.

Açılış mərasimində Beynəlxalq Prokurorlar Assosiasiyasının rəhbərliyi tərəfindən çıxış zamanı ötən il Bakı şəhərində keçirilmiş assosiasiyanın 29-cu illik konfransı xatırlanaraq, bu tədbirin təşkilatın tarixində dünyanın dörd bir yanından ən çox sayda prokurorun iştirak etdiyi mötəbər platformaya çevrildiyi xüsusi vurğulanıb.

Səfər zamanı baş prokuror Kamran Əliyev Sinqapurun Baş prokuroru Lüsyen Vonq ilə görüş keçirib. Görüş zamanı Kamran Əliyev həmkarına Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkədə korrupsiyaya qarşı sistemli mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib. Eyni zamanda bu sahədə Sinqapurun uğurlu təcrübəsinin öyrənilməsi və tətbiqi istiqamətində maraqlı olduqlarını bildirib.

Görüşdə müasir cinayət formalarının qarşısının alınması, gələcək əməkdaşlığın müqavilə-hüquq bazası ilə möhkəmləndirilməsi və kadr hazırlığı məsələləri müzakirə olunub.

Baş prokuror tədbirin yüksək səviyyədə təşkil olunmasını təqdir edib, göstərilən qonaqpərvərliyə görə Sinqapur tərəfinə təşəkkürünü bildirib və konfransın işinə uğurlar arzulayıb.

Bundan əlavə, tədbir çərçivəsində baş prokuror Kamran Əliyev Niderland, Gürcüstan, Qazaxıstan, Estoniya, Sloveniya, Lixtenshteyn, Türkiyə, Timor-Leste və Omanın baş prokurorları, habelə Çin Xalq Respublikasının baş prokurorunun müavini ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən ekstradisiya, cinayət işləri üzrə hüquqi yardım və digər aktual əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində növbəti günlərdə digər ölkələrin prokurorluq orqanlarının rəhbərləri ilə görüşlərin keçirilməsi və əməkdaşlıq imkanlarının daha da genişləndirilməsi nəzərdə tutulur.

Tədbirdə, həmçinin, ölkəmizin İndoneziya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ramil Rzayev də iştirak edir.

# Azərbaycanla Çin arasında insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində əməkdaşlıq istiqamətləri müzakirə olunub

**Asiya Ombudsman Assosiasiyasının vitse-prezidenti qismində təşkilatın illik toplantılarında iştirak etmək məqsədilə Çində rəsmi səfərdə olan ombudsman Səbinə Əliyeva Çin Xalq Respublikası Milli Nəzarət Komissiyasının dəvəti əsasında həmin qurumun rəhbərliyi ilə görüşüb.**



Ombudsman Aparatından AZƏRTAC-a verilən məlumata görə, Çin Xalq Respublikasının Mərkəzi Təftiş Komissiyası və Milli Nəzarət Komissiyasının sədr müavini Liu Xuexin, Daimi Komitənin üzvü Mu Hongyu və Komissiyanın rəhbər şəxslərinin iştirakı ilə keçirilən görüşdə Azərbaycan və Çin arasında mövcud strateji əməkdaşlıq əlaqələri yüksək qiymətləndirilib və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu bildirilib.

Görüşdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən fəaliyyət və əldə olunan müsbət təcrübələr haqqında geniş məlumat verilib, birgə əməkdaşlıq istiqamətləri müzakirə olunub. İkitərəfli və çoxtərəfli platformalarda geniş əməkdaşlıq imkanlarının olduğunu bildirən ombudsman Səbinə Əliyeva iki qurum arasında mövcud dialoqun institutlararası əlaqələrin daha da inkişafına xidmət edəcəyini, qarşılıqlı məlumat və təcrübə mübadiləsinin, birgə maarifləndirmə tədbirlərinin insan hüquqlarının daha səmərəli müdafiəsinə mühüm töhfələr verəcəyini vurğulayıb.

Görüşdə, həmçinin Asiya Ombudsman Assosiasiyası çərçivəsində regional əməkdaşlığın gücləndirilməsinin, insan hüquqlarının müdafiəsi sahəsində müsbət təcrübə mübadiləsinin və birgə layihələrin həyata keçirilməsinin xüsusi önəm kəsb etdiyi bildirilib.

# Azərbaycan MSK Gürcüstanda keçiriləcək seçkiləri müşahidə etməyə dəvət olunub

Gürcüstan Mərkəzi Seçki Komissiyası ölkədə oktyabrın 4-də keçiriləcək mer və bələdiyyə seçkilərini müşahidə etmək üçün Azərbaycana və digər dövlətlərə, eləcə də beynəlxalq təşkilatlara dəvət məktubu göndərib.

Bu barədə AZƏRTAC-a Gürcüstan MSK-dan məlumat verilib. Bildirilib ki, Gürcüstan MSK seçkilərin tam şəffaf, azad, ədalətli və demokratik keçirilməsi üçün bütün zəruri tədbirləri həyata keçirir.

Artıq siyasi partiyaların qeydiyyatı başa çatıb. Seçkilərdə iştirak etmək üçün müraciət edən 14 siyasi partiyanın 12-si qeydiyyatdan keçib, onlara seçki öncəsi təbliğat və təşviqat kampaniyası aparmaq üçün şərait yaradılıb.

Yalnız iki partiya seçkilərdə iştirak üçün deputatlığa namizədlərini təqdim etmədiklərinə görə onların qeydiyyatı ləğv olunub.

# *Türkiyə ekspertləri:* "Zəngəzur dəhlizi bütün regiona strateji səmərə vəd edir"

**"Zəngəzur dəhlizinin işə düşməsi ilə Türkiyə və bütövlükdə region strateji səmərə əldə edəcək ki, bu da dövlətlərin inkişafına və rifahının artmasına mühüm təkan olacaq".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin aparıcı metropoliten universitetlərinin professorları Oktay Tanrısever və Levent Aydın ifadə ediblər. Orta Doğu Texniki Universitetinin (ODTÜ) Beynəlxalq əlaqələr kafedrasının professoru Oktay Tanrısevər türkiyəli jurnalistlərə açıqlamasında bildirib ki, Avropa və Asiya bazarları arasında ən qısa yol olan Zəngəzur dəhlizi hər iki qitə üçün kritik əhəmiyyətə malikdir.

"Strateji marşrut münaqişə bölgələrinin beynəlxalq ticarətə təsirini azaldacaq, enerji təchizatı və elektrik enerjisi ixracı üçün potensial istiqamətə çevriləcək", - deyən professor bu məqsədə çatmağın Zəngəzur dəhlizində təhlükəsizlik risklərinin aradan qaldırılması ilə mümkün olacağını diqqətə çatdırıb.

Ekspert Zəngəzur dəhlizi ilə neft və qaz kəmərlərinin, eləcə də elektrik xətlərinin çəkilməsinin mümkünlüyünü istisna etməyib ki, bu da onun fikrincə, Türkiyəni böyük regional enerji və logistika mərkəzinə çevirmək məqsədini daha da yaxınlaşdıracaq.

Öz növbəsində, Ankara Sosial Elmlər Universitetinin (ASBÜ) iqtisadiyyat professoru Levent Aydın Zəngəzur dəhlizinin əhəmiyyətindən danışaraq diqqətə çatdırıb ki, yeni marşrut Xəzər regionu ilə Avropa arasında nəqliyyat, logistika və enerji əlaqələrini gücləndirəcək.

Onun sözlərinə görə, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonları arasındakı dəhliz təkcə avtomobil və dəmir yolu daşımalarına yol açmayacaq, həm də yeni boru kəmərlərinin və kommunikasiya kabellərinin çəkilməsinə imkan verəcək.

ASBÜ professoru gələcəkdə türkmən qazının Zəngəzur dəhlizi ilə ixrac olunacağını ehtimal edərək əminliklə bildirib ki, bu marşrutun istismarı çərçivəsində irəli sürüləcək bütün təşəbbüslər Avropa İttifaqı və ABŞ tərəfindən dəstəklənəcək.

"Cənubi Qafqazda münasibətlərin normallaşması beynəlxalq investorlar üçün də stimul olacaq. Düşünürəm ki, yaxın 5-10 ildə Naxçıvan ərazisindən qaz kəmərləri və elektrik xətləri ilə bağlı yeni layihələrin müzakirəsinə başlanacaq və daha qısa müddətdə ticarətə təkan verəcək avtomobil və dəmir yolu kommunikasiyalarının bərpası istiqamətində konkret addımlar atılacaq", - deyə ekspert bildirib.

# Konstitusiya və Suverenlik İli 2025




# Müstəqil audit qanunvericiliyi: tətbiq təcrübəsi və çağırışlar

**Azərbaycan Respublikasının müstəqil, demokratik inkişaf yoluna qədəm qoymasından sonra həyata keçirilən radikal islahatlar və idarəetmə sisteminin təkmilləşdirilməsi ölkədə beynəlxalq standartlara cavab verən maliyyə nəzarəti sisteminin qurulmasını zərurətə çevirdi və maliyyə nəzarətinin bütün dünyada geniş yayılmış, mütərəqqi forması olan auditin (auditor xidmətinin) tətbiqi həyati tələbata döndü.**

Məhz bundan sonra Azərbaycan Respublikasında beynəlxalq meyarlara uyğun müstəqil audit sisteminin bərqərar olması istiqamətində də mühüm əhəmiyyət kəsb edən normativ-hüquqi aktlar, o cümlədən 1994-cü il sentyabrın 16-da "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Neçə illər sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tamamilə haqlı olaraq ölkədə milli auditin təşəkkülü və inkişafı üçün hüquqi baza olan "Auditor xidməti haqqında" Qanunun qəbul edilməsini "Ümummilli Liderimiz Heydər Əliyevin bazar iqtisadiyyatına keçid istiqamətində həyata keçirdiyi siyasətin, cəmiyyətdə maliyyə şəffaflığının təmin olunmasında və bazar infrastrukturları sistemində auditə verdiyi qiymətin parlaq təzahürü" kimi dəyərləndirərək, Azərbaycanda auditor xidmətinin iqtisadi siyasətin aparılmasında mühüm rol oynadığını qeyd etmişdir.

Həqiqətən də, "Auditor xidməti haqqında" qanunun qəbul olunması Ümummilli Liderimiz Heydər Əliyevin demokratik dünya dəyərlərinə sədaqətinin, bazar iqtisadi infrastrukturları sistemində auditə verdiyi dəyər və əhəmiyyətin parlaq təzahürü idi.

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatasının 2006-cı il 4 aprel tarixində, Auditorlar Palatasının fəaliyyətə başlamasının 20 illiyi münasibətilə Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivinə və üzvlərinə 2016-cı il 4 aprel tarixində Auditorlar Palatasının təşkilatçılığı ilə keçirilən "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın iştirakçılarına 2017-ci il 22 sentyabr tarixində və "Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər və vəzifələr" mövzusunda elmi-praktik konfransın iştirakçılarına 2021-ci il 15 sentyabr tarixində ünvanladığı təbrik məktublarından irəli gələn proqram xarakterli vəzifələrin icrası Azərbaycan auditorlarına öz fəaliyyətlərini ölkəmizdə şəffaflığın təmin edilməsinə və daha da artırılmasına, kölgə iqtisadiyyatının aradan qaldırılmasına, maliyyə və vergi intizamının gücləndirilməsinə, yeni dövrün çağırışlarına və "yaşıl iqtisadiyyat"ın tələblərinə uyğun olaraq yenidən qurulmasına zəmin yaratmışdır.

Şəffaflığın, hesabatlılığın və məsuliyyətin artırılması, dövlət əmlakının düzgün idarə olunması, antikorrupsiya mədəniyyətinin formalaşdırılması, korrupsiyaya qarşı mübarizə sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi, Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi, iqtisadi və sosial sahədə rəqəmsallaşma və süni intellektin tətbiqi və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi üzrə Auditorlar Palatasının fəaliyyəti daim ötən dövr ərzində məqsədyönlü fəaliyyəti sayəsində milli audit sistemi bərqərar olmuş, auditor xidmətlərinin həcmi, əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənmiş, şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizədə, kölgə iqtisadiyyatının aradan qaldırılmasında, maliyyə hesabatlılığının təkmilləşdirilməsində, bütövlükdə ölkə iqtisadiyyatının inkişafında auditin rolu xeyli artmışdır. Bu istiqamətdə əldə edilən uğurları Prezident İlham Əliyev belə dəyərləndirmişdir: "Bu gün, Azərbaycanda audit xidməti iqtisadiyyatın və regionların inkişafı sahəsində genişmiqyaslı proqramların həyata keçirilməsi, ölkənin qeyri-neft sektoruna investisiya axınının gücləndirilməsi, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun yüksəldilməsi, yoxsulluğun azaldılması və xalqın rifah halının yaxşılaşdırılması ilə bağlı iqtisadi siyasətin aparılmasında mühüm rol oynayır. İndiki mərhələdə maliyyə intizamına ciddi əməl olunması, pul vəsaitlərindən səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir və bu baxımdan da audit həmin vəzifələrin uğurla yerinə yetirilməsində ön sıralarda olmalıdır".

Ölkə Prezidentinin göstərişlərini rəhbər tutaraq, audit sahəsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və ölkəmizdə tətbiqi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində Auditorlar Palatasının beynəlxalq əlaqələrinin coğrafiyası və əhatə dairəsi kifayət qədər genişlənmiş, beynəlxalq təşkilatların keçirdiyi tədbirlərdə Azərbaycan auditorlarının iştirakı intensiv xarakter almış və audit sahəsində xarici ölkələrin iş təcrübəsinin öyrənilməsi, müvafiq ədəbiyyatın və digər yardımçı materialların çap edilərək hazırlanması, əməkdaşlıq ünsiyyəti imkanlarının çoxalması üçün möhkəm zəmin yaradılmışdır. Məhz bunun nəticəsidir ki, Auditorlar Palatası 40-dan artıq ölkənin audit və mühasibatlıq təşkilatları ilə əməkdaşlıq sazişləri, niyyət protokolları və memorandumlar imzalamış və bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası (IFAC), Avropanın Mühasiblər və Auditorlar Federasiyası (EFFA), Mühasiblərin və Auditorların "Avrasiya" Beynəlxalq Regional Federasiyası kimi nüfuzlu beynəlxalq audit və mühasibatlıq qurumlarına tamhüquqlu üzv qəbul olunmuşdur. Bu sahədə görülən işlər son illərdə daha geniş vüsət almaqdadır.

Ötən illər ərzində Azərbaycan auditorları ölkə Prezidenti tərəfindən daim diqqət və dəstək görmüşlər.

Belə ki, Azərbaycan auditorları Prezident İlham Əliyevin "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun Ulu Öndər tərəfindən imzalanmasının 10 illiyi ilə əlaqədar keçirilən "Keçid iqtisadiyyatı ölkələrində auditin inkişaf problemləri" beynəlxalq elmi-praktik konfransının iştirakçılarına 2004-cü il 14 sentyabr tarixində, Auditorlar Palatasının fəaliyyətə başlamasının 10 illiyi münasibətilə Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivinə və üzvlərinə ölkə rəhbərliyinin diqqət mərkəzində olmuş və layiqincə qiymətləndirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr, 2016-cı il 4 aprel və 2021-ci il 15 aprel tarixli sərəncamları ilə ölkədə auditor xidmətinin inkişafında xidmətlərinə görə Auditorlar Palatası əməkdaşlarının və üzvlərinin bir qrupu "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Azərbaycanda auditor xidmətinin inkişafı və tətbiqinin genişləndirilməsi son dövrlərdə qəbul edilmiş və uğurla yerinə yetirilmiş bir sıra mühüm dövlət proqramlarında müstəqil auditin vacib problemlərinin müəyyənləşdirilməsi və həlli sayəsində mümkün olmuşdur. Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması, dayanıqlı inkişafın bərqərar olunması, maliyyə hesabatlılığının təkmilləşdirilməsi, maliyyə vəsaitlərindən istifadənin səmərəliliyinin gücləndirilməsi, açıq və demokratik prinsiplərə əsaslanan dövlət quruculuğunun sürətləndirilməsi, regionların və sahibkarlığın süni maneələr və müdaxilələr olmadan inkişaf etdirilməsi kimi mühüm məqsədləri özündə ehtiva edən dövlət proqramları çərçivəsində Auditorlar Palatası bir çox mühüm problemlərin həllinə nail olmuşdur. Ötən dövr ərzində Auditorlar Palatası 10-a yaxın dövlət proqramının iştirakçısı olmuş və üzərinə düşən vəzifələri uğurla yerinə yetirmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin maliyyə nəzarəti siyasətinin əsasını təşkil edən auditin tənzimlənməsinin Azərbaycan modeli xarici peşəkar qurumlar tərəfindən tanınmış və tənzimlənmənin peşəkar orqana həvalə edilməsi yolu ilə müstəqilliyin təmin olunması beynəlxalq audit praktikası üçün böyük maraq kəsb etməkdədir.

Məsələn, bir neçə il əvvəl Belarus Respublikası Maliyyə Nazirliyinin səlahiyyətli nümayəndə heyəti üç gün ərzində Azərbaycan Respublikasının Auditorlar Palatasında olmuşdur. Səfərin məqsədi Belarus Respublikasında Auditorlar Palatasının yaradılması üçün zəngin audit təcrübəsinə malik Azərbaycan Respublikasının təcrübəsini öyrənmək, bu sahədə görülən genişmiqyaslı işlər barədə məlumat əldə etmək və məsləhətləşmələr aparmaqdan ibarət olmuşdur. Qeyd etmək yerinə düşər ki, Belarus Auditorlar Palatasının funksiya və vəzifələrinin yerinə yetirilməsində zəruri olan 50-dək təlimat, tövsiyə, metodik göstəriş, qayda, sahəvi audit proqramı və digər sənədlər qonaqlara təqdim edilmişdir.

Auditor xidmətinin hüquqi bazasının təkmilləşdirilməsi də möhtərəm Prezident İlham Əliyevin diqqət mərkəzində olan məsələlərdəndir. MDB ölkələri arasında birinci olaraq Azərbaycanda daxili auditor fəaliyyətinin həyata keçirilməsi qanunvericiliklə hüquqi təsbitini tapmışdır. "Daxili audit haqqında" Qanun Azərbaycan Prezidenti cənab İlham Əliyevin şəffaflığın təmin olunması və korrupsiyaya qarşı mübarizə strategiyasının hüquqi təməlində özünəməxsus yer tutmaqla, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına da əvəzedilməz bir töhfədir.

İlkin layihəsi Auditorlar Palatası tərəfindən hazırlanmış başqa bir qanun - Azərbaycan Respublikasında auditor xidməti göstərən fiziki və hüquqi şəxslərin auditin subyekti qarşısında peşə məsuliyyətinin icbari sığortası sahəsində münasibətləri tənzimləyən, onun təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyənləşdirən "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" 2007-ci il 22 may tarixli qanun da bilavasitə dövlətimizin başçısının qanunvericilik təşəbbüsünün nəticəsi, auditorun əməyinə verdiyi yüksək qiymətin ifadəsidir.

"Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu auditorların və təsərrüfat subyektlərinin hüquqi müdafiəsinin artırılması, həmçinin auditin aparılması ilə əlaqədar baş verə biləcək istənilən sığorta hadisəsi zamanı təsərrüfat subyektinə dəyən zərərin ödənilməsi üçün münbit şəraitin yaradılmasının təmin edilməsini nəzərdə tutur.

Ümumiyyətlə isə Azərbaycanda auditə dövlət qayğısının əsasında ölkə Prezidentinin auditə verdiyi önəm durur. Bu mənada dövlət başçısı İlham Əliyevin aşağıdakı sözlərini xatırlatmaq istərdim: "Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəffaflığın daha da artırılması və iqtisadi sahədə tam şəffaflığın təmin edilməsi məqsədilə "Biz dünyada mövcud olan ən müsbət, ən şəffaf praktikanı Azərbaycanda tətbiq etməliyik və bizim bütün maliyyə sistemimiz tam şəffaf mexanizm kimi işləməlidir" göstərişini rəhbər tutaraq Auditorlar Palatası və onun üzvləri iqtisadi islahatların indiki mərhələsində hesabatlılığın təkmilləşdirilməsi və şəffaflığın artırılması istiqamətində qabaqcıl korporativ idarəetmə metodlarının tətbiqi və yeni dövrün çağırışları nəzərə alınmaqla audit sistemini yenidən qurmaq məqsədilə müəssisələrdə fəaliyyət göstərən audit komitələrinin təsirliliyini artırmaq, daxili audit qurumlarının fəaliyyətini gücləndirmək üzrə mövcud problemlərin həllinə yönəlmiş kompleks tədbirlərin hazırlanmasında və həyata keçirilməsində birgə çalışırlar.

Auditorlar Palatasının ötən illərdə əldə etdiyi uğurları ilə bərabər qarşımızda icrası vacib hesab edilən perspektivləri də mövcuddur. Belə ki, qeyd etdiyimiz kimi, Palata tərəfindən hazırlanmış 2021-2030-cu illəri əhatə edəcək auditin üçüncü inkişaf konsepsiyası özündə auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, auditə ictimai etimadın yüksəldilməsi, qabaqcıl xarici təcrübənin daha geniş tətbiqi, rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi, auditor kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi, auditor fəaliyyətində şəffaflığın artırılmasını, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə, auditor xidməti bazarında tənzimləmə və təşkilin inkişaf etdirilməsi, auditor fəaliyyətinin normativ hüquqi təminatının yaxşılaşdırılması istiqamətlərini özündə cəmləşdirir.

Bu konsepsiyanın məqsədi yalnız şəffaflıq, hesabatlılıq və audit sahəsində üzləşdiyimiz ciddi və bəzən də gözlənilmədən meydana çıxan çətinliklər və problemlərin həllinə reaksiya vermək yox, daha çox gələcəkdə yarana biləcək problemlərin qarşısını almaq üçün konseptual yanaşmanı təmin etməkdir.

Konsepsiyada ehtiva olunan əsas istiqamətlərin reallaşdırılması ölkənin qanunvericilik aktlarına müvafiq dəyişikliklərin edilməsi, zəruri tənzimləyici aktların işlənib hazırlanması və nəşri, kompleks təşkilati, təhsil, maarifləndirmə, informasiya təminatı üzrə tədbirlərin həyata keçirilməsi vasitəsilə nəzərdə tutulur.

Heydər Əliyevin dövlətə qayıdışından sonra ölkədə hüquqi əsasların möhkəmləndirilməsi, idarəetmənin sabitləşdirilməsi və konstitusiya əsasında müasir dövlət quruculuğunun əsasları formalaşdırıldı. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 2024-cü il 28 dekabr tarixli sərəncamında qeyd edildiyi kimi, Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil edir. Bu mənada aparılan təhlillər Konstitusiya və audit arasında sıx əlaqənin mövcudluğuna dəlalət edir. Belə ki, maliyyə vəsaitlərinin düzgün və şəffaf idarə olunmasına, həmçinin özəl sektorun düzgün hesabatlılığına görə nəzarət konstitusiya ilə təsbit edilmiş bir hüquqdursa, audit bu hüququn həyata keçirilməsində mühüm bir vasitədir. Konstitusiya maliyyə qanunvericiliyinin, o cümlədən müstəqil auditin qanunvericilik bazasının formalaşmasına əsas yaradır.

Eyni zamanda Konstitusiya dövlət büdcəsinin xərclərinin şəffaf idarə olunmasını tələb etməklə bərabər, maliyyə vəsaitlərinin ifadəsinə nəzarət edən qurumların səlahiyyətlərini, habelə nəzarət qurumlarının müstəqilliyini və fəaliyyət çərçivəsini müəyyənləşdirir.

Konstitusiya dövlət gəlirlərinin və xərclərinin düzgünlüyünü təmin etmək üçün audit sistemini tələb etməklə bərabər, özəl sektorda maliyyə sisteminin dürüstlüyünü qorumaq üçün müstəqil auditin tətbiq olunmasını dəstəkləyir.

Müstəqil auditorlar dövlət vəsaitlərinin məqsədli və səmərəli xərclənməsinə nəzarət edə bilməklə bərabər, dövlət hüququnun prinsiplərinə uyğun olaraq, müstəqil audit korrupsiyanın qarşısının alınmasına və dövlət orqanlarının hesabatlılığının artırılmasına kömək edir. Başqa sözlə, Konstitusiya dövlət orqanlarının fəaliyyətlərinə nəzarət edilməsi və müstəqil auditin həyata keçirilməsi üçün əsaslar təmin edir.

Lakin audit qanunla təsdiq edilən tələblərə uyğun fəaliyyət göstərməlidir. Nəzərə alsaq ki, konstitusiya maliyyə resurslarının düzgün idarə olunmasını və dövlətin maliyyə təhlükəsizliyinin qorunmasını təmin edir, onda auditin maliyyə sisteminin effektivliyini və təhlükəsizliyini yoxlamağa kömək etməklə bu sahədə mühüm rol oynadığı qənaətinə gələ bilərik.

Konstitusiyada təsbit olunmuş ictimai, siyasi nəzarət və iqtisadi cinayətə qarşı mübarizə sahəsində mühüm rol oynamaqla, audit, bu nəzarəti həyata keçirmək və iqtisadi cinayətkarlıqla mübarizə aparmaq üçün vacib bir vasitədir.

Müstəqil audit özəl sektorda müəssisələrin maliyyə hesabatlarının düzgünlüyünü və şəffaflığını təmin edərək həm daxili idarəetmə, həm də kənar maraqlı tərəflər üçün etibarlı məlumatların təqdim edilməsinə xidmət edir.

Konstitusiya və müstəqil audit arasında dinamik və dialektik əlaqənin mövcudluğuna bunlar da dəlalət edə bilər ki, müstəqil auditorlar, müəssisənin maliyyə hesabatlarının beynəlxalq standartlara və mövcud qanunvericiliyə uyğunluğunu yoxlayır, bu da səhmdarlar, investorlar və kreditorlar üçün etibarlı məlumat təmin edir.

Auditor rəyləri müəssisənin şəffaf fəaliyyət göstərdiyini nümayiş etdirərək ictimaiyyətin və bazar iştirakçılarının etimadını artırır.

Müstəqil audit, maliyyə və vergi intizamının gücləndirilməsinə, vəsaitlərin təyinatına uyğun istifadəsinə və korrupsiya hallarının aşkarlanmasına kömək edir.

Auditin Konstitusiyanın reallaşması və demokratiyanın gücləndirilməsindəki əsas faydaları da diqqət çəkir.

Audit dövlət vəsaitlərinin Konstitusiyanın təyin etdiyi ədalət, bərabərlik və səmərəlilik prinsipləri ilə uyğun olmasını təmin edir. Audit vətəndaşlara hökuməti dövlət vəsaitlərini effektiv şəkildə istifadə etdiyinə inam yaradır. Bu etimad demokratiyanın qorunması üçün vacibdir.

Unudulmamalıdır ki, icraedici orqanın nəzarət altında saxladığı dövlət proqramları və xərcləri üzərində nəzarət auditin nəticələrinə əsaslanır.

Vətəndaşların iştirakının gücləndirilməsi kimi vacib məsələdə audit vətəndaşlara resurslardan necə istifadə olunduğunu anlamağa kömək edir və onları hökumətin fəaliyyətini qiymətləndirməyə təşviq edir.

Auditorlar Palatasının arxada qalmış illərdə fəaliyyətinə fikrən nəzər saldıqda, ölkə auditorlarının və audit mütəxəssislərinin, bütövlükdə isə Auditorlar Palatası əməkdaşlarının və üzvlərinin "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn vəzifələrin də öhdəsindən ləyaqətlə gələcəyinə, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin qətiyyətlə, ardıcıllıqla və uğurla davam etdirdiyi yeni Azərbaycan quruculuğu strategiyasının reallaşdırılmasına şəxsi töhfələrini verəcəklərinə əminik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözlərini xatırlamaq yerinə düşərdi: "...Əminəm ki, Auditorlar Palatası bundan sonra da özünün səmərəli fəaliyyəti ilə ölkəmizdə müstəqil auditin inkişaf və tərəqqisinə, şəffaflığın təmin edilməsinə və daha da artırılmasına öz töhfəsini verəcəkdir".

***Vahid NOVRUZOV,***
***Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor***

***Afiqə BAYRAMOVA,***
***Azərbaycan Respublikası Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəis müavini***

# Suverenlik qüruru

## İlham Əliyevin qətiyyətli siyasəti Azərbaycana daha böyük uğurlar və zəfərlər qazandıracaq




*Əvvəli 1-ci səh.*

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynayıb. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu dövlətçilik tarixində mühüm hadisə olub, ölkəmizdə müasir dövlət və vətəndaş cəmiyyəti quruculuğu üçün böyük yol açıb, insan hüquq və azadlıqlarının həyata keçirilməsinə zəmin yaratmaqla ölkə həyatının bütün sahələrinin inkişafına təkan verib. Bu sənəd, sözün əsl mənasında, ölkənin Əsas Qanununa çevrilərək dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı qanunvericilik və institusional islahatların əsası kimi çıxış edib.

2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi təxribatlara və növbəti hərbi təcavüzünə cavab olaraq torpaqlarımızın işğaldan azad olunması, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun rəşadəti və Prezident İlham Əliyevin qətiyyəti sayəsində qazanılan şanlı Zəfər, eləcə də Azərbaycan Respublikasının Konstitusiya quruluşunu bərpa etmək məqsədilə 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən, cəmi 23 saat 43 dəqiqə davam edən uğurlu lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədləri, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi tam bərpa edilib.

Prezident İlham Əliyev ölkəmizin bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq, 2024-cü il sentyabrın 19-da imzaladığı "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" sərəncamla hər il sentyabrın 20-nin Azərbaycan Respublikasında "Dövlət Suverenliyi Günü" kimi qeyd edilməsini qərara alıb.

Ümumiyyətlə, müasir dövrdə heç bir dövlət öz bayrağını haqq etdiyi yerə sancmaq üçün Azərbaycan qədər məşəqqət çəkməyib, güc və enerji xərcləməyib. Azsaylı xalq tapılar ki, azərbaycanlıların etdiyi fədakarlığı göstərib. 30 il əziyyətlərə, məşəqqətlərə dözən xalq sonunda ayağa qalxaraq öz haqqını tələb edib və istəyinə nail olub.

Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da konstitusiya dövlətin müstəqilliyini və suverenliyini təmin etmək üçün əsas sənəddir. Həm ictimai-siyasi, həm də sosial-iqtisadi sistemlərin əsasını təşkil edir, vətəndaşların hüquq və azadlıqlarına təminat verir. Bu baxımdan "Konstitusiya və Suverenlik İli" təşəbbüsü hüquqi bazanın daha da möhkəmləndirilməsinə, dövlət idarəetməsində şəffaflığı artırmağa yönəlmiş strateji addım kimi qiymətləndirilməlidir.

2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan olunması dövlətimizin tarixi, hüquqi və mənəvi təməllərinə göstərilən yüksək ehtiramın parlaq ifadəsidir. Bu qərar yalnız rəmzi bir addım deyil, eyni zamanda milli kimliyimizin, dövlətçilik dəyərlərimizin və gələcəyə inamla baxışımızın strateji təzahürüdür. Bu qərar təkcə hüquqi sənədin ildönümünü qeyd etmək məqsədi daşımır, eyni zamanda müstəqil dövlətçilik tariximizin ən mühüm nailiyyətlərini vurğulamaq, milli suverenliyimizin möhkəmlənməsi prosesinə diqqət çəkmək məqsədini güdür.

Bir sözlə, Azərbaycanın bugünkü uğurları Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyev yoluna sədaqətli xidmətinin, müstəqil siyasət yürütməsinin bacarıq, qətiyyət və iradə ortaya qoymasının nəticəsidir. Əminliklə deyə bilərik ki, məhz bu siyasət bundan sonra da Azərbaycana böyük uğurlar və zəfərlər qazandıracaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Zəngəzur dəhlizi (TRIPP) yeni dövrə qapı açır

### O, sadəcə yol deyil, həm də əməkdaşlıq platformasıdır

**XXI əsrdə beynəlxalq ticarət, enerji təhlükəsizliyi və nəqliyyat-logistika marşrutlarının şaxələndirilməsi hər bir dövlətin strateji maraqlarının mərkəzində dayanır. Bu baxımdan Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP - Zəngəzur dəhlizi) Azərbaycan və region ölkələri, eləcə də Avrasiya məkanında yerləşən bir sıra güc mərkəzləri üçün mühüm tranzit xəttinə çevrilmək potensialına malikdir. Dəhlizin reallaşması Cənubi Qafqazda yeni iqtisadi-siyasi reallıqlar yaratmaqla bərabər Çindən Avropaya uzanan Orta dəhliz strategiyasını da gücləndirir.**




Məlumdur ki, Orta dəhliz həm sürət, həm də təhlükəsizlik, sabitlik və tranzit müxtəlifliyi baxımından strateji üstünlüklərə malikdir. Əsas üstünlüyü odur ki, Rusiyadan keçən Şimal dəhlizinə alternativ olaraq, Qərbin sanksiyaları və siyasi risklərindən uzaq bir marşrutdur. Zəngəzur dəhlizi (TRIPP) bu marşrutun tərkib hissəsinə çevrildikdən sonra Çindən Avropaya gedən yüklərin daha qısa və səmərəli şəkildə daşınması mümkün olacaq. Deyilənlər tam şəkildə reallaşarsa, Mərkəzi Asiya ölkələri, Azərbaycan və Türkiyə logistika mərkəzlərinə çevriləcək, bölgədə yeni iqtisadi dinamika və əməkdaşlıq platformaları formalaşacaq.

Qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı artıq Orta dəhliz üzərində mühüm rol oynayır. Zəngəzur dəhlizinin (TRIPP) bu sistemə əlavə olunması Qafqaz üzərindən yük axınını artırmaqla Azərbaycanın, bütövlükdə regionun tranzit gəlirlərini yüksəldir. Onu da unutmayaq ki, qardaş Türkiyə bu inteqrasiyanın fəal tərəfidir. Çünki Zəngəzur dəhlizi (TRIPP) onun Orta Asiya və Çinlə birbaşa ticarətini gücləndirir. Eyni zamanda Avropa İttifaqı və Çin də Orta dəhlizin inkişafında maraqlıdır. Bu marşrut onların ticarət zəncirlərinin davamlılığını təmin edir. Beləliklə, Zəngəzur dəhlizi (TRIPP) geoiqtisadi məkanın ayrılmaz hissəsinə çevrilməklə həm regiona, həm də qlobal logistik sistemə ciddi təsir göstərəcək.

Qlobal logistik və enerji marşrutlarının yenidən şəkilləndiyi bir zamanda ABŞ ilə Azərbaycan arasında strateji əməkdaşlığın möhkəmlənməsi Zəngəzur dəhlizinin (TRIPP) rolunu daha da artırır. Hazırkı ABŞ-Azərbaycan strateji əməkdaşlığının inkişafı fonunda dəhliz regionda nəqliyyat və ticarət əlaqələrinin genişlənməsi, həmçinin enerji təhlükəsizliyinin təmin olunması baxımından mühüm rol oynayır. Bu da iki ölkə arasında iqtisadi və siyasi əməkdaşlığın dərinləşməsinə şərait yaradar və ABŞ-nin Cənubi Qafqazdakı mövqeyini gücləndirər. Sirr deyil ki, ABŞ-nin Cənubi Qafqaz siyasətində əsas prioritetlərdən biri enerji resurslarının təhlükəsiz və sərbəst daşınmasıdır. Zəngəzur dəhlizi (TRIPP) tranzit imkanlarını genişləndirərək, enerji və ticarət yollarının şaxələndirilməsinə şərait yaradır ki, bu da ABŞ-nin regiondakı strateji maraqlarına uyğundur.

Yaranmış əməkdaşlıq imkanları fonunda bu günlər ABŞ-nin Orta dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının Bakıya səfəri TRIPP (Zəngəzur dəhlizi) və Orta dəhliz layihələrinə olan real marağın göstəricisidir. ABŞ ticarət missiyasının nümayəndələrini xarici işlər naziri Ceyhun Bayramov qəbul edib. Görüş zamanı avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ Prezidentlərinin və Ermənistanın Baş nazirinin iştirakı ilə aparılmış müzakirələr, eləcə də imzalanmış sənədlərin tarixi əhəmiyyəti qeyd olunub. Həmin razılaşmaların regional sülh və tərəqqiyə töhfəsi qeyd edilməklə yanaşı, Azərbaycan-ABŞ əlaqələri üçün böyük perspektivlər açdığı vurğulanıb. Cənubi Qafqaz və bütövlükdə Avrasiya məkanı üçün əhəmiyyət kəsb edən bu razılaşmalar Azərbaycan-ABŞ münasibətlərinə yeni nəfəs verir, qarşılıqlı etimad və strateji tərəfdaşlıq üçün üfüqlər açır.

Qeyd edək ki, Zəngəzur dəhlizi (TRIPP) Orta dəhlizin marşrutunu qısaldaraq yükdaşımalarını sürətləndirəcək və xərcləri azaldacaq. Üstəlik də Cənubi Qafqazı qlobal logistika şəbəkəsinə birləşdirərək regional iqtisadi əməkdaşlığı gücləndirəcək. Bu dəhliz enerji və ticarət sahəsində yeni imkanlar açacaq, alternativ tranzit yollarının formalaşmasına şərait yaradacaq. Buradan aydın görünür ki, Zəngəzur dəhlizi (TRIPP) yalnız regional deyil, həm də qlobal geosiyasi balansların formalaşmasına əhəmiyyətli təsir göstərir. Orta dəhlizin "qısa yol"u və "regional qovşağı" kimi çıxış edən Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə yol daha çevik, rəqabətədavamlı və səmərəli logistika şəbəkəsinə çevriləcək. Məlumdur ki, Azərbaycan son onilliklər ərzində Orta dəhlizin reallığa çevrilməsi üçün əzmlə və ardıcıl şəkildə çalışır. Bu təşəbbüslər söz üzərində qalmayıb, konkret layihələrdə təsdiqini tapıb: Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Azad İqtisadi Zonası kimi iri infrastruktur layihələri Azərbaycanın bu sahədə liderlik iddiasını açıq şəkildə ortaya qoyur. Həmin uğurlar Azərbaycanın bölgədə nəqliyyat qovşağına çevrilmək yolunda necə strateji və sistemli fəaliyyət göstərdiyini bir daha sübut edir.

Nəticə etibarilə Zəngəzur dəhlizi (TRIPP) Orta dəhliz kontekstində yalnız iqtisadi deyil, həm də siyasi güc balansına təsir edən bir faktordur. O, region ölkələrinin müstəqil qərarvermə imkanlarını artırmaqla yanaşı, beynəlxalq güclər arasında yeni əməkdaşlıq modellərinin qurulmasına da zəmin yaradır. Bu baxımdan dəhlizin gələcəyi bütövlükdə Avrasiya məkanında sabitlik və inkişafın taleyini müəyyən edə bilər. Sadalananlar onu deməyə əsas verir ki, Zəngəzur dəhlizi (TRIPP) sadəcə bir nəqliyyat xətti deyil, yeni bir dövrün başlanğıcıdır. Azərbaycanın siyasi iradəsi və strateji baxışı sayəsində region bu gün qovuşma nöqtəsi və əməkdaşlıq meydanına çevrilir.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

## Tarixdə qalacaq layihə

### Zəngəzur dəhlizi (TRIPP) TDT ölkələri arasında münasibətləri gücləndirəcək

**Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri çərçivəsində bir sıra məsələlərlə yanaşı, Zəngəzur dəhlizinin (TRIPP) "Beynəlxalq sülh və rifah üçün Tramp yolu" adı ilə açılması da razılaşdırıldı. Bu layihə mühüm regional və qlobal əhəmiyyətə malik olmaqla, Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında quru bağlantı yaradacaq. Beləliklə, dəhliz həm Naxçıvanla fasiləsiz quru yol əlaqəsini təmin edəcək, həm də Türkiyəyə birbaşa yol açaraq regionda yeni nəqliyyat xəritəsi formalaşdıracaq.**



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, bu, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatında nəzərdə tutulan, lakin icrası illərlə Ermənistan tərəfindən uzadılan məsələnin uğurla reallaşması deməkdir. Dəhlizin açılması Azərbaycan və Ermənistanın xarici bazarlara çıxışını asanlaşdırmaqla, hər iki ölkənin ticarət əlaqələrinin inkişafına təkan verəcək. Digər tərəfdən, beynəlxalq yük daşınmalarının intensivliyinə şərait yaradacaq ki, bu da dünya ticarətinin inkişafına, dünya dövlətləri arasında əmtəə bölgüsünün balanslaşdırılmasına kömək edəcək", - deyə o bildirib.

A.Əsədov həmçinin avqustun 22-də təməli qoyulan Qars-İğdır-Aralık-Dilucu marşrutunun əhəmiyyətindən də bəhs edib. O qeyd edib ki, Naxçıvanla sərhəddə yerləşən 224 kilometrlik dəmir yolunun tikintisi ilə Türkiyənin şərq bölgəsində region, dünya üçün isə qlobal strateji dəyəri olan yeni bir dəmir yolu layihəsinin əsasının qoyulması mühüm əhəmiyyətə malikdir.

O, 2023-cü ilin sentyabrında Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın Qars-Naxçıvan dəmir yolu layihəsi ilə bağlı niyyət protokolu imzaladığını xatırladaraq bildirib ki, nəticədə Qars-İğdır-Aralıq-Dilucu (Naxçıvan sərhədi) dəmir yolu xəttinin tikintisinə başlanılıb.

Bu layihənin Zəngəzur dəhlizinin (TRIPP) reallaşdırılması istiqamətində atılmış tarixi addım olduğunu hesab edən iqtisadçı deyib ki, yeni dəmir yolu illik 5,5 milyon sərnişin və 15 milyon ton yük daşımağa imkan yaradacaq: "Saatda 160 kilometrədək sürətə hesablanmış layihə çərçivəsində 24 tunel, 10 körpü, 144 yeraltı keçid, 27 yerüstü keçid, 480 suötürücü və sairə inşası planlaşdırılıb. Bundan başqa, yolun bir çox hissələrində qrunt möhkəmləndirmə işləri və digər torpaq işləri aparılacaq. Qars-İğdır-Naxçıvan dəmir yolu Zəngəzur dəhlizinin bir hissəsidir və təkcə Türkiyəni Azərbaycanla birləşdirməyəcək, həm də qlobal nəqliyyat və ticarət yollarının əsas arteriyalarından birinə çevriləcək".

A.Əsədov xatırladıb ki, Azərbaycan Zəngəzur dəhlizinin (TRIPP) öz ərazisindən keçən hissəsində 110 kilometrlik Horadiz-Füzuli-Ağbənd dəmir yolu tikintisinin 67 faizindən çoxunu başa çatdırıb və tikintinin 5 il müddətində tam yekunlaşdırılması planlaşdırılıb. Dəmir yolu dəhlizinin tam gücü ilə işləməsi üçün Türkiyə öz ərazisinə düşən 224 kilometrlik hissəni tikir, Naxçıvan sərhədində olan, təqribən, 170 kilometrlik hissəni isə Azərbaycan tərəfi tikəcək. Burada 150 kilometr yol öncədən mövcud idi və müəyyən rekonstruksiya işləri aparılacaq, 20 kilometr dəmir yolu isə sıfırdan salınacaq. 43 kilometrlik Zəngəzur dəhlizinin (TRIPP) tikintisi ilə bağlı məsələlər də aydınlaşmaq üzrədir və bütün hallarda qeyd edilən dəmir yolunun tikinti işlərinin eyni vaxtda tamamlanması nəzərdə tutulur. "Bundan başqa, dəhliz uzun müddətdir blokada şəraitində olan Naxçıvan üçün iqtisadi inkişaf baxımından yeni imkanlar yaradacaq. Təbii ki, regionun digər ölkələri, o cümlədən Ermənistan üçün də bu dəhliz faydalı ola bilər - ölkə tranzit mərkəzinə çevrilə, xarici bazarlara çıxış əldə edə və investisiyaların cəlbi baxımından təşviqedici ola bilər. Nəticədə, Naxçıvan-Bakı əlaqələrini intensivləşdirəcək bu dəmir yolunun bərpası və tikintisi təkcə regional deyil, həm də beynəlxalq diqqət mərkəzindədir. ABŞ də daxil olmaqla bir çox ölkələr bu prosesə ciddi maraq göstərirlər", - deyə o əlavə edib.

A.Əsədov qeyd edib ki, Orta dəhlizlə davamlı olaraq artan yük axınını aşıra biləcək yeni yollara ehtiyac var. Bu baxımdan Qars-İğdır-Aralık-Dilucu yolunun tamamlanması ilə yük axınlarının yeni bir marşrutu formalaşacaq. Bu yol Bakı-Tbilisi-Qars xəttinə alternativ deyil, onu tamamlayan, yük axınlarını birgə aşırmağa imkan verən əməkdaşlıq yoludur.

Ekspert vurğulayıb ki, beynəlxalq sülh və rifaha xidmət edəcək Zəngəzur dəhlizinə (TRIPP) yalnız nəqliyyat və logistika nöqteyi-nəzərindən yanaşmaq doğru olmaz: "Bu layihə, həm də Azərbaycanla Türkiyə arasında, ümumilikdə isə Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında iqtisadi və siyasi münasibətlərin güclənməsinə xidmət edəcək. O cümlədən Zəngəzur dəhlizinin (TRIPP) Cənubi Qafqazda sabitlik və mehriban qonşuluğun gücləndirilməsi kontekstində əhəmiyyəti xüsusilə qeyd olunmalıdır. Tarixən parçalanmış marşrutların bərpası türk dünyası arasında körpü funksiyasını yerinə yetirəcək. Eyni zamanda Avrasiya məkanında nəqliyyat-tranzit fəaliyyətlərini gücləndirəcək mühüm bir marşruta çevriləcək. Beləliklə, Zəngəzur dəhlizi (TRIPP) qarşıdakı onilliklərdə regional proseslərə təsir edən əsas layihələrdən biri kimi tarixdə qalacaq".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## *Gürcüstan eksperti:* "Nəqliyyat sahəsində liderlik Azərbaycana regional bazara daha dərin inteqrasiya imkanı verir"

**AZƏRTAC logistika üzrə gürcü eksperti, Avropa Biznes Assosiasiyasının (ABA) Gürcüstandakı prezidenti Con Brekefeldt ilə müsahibəni təqdim edir.**

*- Siz 20 ildən artıqdır ki, Qafqazda logistika sahəsində çalışırsınız. Sizcə, Azərbaycanı unikal logistika mərkəzinə çevirən nədir?*

- Azərbaycan Avropa və Asiyanın kəsişməsində strateji mövqeyi, həmçinin yüksək inteqrasiya olunmuş multimodal infrastrukturu ilə seçilir. Bu yaxınlarda Bakı Limanının Azərbaycan Dəmir Yolları QSC-nin tərkibinə daxil edilməsi ölkənin dəniz və dəmir yolu nəqliyyatı arasında qüsursuz koordinasiyanın təmin edilməsinə sadiqliyinin bariz nümunəsidir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun *(Orta dəhliz - red.)* üzərində yerləşən Azərbaycan daha uzun şimal və ya cənub marşrutlarından yan keçməklə Çin, Mərkəzi Asiya və Avropa arasında yük daşımaları üçün daha sürətli alternativ marşrut təklif edir.

*- Orta dəhlizin inkişafında Azərbaycanın hansı rol oynadığını görürsünüz?*

- Azərbaycan həm fiziki, həm də əməliyyat mərkəzi kimi xidmət edən Orta dəhlizin mərkəzi sütunudur. Son məlumatlar göstərir ki, 2024-cü ildə Azərbaycan ərazisindən keçən tranzit yüklər 14,5 milyon tona çatıb ki, bunun da 4,5 milyon tonu Orta dəhlizdən daxil olub. Bu isə, əvvəlki illə müqayisədə 7% çoxdur. Dünya Bankının araşdırmalarına görə, bu dəhliz boyunca tranzit müddətini iki dəfə azaltmaqla və yük axınını üç dəfə artırmaqla Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında ticarət 2030-cu ilə qədər 37%, Aİ ilə ticarət isə 28% arta bilər. Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi, Ələtdə terminallar və rəqəmsal logistika sistemləri bu marşrutun səmərəliliyini və cəlbediciliyini artırır.

*- Sizin zənninizcə, yaxın 5 ildə Avropa İttifaqı ilə Azərbaycan arasında ticarət əlaqələrinin dərinləşməsinin real perspektivləri necədir? Azərbaycanda avropalı investorlar üçün ən böyük potensialı hansı sektorlarda görürsünüz?*

- Avropa İttifaqı ilə Azərbaycan arasında ticarət əhəmiyyətli dərəcədə dərinləşmək potensialına malikdir, buna "Cənub qaz dəhlizi"nin davam edən genişlənməsi də kömək edir. Aİ rəsmiləri aşağıdakı sahələrdə əməkdaşlığı genişləndirməklə yanaşı, Azərbaycanın strateji enerji tərəfdaşı kimi etibarlılığını vurğulamaqda davam edirlər:

- Enerji və hidrogen, xüsusən "Cənub qaz dəhlizi" və yeni yaranan "Yaşıl Enerji" Dəhlizi təşəbbüsləri vasitəsilə;
- Logistika infrastrukturu - limanların, dəmir yolu xətlərinin, rəqəmsal sistemlərin modernləşdirilməsi. Artıq alman investorları Ələt limanının modernləşdirilməsinə maraq göstərirlər;
- Azərbaycan külək enerjisini Avropaya gətirmək üçün Qara dənizdə sualtı kabel kimi bərpaolunan enerji də daxil olmaqla yaşıl infrastruktur yaradır.

*- Siz Avropa Biznes Assosiasiyasının Gürcüstanda sədrisiniz. Azərbaycanda analoji strukturun yaradılması və ya gücləndirilməsi planları varmı?*

- Hazırda Azərbaycanda Avropa Biznes Assosiasiyası strukturunun yaradılması ilə bağlı rəsmi, açıq elan edilmiş plan yoxdur, lakin son hadisələr belə bir təşəbbüs üçün əlverişli şəraitin olduğunu göstərir. Aİ-nin müxtəlif mexanizmləri tərəfindən maliyyələşdirilən və dəstəklənən 2024-2026-cı illər Aİ-Azərbaycan Biznes-Forumu artıq biznes dialoqu üçün strukturlaşdırılmış platforma yaratmağa başlayıb. Bu təşəbbüs iqtisadi əməkdaşlığı təşviq edir, ölkənin investisiya mühiti haqqında məlumatlılığı artırır, forumlar və regional missiyalar vasitəsilə dövlət-özəl sektorun əlaqəsini dəstəkləyir.

Azərbaycanda ABA-ya oxşar formal qurumun olması bir sıra üstünlüklər gətirəcək:

- Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin gücləndirilməsi ticarət, enerji və iqtisadiyyatın şaxələndirilməsi sahələrində Aİ ilə Azərbaycan arasında artıq mövcud olan strateji tərəfdaşlığı gücləndirərək işgüzar əlaqələri institusionallaşdıracaq və dialoqu asanlaşdıracaq.
- Regional əməkdaşlığın genişləndirilməsi: Biznes assosiasiyası regional ticarət və infrastruktur təşəbbüslərinin koordinasiyası üçün əsas mərkəzə çevrilə və regional əməkdaşlığı gücləndirmək üçün digər ölkələrin ABA-ları ilə strateji tərəfdaşlıqlar qura bilər.
- Aİ-nin regional yanaşmasını əks etdirmək: Aİ, adətən təcrid olunmuş milli təşəbbüslərə deyil, regional platformalara diqqət yetirir. Azərbaycanda ABA-nın yaradılması Cənubi Qafqazda çoxtərəfli dialoqu, birgə layihələri və inteqrasiyanı təşviq edən bu strategiyaya uyğun olardı. O, regional sabitliyi, habelə ticarət, logistika və investisiyaya ümumi yanaşmanı dəstəkləyəcək.



*- Azərbaycan şirkətləri Avropa Biznes Assosiasiyaları və ya "EBO Worldwide" şəbəkəsinin himayəsi altında regional Avropa biznes təşəbbüslərində hansı rol oynayır?*

- Müxtəlif ölkələrdə Avropa Biznes Assosiasiyalarının üzvü olan Azərbaycan şirkətləri "EBO Worldwide" şəbəkəsinə çıxış əldə edir. Aİ-dən kənarda 59-dan çox ölkədə Avropa biznesinin maraqlarını təmsil edən bu şəbəkə biznes şəbəkələri qurmaq, siyasət dialoqunda iştirak etmək və ticarət və investisiya sahəsində əməkdaşlıq imkanlarını təmin edir.

Hərçənd bəzi Azərbaycan şirkətləri artıq xaricdə ABA-ya üzvlük vasitəsilə bu şəbəkədən faydalanır. Ancaq Azərbaycanda xüsusi Avropa Biznes Assosiasiyasının yaradılması regional əməkdaşlığı əhəmiyyətli dərəcədə artıra bilər. Belə bir təşkilat Azərbaycan şirkətlərinin avropalı tərəfdaşlarla qarşılıqlı əlaqədə olması, qabaqcıl təcrübə mübadiləsi və birgə təşəbbüslərdə iştirak etməsi üçün birbaşa platforma təmin edəcək və bununla da regionda iqtisadi əlaqələri gücləndirəcək.

*- Azərbaycanla Gürcüstan arasında iqtisadi əməkdaşlığın hazırkı səviyyəsini necə qiymətləndirirsiniz? Başqa nələri yaxşılaşdırmaq olar?*

- Azərbaycan ilə Gürcüstan arasında strateji nəqliyyat dəhlizləri, enerji əlaqələri və birgə "yaşıl enerji" layihələrinə əsaslanan iqtisadi əməkdaşlıq güclü və dinamikdir. Ən əlamətdar nümunələrə "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Ceyhan neft kəməri və digər boru kəmərləri layihələrini göstərmək olar. Gələcək əməkdaşlığın əsas istiqamətlərindən biri də Rumıniya və Macarıstan tərəfindən dəstəklənən Qara dənizin altından keçən sualtı kabel - "Yaşıl Enerji" Dəhlizidir. Bundan əlavə, Avropa İttifaqı və Dünya Bankının dəstəyi ilə maliyyələşdirilən layihə olan Gürcüstanda "Şərq-Qərb" magistralının modernləşdirilməsi və genişləndirilməsi mühüm rol oynayır. Bu avtomobil yolu təkmilləşdirilmiş yol infrastrukturu vasitəsilə Azərbaycanla daha səmərəli əlaqəni təmin edir.

Bununla belə, hələ də əlavə inkişaf tələb edən sahələr var. Bu, xüsusən, malların sərhədlərdən rahat keçirilməsini təmin etmək üçün rəqəmsal platformaların və gömrük rəsmiləşdirilməsi prosedurlarının daha dərin inteqrasiyasıdır. Həmçinin "yaşıl enerji" və logistika infrastruktur layihələrinin maliyyələşdirilməsi və istismarı üçün dövlət-özəl tərəfdaşlıq əlaqələrini genişləndirmək lazımdır. Birgə layihələrin daha koordinasiyalı planlaşdırılması, o cümlədən icra müddətlərinin sinxronlaşdırılması, standartların unifikasiyası və investisiya axınlarının əlaqələndirilməsi irəliyə doğru atılan mühüm addım olardı.

*- Cənubi Qafqazın üç ölkəsi - Gürcüstan, Azərbaycan və Ermənistanın bir layihə çərçivəsində faktiki əməkdaşlıq edə biləcəyi nümunələr varmı? Bu cür təşəbbüslərdə sizin rolunuz nədən ibarətdir?*

- Cənubi Qafqazın hər üç ölkəsini əhatə edən tamhüquqlu infrastruktur layihələri hələ də həyata keçirilməsə də, son diplomatik hadisələr regional əməkdaşlıq istiqamətində müsbət dinamikadan xəbər verir. Məsələn, Vaşinqtonda Ermənistan ərazisindən keçməklə Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək nəqliyyat dəhlizinin yaradılması ilə bağlı əldə olunmuş razılaşmanı göstərmək olar.

Bu kontekstdə bizim rolumuz isə bundan ibarətdir: biz informasiya və diplomatik dəstək veririk, regional əməkdaşlıq ideyasını təşviq edirik və onun faydalarını hər bir ölkədə maraqlı tərəflərə nümayiş etdiririk. Biz həmçinin infrastrukturun inkişafı və transsərhəd logistika sahəsində ən yaxşı beynəlxalq təcrübələrə əsaslanan logistika ekspertizası təqdim edirik. Bundan əlavə, biz potensial investorlarla dövlət qurumları arasında qarşılıqlı əlaqəni koordinasiya edirik, maraqların və resursların uyğunlaşdırılmasını asanlaşdırırıq. Bütün bu səylər qarşılıqlı əlaqə səviyyəsini əhəmiyyətli dərəcədə artıra və bütün Cənubi Qafqazın iqtisadi inkişafına töhfə verə biləcək gələcək inklüziv regional layihələrin əsasını qoymağa yönəlib.

*- Azərbaycanın Cənubi Qafqazın ümumi bazarına, xüsusən logistika, enerji və "yaşıl iqtisadiyyat" sahələrində inteqrasiyası potensialını necə qiymətləndirirsiniz?*

- Artıq lazımi təməl qoyulub. Azərbaycanın nəqliyyat, enerji və inkişaf edən "yaşıl dəhliz"lər sahəsində liderliyi ölkəyə regional bazara daha dərin inteqrasiya üçün yaxşı mövqelər təqdim edir.

Bu prosesi asanlaşdıran əsas amillər Bakı-Tbilisi-Qars dəmir yolu, dəniz limanları və rəqəmsal nəqliyyat dəhlizləri kimi multimodal logistika platformalardır. Bundan əlavə, enerji əlaqələri - qaz kəmərləri, yaşıl enerjinin ötürülməsi üçün sualtı kabellər, eləcə də ölkələr arasında elektrik enerjisi mübadiləsi üçün modellər mühüm rol oynayır. Perspektivli istiqamət "yaşıl enerji" dəhlizlərinin inkişafı, o cümlədən bərpaolunan elektrik enerjisinin Avropaya ixracı və gələcəkdə potensial hidrogen hablarının yaradılmasıdır.

Standartların uyğunlaşdırılması, razılaşdırılmış siyasət çərçivələri və transsərhəd infrastruktura birgə investisiyalar vasitəsilə inteqrasiya Cənubi Qafqazı qlobal tədarük zəncirlərinə birləşdirilən vahid və rəqabətqabiliyyətli bazara çevirə bilər.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Minsk qrupunun tarixin arxivinə göndərilməsi dövlətimizin ədalətli mövqeyinin beynəlxalq müstəvidə qəbulunun ifadəsidir

**"ATƏT-in Minsk qrupunun ləğv olunması Azərbaycan dövlətinin çox mühüm diplomatik qələbəsidir. Ermənistan-Azərbaycan münaqişəsinin davam etdiyi müddətdə heç bir səmərəli fəaliyyəti olmayan bu təşkilatın ləğvi tamamilə məntiqli və qanunauyğun addımdır".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Samir Vəliyev söyləyib.

Deputat xatırladıb ki, sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub. Azərbaycan Prezidenti və Ermənistan baş naziri ABŞ Prezidentinin iştirakı ilə avqustun 8-də Vaşinqton şəhərində baş tutmuş görüşü zamanı belə bir razılığa gəliblər. Bu razılıq çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət ünvanladılar. Buna uyğun olaraq, ATƏT-in Minsk prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin münaqişə üzrə şəxsi nümayəndəsinin və yüksəksəviyyəli planlaşdırma qrupunun fəaliyyətinə xitam verilib. Bununla da, vaxtilə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması məqsədilə təsis edilmiş sözügedən təsisatın münaqişənin həlli nəticəsində yaranmış yeni şəraitdə lüzumsuz olması bütün ATƏT iştirakçı dövlətləri tərəfindən qəbul edilərək, həmin institutların bağlanması rəsmiləşdirilib.

Rəsmi Bakının mövqeyi belədir ki, bu qərarın qəbulu vaxtilə işğal edilmiş ərazilərimiz azad olunması və bununla da Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması ilə bağlı reallığın və Azərbaycan tərəfindən irəli sürülmüş sülh gündəliyinin beynəlxalq müstəvidə qəbul edilməsinin göstəricisidir. Eyni zamanda bu, Vaşinqton görüşündə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi ilə əlaqədar əldə edilmiş razılıqların praktiki icrası istiqamətində mühüm addımdır.

Onun sözlərinə görə, Azərbaycan dövləti və xalqı Minsk qrupunun həmsədrlərinin fəaliyyətindən heç vaxt razı qalmayıb: "ATƏT-in Minsk qrupu 1992-ci ildən fəaliyyət göstərirdi. Quruma həmsədrlik etmiş ölkələr dünyanın ən böyük dövlətləri sırasında yer alır. Onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvü olsalar da, 30 ilə yaxın müddətdə Ermənistan qoşunlarının ölkəmizdən çıxarılmasını tələb edən 4 qətnamənin icrası üçün heç nə etmədilər. Həmsədr dövlətlərin işğalçı Ermənistana ciddi təsir etmək imkanları var idi. Müəyyən sanksiyalar tətbiq olunsaydı, işğalçı qüvvələr geri çəkilməyə məcbur olardı, amma bunu etmədilər. Həmsədrlər vaxtaşırı bölgəyə səfər etməkdən, bir-birinin təkrarı olan bəyanatlar səsləndirməkdən başqa heç bir iş görmədilər. Əksinə, Azərbaycan cəmiyyəti çox zaman həmsədrlərin bəyanatlarının erməni tərəfinin maraqlarına uyğun olmasından narahatlığını ifadə edib. Buna görə də Azərbaycan dövləti öz gücünə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etdi".

Samir Vəliyev qeyd edib ki, ATƏT-in Minsk qrupunun ləğv edilməsi sülh sazişinin imzalanması üçün Azərbaycanın iki şərtindən biri idi. Prezident İlham Əliyev bununla bağlı prinsipial mövqeyini dəfələrlə bəyan etmişdi. Rəsmi İrəvan ilk vaxtlarda bu şərti yerinə yetirmək istəməsə də, sonda reallıqları qəbul etməli oldu. Çünki qalib və haqlı tərəf məhz Azərbaycandır. Beləliklə, keçmiş münaqişənin bir göstəricisi olan ATƏT-in Minsk qrupunun tarixin arxivinə göndərilməsi dövlətimizin gücünün və ədalətli mövqeyinin beynəlxalq müstəvidə qəbulunun ifadəsidir. Artıq bundan sonra proseslər regionda sülh və əməkdaşlığın bərqərar edilməsinə köklənməlidir.

## "TimeTürk": "Azərbaycanın mövqeyi Parisin müstəmləkəçi simasını dünyaya bir daha nümayiş etdirib"

**Qərbin insan haqlarını və demokratiyanı qorumağa çalışması ilə bağlı iddiaları reallıqla ziddiyyət təşkil edir. Qərb ölkələrinin "yüksək idealları", əslində, geosiyasi məqsədlərə çatmaq üçün bir vasitədir. Buna misal olaraq, Fransanın Yeni Kaledoniyadakı müstəmləkəçilik siyasətini göstərmək olar. Azərbaycanın bu məsələdə mövqeyi dünyaya Parisin əsl simasını görməyə imkan verib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin "TimeTürk" nəşri "Fransa, Yeni Kaledoniya və seçki vicdanı" sərlövhəli məqaləsində yazır.

Məqalənin müəllifi Şakir Kurter xatırladır ki, Fransa hələ 1853-cü ildə Yeni Kaledoniyanı ələ keçirib və bu ərazi qurumu bu günə kimi "dünyada müstəmləkəçiliyin ən rüsvayçı nümunələrindən biri" olaraq qalır.

"Paris uzun illərdir ki, Yeni Kaledoniyanın müstəqilliyi ilə bağlı referendumu təxirə salır, seçki proseslərinin nəticələrini manipulyasiya edir və bölgənin etnik tərkibini yerli əhalinin - kanakların zərərinə dəyişməyə çalışır. XXI əsrin Yeni Kaledoniyasında, əslində, Parisin XIX əsrdəki Əlcəzair ssenarisi olduğu kimi təkrarlanmır. Onlar digər ölkələrin daxili işlərinə qarışaraq mühazirə oxuyurlar, xüsusən də fransızlar Türkiyədə "kürd məsələsi"ni aktiv şəkildə müzakirə edir və ya Azərbaycanla bağlı ermənipərəst bəyanatlar verirlər. Elə həmin Paris Suriyada terrorçuları dəstəkləyir", - deyə nəşr vurğulayır.



TIMETURK

DÜNYA GÜNDEM POLİTİKA EKONOMİ SPOR SAĞLIK TEKNOLOJİ KÜLTÜR YAŞAM GENEL ANALİZ OTOMOTİ

Dolar 41,2736 | Euro 48,6046 | Altın 4.837,41 | Bist 10.449,36 | Dolar 41,2736

**Fransa, Yeni Kaledonya ve Seçici Vicdan**

Batı'nın demokrasi ve insan hakları nutuklarını dinlediğinizde, sanırsınız ki dünyada adaleti koruyan bir "medeniyet muhafızı" var. Oysa gerçeğe bakınca, bu yüksek ideallerin aslında birer jeopolitik aparat olduğu hemen ortaya çıkar. Fransa'nın Yeni Kaledonya'daki sömürgeci politikası ve Azerbaycan'ın buna verdiği karşılık, bu maskeyi düşüren en güncel örneklerden biridir.

1853'ten beri Fransa işgali altında olan, yerli halkın "Kanakya" dediği ada, modern çağın en utanmaz sömürgecilik vakalarından birine sahne oluyor. Paris yönetimi, bağımsızlık referandumlarını yıllarca erteleyip sonuçlarını manipüle ederek, Kanak

Kurter daha sonra yazır ki, söhbət Fransanın özündən və ya dənizaşırı ərazilərdəki vəziyyətdən gedəndə, Paris yerli əhalinin, o cümlədən Korsika sakinlərinin hüquqlarını pozmaq üçün sistemli addımlar ataraq "maskasını kənara atır".

Məqalədə deyilir: "Azərbaycanın Yeni Kaledoniya sakinlərinin hüquqlarını müdafiə edən hərəkatı dəstəkləməsi Parisin "seçki vicdanına" güclü zərbə vurdu. Yeni Kaledoniyada keçirilən mitinqlərdə Azərbaycan Bayrağının qaldırılması Parisdə ciddi narahatlığa səbəb olub, satın alınmış Qərb mediası isə Bakını "təxribatlarda" ittiham etməyə başlayıb. "Azadlıq lövhəsi" və Qərbin mənəvi üstünlüyü iddiaları artıq ədalətin tələblərinə uyğun gəlmir".

Məqalənin müəllifi Azərbaycanın Yeni Kaledoniya ilə bağlı mövqeyini "Qərbin seçkilərə yanaşmasını məhv etməyə yönəlmiş manifest" adlandırır. "Ədalət Qərbin ikiüzlülüyünün deyil, ümumbəşəri dəyərlərin təzahürüdür", - deyə Kurter vurğulayır.

## Kreml Azərbaycana qərəzli münasibətini dəyişməlidir

**Siyasətdə təsadüf olmur. Hər addım ölçülüb-biçilmiş plan əsasında atılır. Buna praqmatik siyasət deyilir, xüsusən də dövlətlərarası münasibətlərdə bu prinsip əsas götürülür. Danılmaz faktdır ki, beynəlxalq münasibətlərdə ortaq və strateji maraqlar həmişə üstünlük təşkil edir. Süni şəkildə yaradılmış Qarabağ problemi də məhz bu maraqların nəticəsi olaraq Cənubi Qafqazı nəzarətdə saxlamaq istəyən böyük güclərin əlində siyasi manipulyasiya alətinə çevrilmişdi.**



Azərbaycan müstəqilliyini elan etdikdən sonra ərazilərinin 20 faizdən çoxu Ermənistan tərəfindən işğal olundu. Həmin işğalın arxasında kimin silahı, kimin gücü dayandığı isə məlum idi.

30 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri kimi vasitəçilik edən dövlətlər, əslində, "status-kvo"nun qorunub saxlanılmasına xidmət edirdilər. Bu, heç də sirr deyil ki, məqsəd Ermənistan vasitəsilə Azərbaycanın suverenliyinə və müstəqilliyinə qəsd etmək idi. 2020-ci ilin payızında başlayan Vətən müharibəsi bölgədə söz sahibi olduqlarını zənn edən həmin dövlətlər üçün gözlənilməz sürpriz oldu. Xalqın birliyi, Azərbaycan Ordusunun gücü, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və sərkərdəlik məharəti bütün məkrli planların üstündən xətt çəkdi. Azərbaycan öz torpaqlarını işğaldan azad etməklə həm suverenliyini, həm də müstəqilliyini tam bərpa etdi.

Bu məqamda Vətən müharibəsinin son günündə - 2020-ci il noyabrın 9-da baş verən Rusiyaya məxsus "Mi-24" helikopterinin vurulmasını xatırlamaq yerinə düşər. Ermənistanın Yerasx kəndi yaxınlığında Azərbaycanın sərhədinə yaxınlaşan "Mi-24" helikopteri vuruldu. Məlumata görə, həmin helikopter transponderləri söndürərək sərhədin Naxçıvan istiqamətinə qədər irəliləyən erməni kolonunu müşayiət edirdi.

Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində bu hadisəni belə izah etmişdi: "Azərbaycan öz sərhədinə yaxınlaşan rus helikopterini təsadüfən vurdu, halbuki o, orada olmalı deyildi. Otuz il ərzində rus helikopterləri heç vaxt Azərbaycan sərhədinə yaxınlaşmamışdı. Helikopter Ermənistandan uçaraq gəlirdi. Vuranlar üçün aydın idi ki, Ermənistan helikopteri ərazimizə daxil olur, ona görə də onu vurublar".

Azərbaycan böyüklük göstərərək Rusiya tərəfinə dərhal üzrxahlıq etdi, təzminat ödəməklə pilotların ailələrinə dəstək verdi və məsul şəxsləri cəzalandırdı.

2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror əməliyyatı ilə Azərbaycanın Qarabağ üzərində suverenliyi tam bərpa edildi. Bununla da 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq "sülhməramlı" obrazında Qarabağa yerləşdirilən Rusiya kontingenti bölgəni tərk etməli oldu. Necə ki 2020-ci il Vətən müharibəsində əldə etdiyimiz qələbə Fransanı Cənubi Qafqaz siyasətində oyundankənar vəziyyətə salmışdı, 2023-cü ilin antiterror əməliyyatı da eyni aqibəti Rusiya üçün təkrarladı. Kremlin siyasi dairələri anladı ki, gələcəkdə Cənubi Qafqaz onlar üçün əlçatmaz ola bilər.

Fərqli siyasi gedişləri ilə tarix yazan Prezident İlham Əliyev sülh və sabitlik naminə Avropa İttifaqı və ABŞ-nin vasitəçiliyi ilə aparılan müzakirələrə üstünlük verdi. Azərbaycanın müstəqil siyasəti və diplomatik manevrləri Rusiyanı qane etməsə də, münasibətlərdə açıq gərginlik hələlik müşahidə olunmurdu. Amma gərginliyi yaratmaq üçün Moskvanın bəhanə axtarışı ciddi şəkildə hiss olunmaqda idi.

2024-cü ilin dekabrında Rusiya səmasında Azərbaycanın sərnişin təyyarəsinin vurulması bütün proseslərin kulminasiya nöqtəsinə çevrildi. Bu hadisəni təsadüf hesab etmək mümkün deyil. Bu, Moskvanın ölkəmizi açıq şəkildə "cəzalandırmaq" istədiyinin nümayişi idi.

Prezident İlham Əliyev həmin hadisəyə münasibətdə qəti mövqeyini ortaya qoydu: "Təyyarəni vuranlar cəzalandırılmalı, Rusiya Azərbaycandan üzr istəməlidir". Bu günlərdə "Əl-Ərəbiyyə" telekanalına müsahibə verən dövlətimizin başçısı baş verən hadisəyə münasibət bildirərək demişdir: "Əvvəla, təyyarəyə heç vaxt atəş açılmamalı idi. Dron hücumları zamanı ruslar xüsusi rejim - "kavyor" elan edirlər, bütün təyyarələr xəbərdar olunur. Ancaq bu dəfə siqnal verilmədi, təyyarə vurulduqdan sonra xəbərdarlıq göndərildi. Bu isə sadəcə araşdırmanı çaşdırmaq cəhdi idi".

Prezident əlavə etdi ki, təyyarəyə iki dəfə atəş açılıb. Pilotların peşəkarlığı sayəsində o, fövqəladə eniş edə bilib. Təyyarənin gövdəsində çoxsaylı qəlpə izləri isə Rusiyanın hava hücumundan müdafiə sistemi tərəfindən vurulduğunu sübut edirdi".

Məsələ burasındadır ki, Rusiya nə üzr istədi, nə də kompensasiya ödəməyi qəbul etdi. Əksinə, təzyiq və təhdidə üstünlük verdi, paralel şəkildə Azərbaycan media və hökumət resurslarına qarşı kiberhücumlar başladı. Sonradan müəyyən olundu ki, bu hücumları Kremlin dəstəklədiyi APT29 ("Cozy Bear") qrupu həyata keçirib.

Bundan əlavə, Rusiyada azərbaycanlıların incidilməsinə, hətta soydaşlarımızın qətl edilməsinə qədər qeyri-insani davranışların şahidi olduq.

Rusiya yalnız hərbi və siyasi təzyiqlərlə deyil, həm də hibrid müharibə üsulları ilə ölkəmizə qarşı fəaliyyət göstərir. Söhbət ondan gedir ki, bu da son deyil. Faktiki olaraq, Rusiya kiberhücumları öz ərazisində azərbaycanlı iş adamlarına qarşı sistemli şəkildə həyata keçirdiyi təzyiq və təqib kampaniyasını, Ukrayna ərazisində isə Azərbaycan şirkətlərinə məxsus obyektləri dronlarla məhv etməklə davam etdirir. Rusiyanın münasibətlərində ikili mövqe açıq-aydın hiss olunmaqdadır. Dövlət başçıları səviyyəsində bir mövqe sərgilənsə də, Rusiya parlamentində və informasiya vasitələrində Azərbaycana qarşı ciddi informasiya müharibəsinə start verilib.

Hadisələrin gedişi göstərir ki, Kreml Azərbaycanla münasibətlərdə obyektivlikdən uzaq, qərəzli mövqe tutur. Amma bütün bu təzyiqlərə baxmayaraq, Azərbaycan dövləti öz müstəqil siyasət kursundan dönmür və dönməyəcək. Çünki xalqın iradəsi, Prezident İlham Əliyevin qətiyyətli siyasi xətti Azərbaycanın ən böyük təminatıdır. Bundan sonra Cənubi Qafqazın gələcəyi Azərbaycanın gücü və qətiyyəti ilə müəyyən olunacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Paşinyanın reytinqi yüksəlir

## Sülh istəməyən revanşistlərin ümidləri puç olur

**Ermənistanda iqtidar və müxalifətin bir-birilərinə qarşı kompromat xarakterli hücumlarının artması, gözdənsalma kampaniyasını genişləndirmələri vəziyyəti daha kritik həddə çatdırır. İndi həm hakimiyyət, həm də revanşistlər 2026-cı ilin parlament seçkilərinə hazırlaşırlar. Bu isə qarşıdakı dövrdə Ermənistanda xaosun qaçılmaz olduğunu deməyə əsas verir.**

Avropa İttifaqı (Aİ) 2026-cı ildə Ermənistanda keçiriləcək parlament seçkiləri ilə bağlı hazırlığa başlayıb. Rusiya mediasının yazdığına görə, Aİ "ProElect" layihəsi vasitəsilə Ermənistanda keçiriləcək seçkilərə hazırlıqla bağlı genişmiqyaslı proqrama start verilib: "Brüssel "dezinformasiyaya qarşı mübarizə" adı altında ölkənin seçki prosesini və media məkanını nəzarətə götürməyi planlaşdırır.

"ProElect" layihəsi nədir? Bu, "vətəndaş cəmiyyəti subyektlərinin iştirakı və potensialının artırılması yolu ilə "Şərq Tərəfdaşlığı" proqramı ölkələrində seçki proseslərində hesabatlılığı təşviq etmək" məqsədi daşıyan Aİ-nin regional layihəsidir. Məqsəd seçkilərin monitorinqində vətəndaş cəmiyyətinin rolunu "gücləndirməkdir".

Layihə Fransanın ERIM QHT-si tərəfindən xüsusi olaraq "demokratiyaya dəstək" üçün ayrılmış 270 milyon avro büdcə ilə həyata keçirilir. Qrantlar "seçicilərin maarifləndirilməsi" və "nifrət nitqi ilə mübarizə" üçün KİV və QHT-lərə verilir. LGBT təşkilatlarına xüsusi üstünlük verilir".

Ermənistanın "4rd.am" nəşri yazıb ki, Aİ-nin hədəfi seçkilərdə baş nazir Nikol Paşinyan və komandasının qələbəsinə nail olmaqdır: "Qərb müşahidəçiləri artıq Ermənistanda müxalifətin həbslərinə, cinayət işlərinin saxtalaşdırılmasına göz yumurlar. Bu mexanizm artıq Ukrayna və Moldova timsalında uğurla sınaqdan keçirilib".



Gələn il keçiriləcək seçkilərdə iqtidar-müxalifət qarşıdurmasının daha kəskin mərhələyə qədəm qoyacağı gözlənilir. Avqustun 8-də ABŞ-nin Vaşinqton şəhərində imzalanan Birgə Bəyannamədən sonra hakim partiya seçkilərə sülh və inkişaf platforması ilə gedəcəyini ortaya qoyub. Bu tarixi hadisədən sonra Ermənistanda böyük əksəriyyət hakimiyyətin atdığı addımı müsbət qiymətləndirib. GALLUP şirkəti tərəfindən keçirilən sorğuda respondentlərə bir sual ünvanlanıb: "Bazar günü parlament seçkiləri keçirilsə, hansı siyasi qüvvəyə səs verərdiniz?" Respondentlərin verdiyi cavablardan da məlum olur ki, onlar daha çox baş nazirin partiyasına səslərini verəcəklər. Səsvermədə iştirak edənlərin 17,3 faizi səsini "Vətəndaş müqaviləsi" lehinə istifadə edib. Bu da ötən sorğu ilə müqayisədə 4 faizdən çox artım deməkdir. Bu, sadə erməni vətəndaşının sülh gündəminə marağının getdikcə artması deməkdir.

Səsvermədə sabiq prezidentlərin partiyaları çox zəif nəticə əldə ediblər. Bu da müxalifət düşərgəsində ciddi məyusluğa səbəb olub. Belə ki, sorğunun nəticələrinə əsasən, respondentlərin 6,4 faizi "Ermənistan" blokuna, 3,8 faizi "Çiçəklənən Ermənistan" partiyasına, 3,4 faizi isə "Respublika" partiyasına səs verəcəyini bildirib. Növbəti nəticələr isə müxalifət üçün daha biabırçı formadadır: hazırda həbsdə olan Vardan Qukasyanın partiyası 2,5 faiz, Aram Sarkisyanın "Anrapetutyun" partiyası 1,1 faiz, Daşnaksütyun 1,1 faiz səs toplayıb. Kremlin "kadrı" sayılan iş adamı Samvel Karapetyanın "Yeni güc" partiyası respondentlərin 13,4 faizinin səsini toplayıb. Bu partiyanın ilin sonuna qədər formalaşacağı ehtimal edilir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## *Pakistanlı ekspert:* "Minsk qrupunun ləğvi Azərbaycan-Ermənistan münasibətlərində yeni mərhələ açır"

**"2025-ci il sentyabrın 1-dən etibarən ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması tarixi addım olmaqla bərabər Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdığını göstərən bir amildir. Keçmiş Qarabağ münaqişəsi artıq bitdiyi üçün bu qrupa ehtiyac qalmayıb".**

Bu sözləri AZƏRTAC-a məxsusi açıqlamasında Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin (CGSS) icraçı direktoru Xalid Taimur Akram deyib.



O vurğulayıb ki, rəsmi Bakı bu qrupu dəfələrlə səmərəsiz və köhnəlmiş institut adlandırıb, onun Azərbaycan-Ermənistan sülh danışıqlarında vasitəçi rolunu rədd edib. Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk prosesinin bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə ünvanladıqları birgə müraciət, həmçinin Minsk qrupunun rəsmi şəkildə ləğvi açıq şəkildə göstərdi ki, real diplomatiya durğun vasitəçilik strukturlarının formal səylərindən üstündür.

"Diplomatik liderliyi ilə Azərbaycanla Ermənistan arasındakı ziddiyyətlərin aradan qaldırılmasında və dostluq münasibətlərinin qurulmasında həlledici rol oynayan Prezident İlham Əliyev bu yeni mərhələnin də mərkəzindədir. Onun qətiyyətli və uzaqgörən siyasəti onilliklər boyu davam edən düşmənçiliyin real tərəqqiyə çevrilməsinə imkan yaratdı və nəticədə Minsk qrupunun fəaliyyətinə son qoyan sülh sazişlərinin əldə edilməsinə şərait yaratdı", - deyə pakistanlı ekspert bildirib.

## *Türkiyəli general:* "Çin yalnız Uzaq Şərqə deyil, siyasi, hərbi və iqtisadi potensialı ilə bütün dünyaya qlobal səviyyədə təsir edir"

"Ölkələrarası münasibətlərdə və bir neçə dövlətin iştirak etdiyi region əlaqələrində birinci dərəcəli prioritet siyasi sabitlikdir. Siyasi sabitlik olmadan nə iqtisadi, nə də humanitar əlaqələrin təmin edilməsi mümkün deyil. Dünya çox sürətlə dəyişir və bu dəyişən şəraitdə yeni əməkdaşlıq sahələri, imkanlar meydana çıxır ki, bunların da əsasını siyasi sabitlik təşkil edir. Bu baxımdan, Azərbaycan ilə Ermənistan arasında əldə olunacaq razılaşma iki ölkəyə sülh gətirməklə yanaşı, İran, Gürcüstan, Türkiyə, Rusiya, Çin, İngiltərə və hətta Albaniyanı da müxtəlif perspektivlər və əməkdaşlıq sahələri çərçivəsində bir-birinə bağlayacaq".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, ehtiyatda olan general Yücel Karauz səsləndirib.

General deyib ki, Qarabağ Zəfərindən sonra Prezident İlham Əliyevin vurğuladığı kimi, Ermənistanın gecikmiş olsa da bu reallığı qəbul etməsi həm regional, həm də qlobal mənada Qafqaz regionunu sülhün mərkəzi mövqeyinə gətirəcək. Azərbaycanın və Türkiyənin birgə səyləri regionu sülh, sabitlik, əməkdaşlıq mühitində enerji siyasəti, logistika və nəqliyyat layihələri baxımından daha əhəmiyyətli statusa yüksəldəcək.

Yücel Karauz bildirib ki, dünyanın iqtisadi güc mərkəzlərindən biri olan Çin yalnız Uzaq Şərqə deyil, siyasi, hərbi və iqtisadi potensialı ilə bütün dünyaya qlobal səviyyədə təsir edir. Bəzi ölkələrdə mövcudluğunu qoruyan Çin digər regionlarda da logistika və başqa sahələrdəki inkişaf sayəsində həmin dövlətlərlə münasibətlər qurmağa çalışır.

"Prezident, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan-Çin münasibətlərinin güclənməsi Azərbaycanı müxtəlif ölkələrlə balanslı və tənzimlənən əməkdaşlıq imkanları baxımından üstün mövqeyə gətirib çıxarıb. Təbii ki, bu çevik diplomatiya Azərbaycanı daha da güclü edir. Azərbaycan yalnız Türkiyə, ABŞ, Çin kimi böyük dövlətlərlə deyil, digər ölkələrlə də əməkdaşlıq zəminində, milli maraqları istiqamətində çoxşaxəli xarici siyasət həyata keçirir. Eyni zamanda düşünürəm ki, viza rejimi məsələsi də vacib mövzudur", - deyə ekspert bildirib.

## Zəngəzur dəhlizinin Azərbaycana aid hissəsində işlərin başa çatacağı tarix açıqlanıb

**"Orta dəhlizin beynəlxalq yükdaşımalardakı rolu ildən ilə artır. 2024-cü ildə Orta dəhlizlə 358 blok qatar Çindən Avropaya yola salınıb".**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlaması zamanı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəqliyyat siyasəti şöbəsinin müdiri Fariz Əliyev deyib.



Onun sözlərinə görə, Azərbaycanda həyata keçirilən infrastruktur layihələri hesabına ötən illə müqayisədə Orta dəhlizlə yükdaşımaların həcmi 5 dəfəyə yaxın artıb.

"Zəngəzur dəhlizi Azərbaycanın nəqliyyat sisteminin çox önəmli bir halqasına çevrilərək, həm şərq-qərb, həm də şimal-cənub istiqamətində nəqliyyat bağlantılarının qurulmasında, tranzit yükdaşımaların həyata keçirilməsində strateji əhəmiyyət qazanıb. Dəhlizin Azərbaycan ərazisi üzrə işlərinin gələn il ərzində tamamlanması nəzərdə tutulur. Zəngəzur dəhlizinin inkişaf etdirilməsi ilə Orta dəhlizlə əlavə 15 milyon ton yük daşınacaq", - deyə şöbə müdiri əlavə edib.

F.Əliyev qeyd edib ki, bu il Azərbaycan vasitəsilə Çinə 450 blok qatarın göndərilməsi planlaşdırılır: "Ortamüddətli perspektivdə bu göstəricinin illik 1000 blok qatara çatdırılması gözlənilir. İnanırıq ki, qarşılıqlı səylər nəticəsində bu rəqəm daha da artacaq və Zəngəzur dəhlizi Çin ilə Avropa arasında ticarət əlaqələrinin inkişafında mühüm rol oynayacaq".

## *Dövlət Xidməti:* "Telegram" hücumları ilə bağlı araşdırmalar davam etdirilir

**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) Zərərverici Analizi Laboratoriyası (MRLab) tərəfindən "Telegram" üzərindən həyata keçirilən kiberhücumlarla bağlı araşdırmalar davam etdirilir.**




Dövlət xidmətindən AZƏRTAC-a bildirilib ki, kiberəməliyyatla bağlı 112 saxta domen və 18 IP ünvanı MRLab tərəfindən nəzarətə götürülüb.

Hazırda sözügedən resursların fəaliyyəti araşdırılır və istifadəçilərə təsir dərəcəsi qiymətləndirilir. Mövzu ilə bağlı əlavə məlumatlar mərhələli şəkildə XRİTDX-nin Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzinin (CERT) rəsmi saytında paylaşılacaq.

## "Ticarət və Logistikada Qadınların Tərəfdaşlığı" Assosiasiyasının rəsmi təqdimatı keçirilib



**Bakıda Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrində ticarət və logistika sahəsində çalışan qadınları birləşdirən "Women in Trade and Transport" (Women in TLP - "Ticarət və Logistikada Qadınların Tərəfdaşlığı") Assosiasiyasının regional strukturunun təqdimatı olub.**

AZƏRTAC xəbər verir ki, tədbir davamlı nəqliyyat və ticarət üzrə "GIZ" layihəsinin, davamlı nəqliyyat və ticarət üzrə Trans-Xəzər dəhlizinin Regional İşçi Qrupunun və "Ticarət və nəqliyyat sahəsində Şərq Tərəfdaşlığı" layihəsinin dəstəyi ilə təşkil olunub.

Tədbirdə çıxış edən Mərkəzi Asiya və Qafqazda Nəqliyyat və Logistika üzrə Tərəfdaşlığın (TLP) sədri Larisa Kislyakova təşkilatın regional ofisinin açılmasının əhəmiyyətini vurğulayaraq bunun yeni birgə təşəbbüslərin başlanğıcı olacağını bildirib: "Bu gün biz strukturumuz çərçivəsində ilk addımı atırıq. Artıq 200-dən çox üzvümüz var və qadınlar getdikcə daha fəal təşəbbüslər göstərirlər. Onlara əlavə dəstəyin göstərilməsi olduqca vacibdir". "Women in TLP"nin Mərkəzi Asiya və Qafqaz üzrə regional strukturunun sədri Ayjan Beiseyeva çıxışında bildirib ki, təşkilat müxtəlif ölkələrdən olan mütəxəssislərin səylərini birləşdirməyə və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu boyunca əməkdaşlığın inkişafına kömək edir.

"Artıq Mərkəzi Asiya üçün strategiya hazırlamışıq. İndi isə fəaliyyətimizi Cənubi Qafqaza genişləndirərək, Azərbaycan və Gürcüstanın özəlliklərini nəzərə alacağıq. Bu, ümumi yanaşmaların formalaşdırılmasına və ticarət-logistika sahəsində qarşıda duran əsas tapşırıqların həllinə imkan verəcək", - deyə o vurğulayıb.

"Women in TLP Azerbaijan"ın ölkə üzrə direktoru Sabina Tanrıverdiyeva isə logistikanı "insanları və mədəniyyətləri birləşdirən körpü" adlandırıb.

"Bu gün qadınlar liderlik keyfiyyətlərini və idarəçilik bacarıqlarını nümayiş etdirərək biznesə və beynəlxalq əməkdaşlığa mühüm töhfə verirlər. Pandemiya dövründə məhz logistika ölkələr arasında əlaqəni təmin edirdi. Buna görə də qadınların bu sahədə iştirakı və onların peşəkar inkişafı xüsusi əhəmiyyət kəsb edir", - deyə o bildirib.

Çıxış edənlər, həmçinin təşəbbüsə dəstəyə görə "GIZ" layihəsinə və Azərbaycan-Alman Ticarət Palatasına təşəkkür ediblər. Görüş iştirakçıları qeyd ediblər ki, "Women in TLP" fəaliyyəti qadınlara networking, təcrübə mübadiləsi, yeni bazarlara çıxış imkanları yaradır, həmçinin onların nəqliyyat və logistika sahələrində iştirakının genişlənməsinə töhfə verir.

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin ifadələri dinlənilib

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 9-da davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra məhkəmədə zərərçəkmişlərin hüquqi varislərinin və zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş şəxs Qorxmaz İsgəndərovun hüquqi varisi - atası İsgəndər İsgəndərov ifadəsində oğlunun düşmən təxribatı nəticəsində Kəlbəcərdə həlak olduğunu söyləyib.

Zərərçəkmiş şəxs Amid Qədirovun hüquqi varisi - anası Zülfirə Qədirova ifadəsində övladının Ağdərədə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində həlak olduğunu bildirib.

Zərərçəkmiş şəxs Ağami Əlişanovun hüquqi varisi - anası Dilbər Əhmədova ifadəsində oğlunun Ağdərədə düşmən tərəfindən törədilmiş təxribat nəticəsində həlak olduğunu deyib.

Zərərçəkmiş Osman Ağaxanovun hüquqi varisi - atası Qədim Ağaxanov ifadəsində övladının Xocavənddə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atdığı artilleriya mərmisinin partlaması nəticəsində həlak olduğunu söyləyib.

Zərərçəkmiş Elnur Rüstəmovun hüquqi varisi - atası Faid Rüstəmov ifadəsində oğlunun Kəlbəcərdə düşmənin təxribatı nəticəsində həlak olduğunu söyləyib.

Zərərçəkmiş Ceyhun Şıxəliyevin hüquqi varisi - atası Oktay Şıxəliyev övladının Ağdərənin Sırxavənd kəndində düşmən təxribatı nəticəsində həlak olduğunu deyib.

Zərərçəkmiş Arif Əliyevin hüquqi varisi - qardaşı Mübariz Əliyev ifadəsində qardaşının Kəlbəcər rayonunun Susuzluq kəndində düşmən tərəfindən basdırılmış minanın partlaması nəticəsində həlak olduğunu bildirib.

Zərərçəkmiş Şöhrət Cəfərov ifadəsində həmin hadisə zamanı yaralandığını deyib. O, hadisə zamanı avtomobildə 7 nəfərin olduğunu, mina partlayışı nəticəsində üç nəfərin - Məhərrəm İbrahimovun (AZƏRTAC-ın müxbiri - red.), Sirac Abışovun (AzTV-nin operatoru - red.) və Arif Əliyevin (Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini - red.) həlak olduğunu, özü də daxil olmaqla digər şəxslərin xəsarətlər aldığını bildirib. "Bədənimdən 30-dək qəlpə çıxarıldı", - deyə o əlavə edib.

Zərərçəkmiş şəxs Anar Qlinçev dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında Xankəndi istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində qəlpə yarası aldığını bildirib.

Zərərçəkmiş Şəmsi Kazımlı Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında düşmən təxribatı nəticəsində iki dəfə - Hadrutda və Laçında yaralandığını deyib.

Azad Axundov Xocavənddə düşmənin açdığı atəşlər nəticəsində yaralandığını söyləyib. O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında hadisə zamanı daha üç nəfərin xəsarətlər aldığını bildirib.

Yusif Kərimov dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında Xocavənddə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində yaralandığını söyləyib.

Yusif Ömərov Ağdamda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atdığı mərminin partlaması nəticəsində yaralandığını bildirib. O deyib ki, hadisə zamanı daha üç nəfər xəsarətlər alıb, bir nəfər isə həlak olub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş şəxs Neməti Qasemi Ağdamda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin artilleriya atəşi nəticəsində xəsarətlər aldığını deyib.

Mirqabil Mirzəyev və Aqil Rəhimov ifadələrində Xocavənddə düşmən tərəfdən atılmış mərminin partlaması nəticəsində xəsarət aldıqlarını bildiriblər.

Həmid Ağazadə Xankəndidə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını söyləyib.

Zərərçəkmiş Rəhim Nəsirov dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında Xankəndidə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını deyib. Onun sözlərinə görə, hadisə zamanı daha beş nəfər yaralanıb, bir nəfər isə həlak olub.

Fərman Həsənov ifadəsində Ağdərənin Canyataq kəndi istiqamətində qarşı tərəfin atəşi nəticəsində yaralandığını bildirib. O əlavə edib ki, hadisə zamanı daha beş nəfər müxtəlif xəsarətlər alıb, iki nəfər həlak olub.

Nazir Nurəliyev Şuşa-Xankəndi istiqamətində qarşı tərəfdən açılmış atəş nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş Turan Məhərrəmovun hüquqi varisi - atası Tərlan Məhərrəmov ifadəsində oğlunun Kəlbəcərdə düşmən tərəfindən açılmış snayper atəşi nəticəsində həlak olduğunu deyib.

Rəşad Aslanov Ağdam rayonunun Mərzili kəndində düşmən tərəfindən basdırılmış minanın partlaması nəticəsində yaralandığını bildirib.

Ariz Əliyev Xocavənddə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını deyib.

İntiqam Cumayev Ağdamda yaralanmış şəxsləri tibbi avtomobillə ərazidən çıxararkən Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını bildirib. O deyib ki, təxliyə etməyə çalışdığı yaralanmış şəxslər də həmin vaxt həlak olub.

Dair Cumartov, Elman Bayramov, Samir Yaralıyev, Ömər Əhmədov, Alim Xanəliyev Ağdamda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində xəsarət aldıqlarını bildiriblər.

Bəxtiyar Verdiyev Ağdərədə düşmənin basdırdığı minanın partlaması nəticəsində yaralandığını bildirib.

Taleh Hacıyev ifadəsində Xocavənd rayonunda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını deyib.

Rəşad Aslanov ifadəsində Şuşada Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atdığı mərminin partlaması nəticəsində xəsarətlər aldığını söyləyib.

Digər zərərçəkmiş şəxslər - Hidayət Cahangirov, Ümüd Həsənli, Kənan Məmmədov, Ayaz Rzayev, İlkin Həsənov, Qurban Hüseynov, Hüseyn Hüseynov, Cavid Qarayev, Taleh Sadıqov, Rəvan Manafov, Cəsarət Sarıyev müxtəlif ərazilərdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Sonra məhkəmə iclasında zərərçəkmiş şəxslər barəsində olan məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası sentyabrın 16-na təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Dünyanın su təchizatı problemləri Azərbaycanda müzakirə olunacaq

### Bu gün paytaxtımızda "Bakı Su Həftəsi" öz işinə başlayır



**Hazırda bəşəriyyəti narahat edən problemlərdən biri dünyada su ehtiyatlarının azalmasıdır. Azərbaycan üçün də su təhlükəsizliyi prioritet istiqamətlərdəndir. Odur ki, dövlət tərəfindən həyata keçirilən layihələr bu sahədə davamlı inkişafı təmin etməyi hədəfləyir.**

Prezident İlham Əliyev tərəfindən müəyyən olunmuş təxirəsalınmaz tədbirlər çərçivəsində ölkədə bir sıra mühüm layihələr həyata keçirilib. Bunlar suvarma sistemlərinin yenilənməsi, yeni su anbarlarının tikintisi, irriqasiya sistemlərinin bərpası, duzsuzlaşdırma texnologiyalarının tətbiqi, o cümlədən Xəzər dənizinin suyunun duzsuzlaşdırılması üzrə pilot layihələrdir. Bu gün paytaxtımızda başlanan "Baku Water Week" ("Bakı Su Həftəsi") çərçivəsində ölkəmizin su təchizatı sahəsində görülən və görüləcək genişmiqyaslı işlərdən də bəhs olunacaq.

Azərbaycan və region üçün strateji əhəmiyyət daşıyan, su təsərrüfatı sahəsində açıq dialoq və praktiki əməkdaşlıq imkanları yaradan "Bakı Su Həftəsi" bu il də yerli və xarici iştirakçılar üçün konkret fayda və real imkanlar təqdim etməyə hazırlaşıb. Tədbir dövlət qurumları ilə yanaşı, özəl sektora və mütəxəssislərə yeni ideyalar əsasında problemlərin həlli üçün innovativ üsullar tapmaq imkanı yaradacaq, həmçinin yeni təşəbbüslər və səmərəli işgüzar əlaqələrin qurulması, ölkəmizdə su ehtiyatlarının idarə olunmasında effektivliyin artırılmasına yeni töhfələr verəcək.

Qeyd edək ki, "Bakı Su Həftəsi" sentyabrın 10-12-si tarixlərdə keçiriləcək 2-ci Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransını əhatə edəcək. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin dəstəyi ilə təşkil edilən sərgi "Bakı-Ekspo" Mərkəzində baş tutacaq. Sərgidə su təsərrüfatı sahəsində ən son texnologiyalar, innovativ mexanizmlər, müasir dünya təcrübəsi nümayiş olunacaq. Sərgi dövlət qurumlarını, beynəlxalq şirkətləri, ekspertləri və peşəkar ziyarətçiləri bir araya toplayacaq. Burada Azərbaycanla yanaşı, Almaniya, Amerika Birləşmiş Ştatları, Avstriya, Belarus, Böyük Britaniya, Çexiya, İsrail, İsveçrə, Hindistan, Macarıstan, Türkiyə, Serbiya, Səudiyyə Ərəbistanı və Sinqapuru təmsil edən 60-dan çox şirkət və nümayəndə heyəti iştirak edəcək.

Sərgidə bir çox məhsul və xidmət təqdim olunacaq. Məsələn, analiz və laboratoriya texnologiyaları, borular və boru kəməri avadanlığı, bulud toxumsəpmə və daşqınlardan qorunma texnologiyaları, sahilbərkitmə işləri və s. Tədbirlərin mahiyyəti elə adlarından da aydın görünür: "Su təmizlənməsi üçün kompleks həllər", "Su təchizatı və tullantı sularının obyektlərinin kompleks mühəndisliyi vasitəsilə zəmanətli nəticələrin əldə edilməsi", "Qlobal iqlim dəyişikliyi: Azərbaycanda quraqlıq risklərinin idarəolunması", "Xəzər dənizinin mövcud vəziyyəti, problemləri və həll yolları", "Tullantı sularının dayanıqlı idarəolunması - COP29 məqsədləri yolunda".

Sabah isə "Bakı Su Həftəsi" çərçivəsində 2-ci Beynəlxalq Su Təsərrüfatı Konfransı baş tutacaq. Konfransda 10-a yaxın ölkədən 40 məruzəçi çıxış edəcək. Bir sıra panel müzakirələri keçiriləcək. Həmçinin dövlət və özəl sektoru təmsil edən qurum və şirkətlər arasında Anlaşma memorandumları imzalanacaq.

"Bakı Su Həftəsi"nin sonuncu günü 6-cı Xəzər Su İnnovasiya Forumu təşkil olunacaq. Foruma Dövlət Su Ehtiyatları Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi kimi dövlət qurumları ilə yanaşı, 10-dan çox ölkəni təmsil edən beynəlxalq şirkət və ölkənin aparıcı elm və təhsil müəssisələrinin nümayəndələri qatılacaq. "Baku Water Week"in davam etdiyi günlərdə "Bakı-Ekspo" Mərkəzinin foyesində "Zabuxçay su anbarı" - Azad Qarabağın ilk su anbarı, eləcə də "Şiber" su çarxının maketləri nümayiş olunacaq.

Tədbirin təşkilatçıları "Caspian Event Organisers" şirkəti, eləcə də onun beynəlxalq tərəfdaşları olan "Caspian Event Management" və "ICA Events" şirkətləridir. Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası (ASTA) da layihəyə dəstək göstərir. "Bakı Su Həftəsi"nin rəsmi bankı qismində ölkənin aparıcı korporativ maliyyə institutu "PAŞA Bank" çıxış edir.

Xatırladaq ki, Bakıda birinci su həftəsi keçən ilin mart ayında keçirilib. Ölkədə ilk dəfə təşkil olunmasına baxmayaraq, "Bakı Su Həftəsi" bir sıra önəmli şirkətlər tərəfindən dəstəklənib. Tədbirin təşkil edilməsində əsas məqsəd Azərbaycanda sözügedən sahənin daha da inkişafı üçün ölkəyə yeni texnologiyaların, avadanlıqların və investisiyaların cəlbi, eləcə də Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması yönündə içməli su təminatının gücləndirilməsi, bununla bağlı vacib məsələlərin, yeni layihələrin və əməkdaşlıqların müzakirəsi olub.

Birinci "Bakı Su Həftəsi"nin Beynəlxalq Konfransı isə su ehtiyatlarının idarə edilməsi, su təchizatı, iqlim dəyişikliyi və onların su ehtiyatlarına təsiri, sudan səmərəli istifadə kimi vacib mövzuları gündəmə gətirib. İkigünlük konfrans zamanı "Bir damcı" layihəsinin təqdimatı keçirilib, o cümlədən "Qlobal su qıtlığı və iqlim dəyişikliyi", "Azərbaycan və Xəzər regionunun su ehtiyatlarından səmərəli istifadə", "Su idarəetməsində texnoloji yeniliklər", "Aqrar sahədə suyun istifadəsi", "Ekologiya sahəsində yenilik", "Cəmiyyətdə suyun davamlılığı" və bir sıra digər mövzuları əhatə edən panel diskussiyaları təşkil olunub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Aqrar sığorta sahəsində Türkiyə təcrübəsi öyrənilir

**Aqrar Sığorta Fondunun nümayəndə heyəti kənd təsərrüfatı sığortaları sahəsində Türkiyə təcrübəsinin öyrənilməsi məqsədilə qardaş ölkəyə səfər edib.**



Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə Aqrar Sığorta Fondunun beynəlxalq əlaqələr şöbəsinin müdiri Azər Məmmədov və şöbənin əməkdaşı Aysel Həsənova daxildir. Fond nümayəndələri səfər çərçivəsində Türkiyə Tarım Kredit Kooperativləri İttifaqının təmsilçiləri ilə görüşlər keçiriblər. Görüşdə qarşı tərəfə Azərbaycanda kənd təsərrüfatına dövlət dəstəyi mexanizmləri, aqrar sığortanın tətbiqi modelləri, sığorta prosesinin kənd təsərrüfatına dəymiş zərərlərin qarşılanmasında rolu, Aqrar Sığorta Fondu ilə TARSİM arasında əməkdaşlıq, iki ölkənin aqrar sığorta qurumları kadr və təcrübə mübadiləsinin aparılması, kənd təsərrüfatı sahəsində həyata keçirilə biləcək əməkdaşlıq imkanları barədə geniş məlumat verilib.

Qonaqlar Tarım Kredit Kooperativləri İttifaqının 17 regional bölməsinin olduğu, öz sıralarında 1600-dən artıq kənd təsərrüfatı kooperativini birləşdirdiyi, 188 xidmət mərkəzində, ümumilikdə, 1 milyondan çox fermerə xidmət göstərdiyi barədə məlumatlandırılıblar. Bildirilib ki, ittifaqın əsas məqsədi kənd təsərrüfatı istehsalçılarının iqtisadi mənfəətlərini qorumaq, qida, sığorta, heyvandarlıq, gübrə, yem, toxum, istixana və müasir suvarma sistemləri ilə təminat ehtiyaclarını qarşılamaqdır.

Görüşdə fermerlərə dövlət dəstəyi mexanizmlərinin effektiv icra olunmasında ittifaqın üzərinə düşən vəzifələr barədə təqdimatlar keçirilib, aqrar fəaliyyətin sığortalanmasının səmərəliliyi barədə geniş müzakirələr aparılıb. Tərəflər aqrar sığorta sahəsində Türkiyə təcrübəsinin öyrənilməsi və Azərbaycanda tətbiqi ilə bağlı davamlı görüşlərin keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

## Çinin Yivu şəhərindən Avropaya yola düşən qatar Bakıya çatıb

**Dünən Abşeron Logistika Mərkəzində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) üzrə Çin (Çjetszyan) - Avropa Dəmiryol Ekspres marşrutunun 5 illiyi və Yivu (Çin) - Bakı (Azərbaycan) qatarının qarşılanmasına həsr edilmiş tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) rəsmilərinin də iştirak etdiyi tədbir çərçivəsində Çin (Çjetszyan) - Avropa Dəmiryol Ekspres marşrutu üzrə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutundan keçən sayca 237-ci blok-qatar qarşılanıb.

TBNM üzrə Yivu-Bakı qatarı ilə gətirilmiş konteyner yüklərin Azərbaycan üzərindən Türkiyə və Avropa bazarlarına göndərilməsi təmin ediləcək.

## Çindən Orta dəhliz vasitəsilə Türkiyəyə yeni yük qatarı marşrutu açılıb

**Çindən Orta dəhliz vasitəsilə Türkiyəyə yeni yük qatarı marşrutu istifadəyə verilib.**



AZƏRTAC xəbər verir ki, Çinin iqtisadi cəhətdən ən inkişaf etmiş bölgələrindən olan Quandon əyalətinin paytaxtı Quancou şəhərindən ilk yük qatarı Mərkəzi Asiya - Xəzər dənizi - Azərbaycan - Gürcüstan-Qara dəniz vasitəsilə Türkiyənin İstanbul şəhərinə yola düşüb. Qatar Quandon əyaləti, Honkonq və Makao şəhərlərini əhatə edən Böyük Körfəz regionu ilə Türkiyə arasında logistika dəhlizində mühüm irəliləyişdir. Sentyabrın 6-da Quancou beynəlxalq limanından yola düşən qatar 50 ədəd 40 futluq konteynerlərdə məişət texnikası, geyim və digər məhsullar var.

Dəmir yolu-dəniz-dəmir yolu multimodal daşıma modelinə əsaslana marşrut üzrə hərəkət edən qatarın 20 gün ərzində İstanbula çatması gözlənilir. Qatar Sincan Uyğur Muxtar Rayonundakı Horqos sərhəd məntəqəsindən Qazaxıstana keçərək, yükləri Aktau limanına çatdıracaq. Konteynerlər Xəzər dənizində bərə vasitəsilə Bakıya, oradan isə dəmir yolu ilə Qara dənizə çatdırıldıqdan sonra yenə bərəyə yüklənəcək. Son mərhələdə yüklər Trabzon limanından dəmir yolu ilə İstanbula yola salınacaq. İki dənizi əhatə edən bu marşrutun ümumi uzunluğu 10 min kilometrə yaxındır. Bu, ənənəvi dəniz yolundan 30 faiz qısadır və daşıma vaxtını dəniz yolu ilə müqayisədə 15 gün azaldır.

# Yeni dərs ili qarşısında

## Yüksək bal toplayaraq ali məktəblərə qəbul olunmuş gənclərlə görüş keçirilib

**Lerik Rayon İcra Hakimiyyətində 2025-2026-cı tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplayaraq ali məktəblərə qəbul olunmuş Lerik rayonundan olan gənclərlə və 2024-2025-ci tədris ilində rayonda fəaliyyət göstərən təhsil müəssisələrində ümumi orta təhsil pilləsini bitirmiş və buraxılış imtahanlarında yüksək nəticə əldə etmiş şagirdlərlə görüş keçirilib.**

Görüşdə rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vasif Qafarov, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdir müavini Rəhim Rəhimov, rayon icra hakimiyyəti başçısı aparatının məsul işçiləri, rayonun bir sıra ümumtəhsil məktəbinin direktorları və bir qrup lerikli ziyalı iştirak edib.

Rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov tələbə adını qazanmış gəncləri və məktəb direktorlarını yüksək nəticəyə görə təbrik edərək deyib ki, ali məktəblərə daxil olan lerikli gənclər arasında 500-dən yuxarı bal toplayanların olması çox sevindiricidir. Bildirilib ki, bu il rayonun orta məktəblərini bitirən məzunlardan 141 nəfər tələbə adını qazanmış, onlardan 23 nəfər 500-dən, o cümlədən 5 nəfər 600-dən yuxarı bal toplamışdır. Ümummilli Lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə təhsilə və onun inkişafına göstərdiyi diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təhsilin inkişafı ilə əlaqədar mühüm layihələr icra olunmuşdur. Təhsil sahəsində islahatlar həyata keçirilməklə, bu sahə daim diqqətdə saxlanılır. Məhz aparılan düzgün siyasətin nəticəsidir ki, bu gün Lerik məktəblərindən məzun olmuş abituriyentlərdən ali məktəblərə qəbul olanların 50 faizə qədərini qızlar təşkil edir.

Ə.Abbasov tələbə adını qazanaraq Qarabağ Universitetinə qəbul olunmuş gəncləri də təbrik edərək qeyd olunan universitetdə təhsil alacaqlarının böyük fəxr hissi doğurduğunu bildirib, onlara təhsillərinin növbəti mərhələsində uğurlar arzulayıb.

Görüşdə çıxış edənlər tələbə adını qazanmış gəncləri təbrik edib onlara uğurlar arzulayıblar.

Sonda qəbul imtahanlarında yüksək bal toplayaraq tələbə adını qazanan məzunlar rayon icra hakimiyyəti, lerikli ziyalılar və iş adamları tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılıb, həmçinin rayon icra hakimiyyətinin təşəkkürnaməsi ilə təltif olunublar.

## Məktəblərin təmir-tikinti işləri diqqət mərkəzindədir





**Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov Göytəpə şəhərində Vasif Hüseynov adına 2 nömrəli tam orta məktəbin tikintisi, Vüqar Mürsəlov adına 1 nömrəli tam orta məktəbin təmiri və küçələrin asfaltlanması ilə bağlı görülən işlərlə yerində tanış olmuşdur.**

Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, şagirdlər üçün daha əlverişli tədris şəraitinin yaradılması istiqamətində aparılan tədbirlər çərçivəsində Göytəpə şəhərində müasir standartlara cavab verən yeni məktəb binasında son tamamlanma işləri həyata keçirilir və digər məktəbin əsaslı təmiri başa çatmaq üzrədir.

Layihəyə uyğun olaraq, yeni məktəb binası müasir standartlara cavab verən laboratoriyalar, fənn kabinetləri, geniş sinif otaqları, idman meydançası və digər zəruri tədris infrastrukturu ilə təmin olunacaq.

RİH başçısı təmir və tikinti işlərinin gedişi ilə tanışlıq zamanı görülən işlərin keyfiyyəti, tikinti normalarına uyğunluğu, istifadə olunan materialların keyfiyyəti barədə ətraflı məlumat almışdır. Müvafiq tövsiyələrini verən RİH başçısı diqqətə çatdırmışdır ki, təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindəndir və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Cəlilabad rayonunda həyata keçirilən bu əhəmiyyətli layihələr, ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısının və ardıcıl islahatların bariz nümunəsidir.

Həmçinin Göytəpə şəhərinin yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir. Belə ki, Göytəpə şəhəri üzrə 6 küçəyə asfalt örtüyünün salınması üçün hazırlıq işlərinə başlanılmışdır.

Rayon rəhbəri aidiyyəti üzrə əlaqədar şəxslərə işlərin vaxtında və keyfiyyətli görülməsi məqsədilə bir sıra tapşırıq və göstərişlərini vermişdir.

Göytəpə sakinləri görülən işlər və əhaliyə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

***"Azərbaycan"***

## Ələt-Astara avtomobil yolunda abadlıq işləri görülür

Ələt-Astara avtomobil yolunun Masallı rayonundan keçən hissəsində mütəmadi olaraq təmizlik və abadlıq işləri həyata keçirilir.

Bu günlərdə Ələt-Astara avtomobil yolunun Masallı rayonundan keçən hissəsində Masallı RİHB-nin inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri və bələdiyyələr tərəfindən genişmiqyaslı təmizlik və abadlıq aparılıb. Təmizlik çərçivəsində yol kənarları məişət və digər tullantılarından təmizlənib, həmçinin ərazidə alaq otlarının biçilməsi və qurumuş kolların yığışdırılması işləri görülüb.

Qeyd edirik ki, bu cür tədbirlərin keçirilməsində əsas məqsəd ekoloji vəziyyətin yaxşılaşdırılması və avtomobil yolu boyunca təmizliyin qorunmasıdır.

Masallı rayonunun bütün yaşayış məntəqələrində təmizlik və abadlıq işləri mütəmadi olaraq davam etdirilir.

***"Azərbaycan"***

## Masallıda su kanalları təmizlənir

**Rayonda əhalinin sosial rifahının yüksəldilməsi və infrastrukturun müasirləşdirilməsi məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.**



Xüsusilə əhalinin gündəlik həyat şəraitinin yaxşılaşdırılması məqsədilə əkin sahələrinin suvarılmasının təmin olunması, həm sel, həm də daşqın kimi təbii fəlakətlərin qarşısının alınması üçün su kanallarının təmizlənməsi və bərpası işləri görülmüşdür. Masallı Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tərəfindən 2025-ci ilin yanvar ayının əvvəlindən avqust ayının sonunadək rayon ərazisində ümumilikdə 88 km uzunluğunda suötürücü kanal təmizlənmişdir.

Qeyd etmək istəyirik ki, 2025-ci ilin sonunadək su kanallarının təmizlənməsi işləri davam etdiriləcək. Rayon ərazisində su kanallarında aparılan təmizlik və yenidənqurma işləri nəticəsində sel və daşqın kimi təbii fəlakətlərin qarşısının alınacağı, kənd təsərrüfatı istehsalında artımın və əhalinin su təminatında sabitliyin əldə olunacağına mühüm töhfə verəcək.

***"Azərbaycan"***







# Mədəniyyət







**Sənət adamları**

# Nakam rejissorun unudulmaz xatirələri

**1927-ci ilin yayı idi. Yeddi yaşlı Lətif gözəl Şuşaya ailəsi ilə birgə istirahətə gəlmişdi. Əslində, bu şəhər ona dünyanın hər yerindən daha doğma idi. Lətif Səfərov 1920-ci il sentyabrın 30-da Şuşa şəhərində dünyaya göz açmışdı. Təhsilli, hökumət qulluğunda olan atası Bəşir ailəsindən ayrılandan sonra anası Maya çarəsiz qalmışdı. Savadsız qadın dörd yaşlı oğlunu və körpə qızını götürüb 1925-ci ildə Ağdama, qayınatasının evinə getməli olmuşdu.**



## Kino sənəti ilə tanışlıq

O il Şuşanın gözəl yayı yeddi yaşlı Lətifə bu qısa ömründə gördüyü qüssəni, qayğıları unutdurdu. Gözlənilmədən həyatında sanki möcüzə baş verdi. Sonralar Lətif Səfərov o günləri belə xatırlayırdı: "Yeddi yaşım var idi. "Gilan qızı" filminin bir sıra natura obyektlərini çəkmək üçün Şuşaya gəlmiş kinematoqrafiya işçilərini şəhərin nağılvari mənzərəsi heyran etmişdi..."

"Azərkino"nun çəkiliş qrupu rus yazıçısı Yuri Slyozkinin "Tunc Ay" romanının mövzusu əsasında "Gilan qızı" tammetrajlı bədii filmini ekranlaşdıracaqdı. Çəkiliş üçün hazırlıqları görsələr də, filmdə balaca qəhrəmanı canlandıracaq aktyoru hələ tapmamışdılar. Qaynar təbiətli, cəlimsiz, ağıllı baxışlarından iti zəkası oxunan balaca Lətif diqqətlərini çəkdi. Onlarla uşağın arasından "Gilan qızı" filmində Gülgül rolunu oynamağa onu seçdilər. Kinooperator Seyfulla Bədəlov sonralar həmin vaxtları yada salaraq deyib: "Ssenari üzrə əsas rollardan biri 7-8 yaşlı uşaq idi. Bu rola namizədi uzun müddət axtarmaq lazım gəlmişdi. Yığılmış bir dəstə uşağın içində diqqəti ən çox cəlb edəni, ağıllısı və kino işiylə maraqlananı Lətif idi. Leo Murun başçılıq etdiyi çəkiliş qrupu bu məsul və çətin rola balaca Lətifi götürdü. O, bacarığı sayəsində yaşından əvvəl özünü doğrultdu, həmyaşıdının rolunu çox gözəl ifa etdi..."

İki il qabaq, atasının tərk etməsi ilə küskün ayrıldığı bu şəhərdə yenidən həyatı dəyişdi. Taleyi təsəvvürünə belə gətirmədiyi bir yol çıxardı qarşısına. Sonralar bunları düşünüb deyirdi Lətif Səfərov: "Hər şey elə bundan başlandı... Əgər onlar bu şəhərə gəlməsəydilər, bəlkə də həyatım başqa cür qurulardı. Əgər mən həkim olsaydım, insanları müalicə edərdim, müəllim olsaydım, insanlara bilik öyrədərdim... Mənim qismətimə kinematoqraf düşdü. Burada mən özümü bütün ixtisaslara yiyələnmiş insan kimi hiss edirəm. Mən bütün peşələrdən olan adamlara xidmət edirəm. Bunu nə qədər çox dərk etdikcə, özümdə daha artıq məsuliyyət hiss edirəm..."

Lətif Səfərovun kino sənəti ilə tanışlığı belə başladı. Yaradıcı heyət elə çəkilişlərin ilk günlərindən bildilər ki, yeni bir istedad kəşf edib.

Onun kinoaktyor kimi məşhurlaşdığı ilk yer də Şuşa şəhəri oldu. Lətif Səfərov başqaları kimi ekranlara çıxdıqdan sonra şöhrətlənmədi. Hələ filmin çəkilişləri başa çatmamış onu artıq bütün Şuşada balaca aktyor kimi tanıyırdılar. "Gilan qızı" filmi ekranlarda nümayiş olunduqdan sonra isə Lətif Səfərovu Azərbaycanın hər yerində tanımağa başladılar.

## "Həyat necə də gözəldir"

Lətif sənətkarları heyran etdi. Onları inandırdı ki, bu balaca uşağın ilk uğuru təsadüf yox, parlaq istedadının təzahürüdür. Odur ki, "Gilan qızı" filminin rejissoru Leo Mur, operatoru İvan Frolov, əsas rolların ifaçılarından biri, görkəmli aktyor Sidqi Ruhulla Lətif Səfərovu özləri ilə Bakıya aparmaq, kino sənəti üçün yetişdirmək qərarına gəldilər.

Amma anası tərəddüd içərisində idi. Əzabkeş anaya iki uşağını atasız, kasıblıqla böyütmək ağır olsa da, Lətifi gözündən uzağa buraxmaq istəmirdi. Filmin yaradıcı heyəti onu dilə tutdu. Ancaq Maya onların dediklərindən daha çox, oğlunun gələcəyinin uğurlu olacağına, rahat yaşaya biləcəyinə ümid edərək onun paytaxta getməsinə razılıq verdi.

Bakıda ilk günlər özünü başqa bir aləmə düşmüş kimi hiss etdi. Lətif Səfərovu bu şəhərdə taleyin ümidinə buraxmadılar. Ona diqqət, qayğı göstərdilər. Lətif internat məktəbində oxumaqla bərabər, kinostudiyada da aktyor kimi çalışdı. Böyük dramaturq Cəfər Cabbarlının məsləhəti ilə 1928-ci ildə "Sevil" filmi ekranlaşdırılarkən Gündüz roluna çəkildi. O, Ağasadıq Gəraybəyli, Mustafa Mərdanov kimi görkəmli aktyorlarla eyni filmdə iştirak edir və oz işinin öhdəsindən layiqincə gəlirdi.

Lətif Səfərov 1928-1931-ci illərdə "Sevil", "Lətif", "Şərqə yol", "Qızıl kol" filmlərində uşaq rolları ifa etdi.

Filmdən-filmə püxtələşən, şöhrətlənən balaca aktyor bir müddət diqqətdən kənarda qaldı. Bərdəyə getdi. İkinci dəfə ailə quran anası orada yaşayırdı. Atalığı Lətifə və bacısına doğma övladı kimi baxırdı. Ancaq o, Bərdədə çox qala bilmədi. Bir müddət müalicə olundu. Sonra Gəncə Pedaqoji Texnikumuna daxil olaraq qiyabi təhsil aldı. Bakıya döndü. Studiyanın dublyaj şöbəsində, sonra isə filmlərdə rejissor assistenti işlədi.

Kino sənətinin sirlərini daha dərindən öyrənmək üçün 1940-cı ildə Moskvadakı Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil oldu. Məşhur rus kinorejissoru Qriqori Kozintsevdən dərs almağa başladı. 1941-ci ildə alman faşist ordusu sovet ittifaqına hücum etdi. Müharibə başlayanda Lətif Səfərov təhsilini yarımçıq qoyaraq geri döndü. 1941-1946-cı illərdə Bərdədə müəllim işlədi.

1946-cı ildə Moskvaya qayıdaraq təhsilini davam etdirdi. 1950-ci ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bitirdi. Bakıya gəlib, kinostudiyada işləməyə başladı.

O, 1950-ci illərin əvvəllərində bir neçə sənədli filmə quruluş verdi. İstedadlı rejissor kimi tanındı. 1955-ci ildə çəkdiyi "Bəxtiyar" ("Sevimli mahnı") Lətif Səfərovun böyük kinoda ilk və uğurlu filmi oldu. Film Azərbaycan kinosunda musiqili bədii filmin ən gözəl nümunəsi hesab edilir.

Lətif Səfərovun ekranlaşdırdığı "Leyli və Məcnun", "Qızmar günəş altında" bədii filmləri də tamaşaçılar tərəfindən maraqla qarşılandı.

1958-ci ildə Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri seçildi. 1963-cü ilədək həmin vəzifədə qaldı.

O, sanki özü-özünə hesabat verirdi: "Əgər məndən soruşsanız ki, "Siz nə etmisiniz", cavab yalnız bir olacaq: "Demək olar ki, heç nə". Əgər soruşsanız ki, "Nə etmək istəyirəm", cavab yenə qısa olacaq: "Çox şey". Görəcəyim işlər barədə çox düşünmüşəm. Müəllimim Qriqori Mixayloviç Kozintsevin vəsiyyətini minnətdarlıqla xatırlayıram: "Əgər özünüzü incəsənətə həsr etməyi qərara almışsınızsa, yatmamağı öyrənin. Bəli, indi o dövr deyil. Yatmaqla çox şey uduzmaq olar, hətta həyatı da. Həyat isə necə də gözəldir, əgər hamı qədrini bilsəydi...", - deyirdi.

Ömür yolu enişli-yoxuşlu olsa da: "Həyat necə də gözəldir...", deyirdi kino sənətinin bənzərsiz rejissoru, ssenarist, Əməkdar incəsənət xadimi Lətif Səfərov. Ancaq 1963-cü il dekabrın 9-da həyatını faciəli şəkildə tamamladı. Ekran həyatı verdiyi filmlər, ifa etdiyi rollar onun qırx üç illik ömrünün ən gözəl və unudulmaz xatirələri oldu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Hanoyda Azərbaycanın turizm potensialı təqdim edilib

**Azərbaycanın Vyetnamdakı səfirliyi, Azərbaycan Turizm Bürosu və Hanoy Ticarət və Turizm Kollecinin birgə təşkilatçılığı ilə Hanoyda "Azərbaycanı kəşf et" adlı mədəniyyət və turizm tədbiri keçirilib.**




AZƏRTAC xəbər verir ki, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və Azərbaycan mədəniyyətinin və turizm potensialının Vyetnamda tanıdılması məqsədilə təşkil olunan tədbirə Azərbaycan Turizm Bürosunun icraçı direktoru Florian Zenqstşmid, Vyetnam Milli Turizm Qurumunun sədr müavini xanım Nquyen Ti Hoa May, səfirlər, turizm mütəxəssisləri, Vyetnamın müxtəlif qurumlarından nümayəndələr və kollecin tələbələri qatılıblar.

Hanoy Ticarət və Turizm Kollecinin rektoru xanım Çin Ti Tu Ha çıxışında iki ölkə arasında dostluğun gücləndirilməsində mədəni mübadilənin vacibliyini vurğulayıb.

Azərbaycanın Vyetnamdakı səfiri Şövqi Mehdizadə 2025-ci ilin mayında Vyetnam Kommunist Partiyasının baş katibi To Lamın ölkəmizə dövlət səfəri ilə iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsindən sonra əlaqələrin daha da inkişaf etdiyini qeyd edib.

Xanım Nquyen Ti Hoa May çıxışında Vyetnam ilə Azərbaycan arasında turizm əməkdaşlığının böyük perspektivlərinin olduğunu vurğulayıb. O, Azərbaycanın zəngin mədəni irsi, tarixi abidələri və təbii gözəlliklərinin vyetnamlı turistlər üçün cəlbedici istiqamət ola biləcəyini bildirib. Eyni zamanda turizm sahəsində qarşılıqlı təşviqatın aparılmasının, birgə layihələr və mübadilə proqramlarının iki xalq arasında qarşılıqlı anlaşmanı daha da gücləndirəcəyi qeyd olunub.

Florian Zenqstşmid Azərbaycanın turizm strategiyasını təqdim edərək, vyetnamlı turistləri qədim mədəni irs, müasir həyat tərzi və zəngin təbiəti özündə birləşdirən Azərbaycanı kəşf etməyə dəvət edib.

Azərbaycan Turizm Bürosunun nümayəndəsi Günel Ələkbərova isə "Azərbaycanı kəşf et" mövzusunda ölkəmizin turizm potensialı və istiqamətləri haqqında ətraflı təqdimatla çıxış edib.

Tədbir sual-cavab sessiyası və Vyetnamın çay mədəniyyətinin təqdimatı ilə davam edib.

# Azərbaycan 16-cı Yörük Türkmən Festivalında təmsil olunub



**Azərbaycan Türkiyənin Muğla vilayətində keçirilən 16-cı Yörük Türkmən Festivalında təmsil olunub.**

Bu barədə AZƏRTAC-a ölkəmizin Türkiyədəki səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzindən bildirilib.

Məlumatda qeyd edilib ki, bölgənin mədəni həyatında mühüm rol oynayan bu tədbir Muğla Böyükşəhər Bələdiyyəsi, Muğla Valiliyi və bu şəhərdə fəaliyyət göstərən Yörük Türkmən Dərnəyi tərəfindən Menteşe Düzeyn Yaylasında keçirilib.

Festival çərçivəsində bir sıra ölkələrlə yanaşı, Azərbaycan mədəniyyətini özündə əks etdirən xüsusi stend də açılıb.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov milli dəyərlərimizi təmsil edən stendlə tanış olub, açılış mərasimi və mədəni proqramda iştirak edib.

Festivalın əsas proqramına əl işləri sərgiləri, ənənəvi mətbəx nümunələri, musiqi və rəqs nömrələri, Yörük xalqının ənənəvi həyat tərzinə dair məlumatlandırıcı təqdimatlar daxil edilib. Festivalın açılışında çıxış edənlər Yörük mədəniyyətini türk millətinin köklü kimliyinin ayrılmaz bir parçası olduğunu bildiriblər.

Qeyd edilib ki, Yörük mədəniyyəti türk dünyasının ortaq dəyəridir. Bu festival qədim türk mədəniyyətinin yaşadılması, gələcək nəsillərə çatdırılması, həmrəyliyin gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Bədii hissə ilə davam edən festivalda Türkiyənin bir sıra bölgələrinin folklor kollektivlərinin çıxışları izlənilib.

**Rəssamın dünyası**

# Klassik miniatür sənətinin müasir davamçısı

**Şəmkirdə rəssam Fərmanı tanımayan az adam tapılar, bəlkə də yoxdur. 70 illik ömrünün 50 ildən çoxunu peşəkar rəssamlıq sənətinə həsr edən Fərman Hüseynov klassik miniatür sənətinin müasir davamçılarındandır. O, həm də portret janrında yaddaqalan obrazların müəllifi, habelə müasir Azərbaycan bədii mühitinin nüfuzlu simalarından biri kimi çoxlarının sevimlisidir. Geniş yaradıcılıq diapozonu ilə səciyyələnən sənətkar kitab illüstrasiyası, plakat, mənzərə janrı ilə bərabər memarlıq layihələrinin də müəllifidir.**








Hüquqşünas Rauf Quliyevin dediklərindən:

- Rəssam Fərmanı məktəbli yaşlarımdan tanıyıram. Şəmkirdə Əhməd Cavad adına 4 nömrəli şəhər orta məktəbində bir sinifdə oxumuşuq. O da, mən də, digər sinif yoldaşımız Faiq də yaxşı rəsmlər çəkirdik. Fərman dərslərini yaxşı oxumaqla yanaşı, rəssamlığa böyük həvəs göstərirdi. İstedadlı və zəhmətsevər idi. Məktəb divar qəzetinin və müəyyən karikaturaların, şüar və şəkilli plakatların hazırlanmasında fəal iştirak edirdi. Hiss edirdik ki, o, gələcəkdə böyük rəssam olacaq.

Mən də, Faiq də bu sahəyə maraqlı olduğumuzdan fikirlərimizi bölüşər, bir-birimizin əl işlərinə rəy söyləyərdik. Son sözü isə bizi bu sahəyə istiqamətləndirən rəsm müəllimimiz Vahid Qaraqoyunlu deyərdi, biz də onunla tam razılaşardıq. Vahid müəllim qabiliyyətimizi nəzərə alaraq çox istəyirdi ki, bizim üçümüz də gələcəkdə rəssam olaq. Tale elə gətirdi ki, orta məktəbi bitirdikdən sonra Bakıya qəbula gəldik, Faiqlə Fərman sənədlərini Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə verdi. Faiq müsabiqəyə düşdü, sonra fikrindən daşınıb iş adamı oldu, mən də ADU-nun (indi BDU) Hüquqşünaslıq fakültəsinə qəbul oldum. Amma Fərman əqidəsinə sadiq qaldı.

Fərman Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin "Tərtibatçı rəssam" fakültəsinə daxil olur. Daha sonra Vətən qarşısında hərbi borcunu yerinə yetirmək üçün hərbi xidmətə çağırılır. O, əsgəri xidmətdə olarkən həm də hərbi hissənin tərtibatçı-rəssamı kimi ictimai işlərdə fəallıq göstərir.

Əsgəri xidmətdən geri dönən Fərman Hüseynov elmi və nəzəri biliyini daha da zənginləşdirmək üçün bu dəfə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında təhsilini davam etdirmək istəyir. Bu arzu ilə universitetin Qrafika fakültəsinə daxil olur. İmtahanlardan əla qiymətlər alan Fərman tələbəlik illərində Moskvada keçirilən "Sülh uğrunda" Beynəlxalq plakat sərgisinin iştirakçısı olur. Uğurlarına görə SSRİ Rəssamlar İttifaqının Diplomuna layiq görülür. 1988-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını fərqlənmə diplomu ilə bitirir.

Bundan sonra Şəmkir rayonunun baş memarı vəzifəsində çalışan rəssam milli tarixi və mədəni irsimizə yüksək dəyər verən Ulu Öndər Heydər Əliyevin tapşırıq və tövsiyələrinə əsasən Tiflisdə Xalq Cümhuriyyəti qurucularına aid abidələrin, Mirzə Fətəli Axundzadənin ev-muzeyinin və digər muzeylərin tərtibatçı-müəllifi kimi milli-mədəni irsimizin qorunub-saxlanmasında əlindən gələni edir.

Xatırladaq ki, rəssamın erkən yaradıcılığında miniatür sənətinə maraq daha qabarıq nəzərə çarpır. Rəssamlıq məktəbini bitirən sənətkarın diplom işi də miniatür ənənələrin müasir davamı olan "Şərq motivləri" mövzusunda panno eskiz olub. İllər sonra bu mövzu üzərində işləyərək, Şəmkir Tarix Muzeyinin foyesində "Azərbaycan toyu" adlanan miniatür üslublu dekorativ panno yaradıb. Sonralar da yaradıcılığında dəfələrlə miniatür sənətinə müraciət edən rəssam böyük şair Nizami Gəncəvinin "Xəmsə" süjetlərini əks etdirən möhtəşəm kompozisiya işləyib hazırlayıb.

Bu gün Şəmkir rayon Tarix Diyarşünaslıq Muzeyinin rəhbəri vəzifəsində çalışan Fərman müəllimin muzeyin foyesində "Azərbaycan toyu" mövzusunda yaratdığı miniatür divar rəsmi buraya ziyarətə gələnlərin, xüsusən də əcnəbi turistlərin daha çox diqqətini çəkir. 73 kvadratmetr olan bu əsər həcminə görə dünyada ən böyük miniatür divar rəsmlərindən biri, bəlkə də birincisidir. Cari ilin iyun ayında - Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü ərəfəsində muzeydə ziyarətdə olan Sankt-Peterburqun görkəmli rəssamı Farid Zakiyev həmkarının əsərlərinə baxdıqdan sonra onunla yaxından tanış olmuş, xatirə şəkli çəkdirmiş və mətbuata açıqlamasında demişdir:

- Mən çox ölkələrdə olmuşam, məşhur rəssamların yardıcılığına diqqət etmişəm, amma Fərman Hüseynov qədər maraqlı mövzular və əsərlər müəllifinə hələ də rast gəlməmişəm desəm, səhv etmərəm. Emalatxanasında oldum, bir-birindən maraqlı əsərlərinə baxdıqca çox duyğulandım, qəribə hislər keçirdim. Əyalətdə yaşayasan, bu qədər məhsuldar və geniş diapazonlu miniatür ustası olasan?! Bütün bunlar sənətə vurğunluqdan, vətənə, xalqa xidmət hisslərindən irəli gəlir... Sənət dostu kimi həmkarımın uğurlarına çox sevinir və qibtə edirəm.

Rəssamlıq üzrə fəlsəfə doktoru, dosent, AMEA-nın aparıcı elmi işçisi, Azərbaycan Milli İncəsənət Muzeyinin "Elmi tədqiqatlar" şöbəsinin müdiri Telman İbrahimov deyir: "Fərman Hüseynovun son illər yaradıcılığında portret janrına maraq daha çox diqqəti cəlb edir. Rəssamın yaratdığı portretlər qalereyasında Azərbaycanın tarixi şəxsiyyətləri Babək Xürrəmi, Səməd Vurğun, Səttar Bəhlulzadə, Əzim Əzimzadə, Dədə Ədalət, Akif İslamzadə, dünyaşöhrətli Lütvi Zadə və digərlərinin portretləri incə qrafik üslubda təqdim olunmuşdur.

Rəssamın portret yaradıcılığında Qarabağ müharibəsinin "Şəmkir şəhidləri" adlanan portretlər silsiləsi xüsusi yer tutur. Qarabağın azadlığı uğrunda canlarından keçmiş qəhrəmanları rəssam pafoslu deyil, sıramızdan olan adi həmvətənlərimizi, sadə və səmimi obrazlar kimi tərənnüm etmişdir. Belə portretlər sırasında Rəşad Atakişiyev, polkovnik Vüqar Yusifov, İsgəndər Aznaurov və başqalarının portretlərini qeyd etmək olar".

Fərman Hüseynov Azərbaycan təsviri sənət məktəbinin nümayəndəsi olaraq öz yaradıcılığında məhz ölkəmizin milli təsviri sənət ənənələrini yaşadaraq davam etdirən sənətkarlardandır. Rəssamın 50 illik yaradıcılıq bioqrafiyası onun Vətən həyatının sevinci və kədəri ilə yaşamasını, doğma yurdunun tarixi, mədəni və mənəvi dəyərlərini, şəxsiyyətlərini öz əsərlərində tərənnüm etməsi onun yaradıcılıq kredosunun qayəsini təşkil edir.

Şəmkirdə, Gəncədə, Bakıda və digər bölgələrdə fərdi sərgiləri keçirilən klassik miniatür sənətinin müasir davamçısı Fərman Hüseynovun əməyi Azərbaycan Prezidenti tərəfindən yüksək qiymətləndirilib - 2018-ci ildə "Cümhuriyyət - 100" medalı ilə təltif olunub.

Fərman Hüseynov müxtəlif ictimai qurumlar, şirkətlər və təşkilatlar tərəfindən dəfələrlə xatirə hədiyyələrinə, fəxri fərman və təşəkkürnamələrə layiq görülüb.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# III MDB Oyunlarında iştirak edəcək üzgüçülərimiz Gəncədə təlim-məşq toplanışına başlayıblar





**Azərbaycan Üzgüçülük Federasiyası (ASF) Gəncədə təlim-məşq toplanışına start verib. Üzgüçülük üzrə milli komandanın üzvləri, həmçinin ölkəmizi III MDB Oyunlarında təmsil edəcək idmançılar Gəncə şəhərinə gəlmişlər.**

Onlar sırasında 13-14 sentyabr 2025-ci il tarixlərində keçiriləcək "ASF Ganja Cup 2025" turnirinin iştirakçıları da var.

İdmançıları Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin rəisi Elvin Quliyev, "Rövşən Oğuz Qrup" MMC-nin baş direktoru Hafiz Mustafayev, həmçinin şəhərin idman ictimaiyyətinin nümayəndələri qarşılayıblar. Şəhər rəhbəri üzgüçülərlə görüşərək, onlara yarışlarda uğurlar arzulayıb.

Xatırladaq ki, Gəncə şəhəri III MDB Oyunları zamanı üzgüçülük və bir sıra digər idman növləri üzrə yarışlara evsahibliyi edəcək. Mötəbər idman tədbirinin açılış və bağlanış mərasimləri müvafiq olaraq 28 sentyabr və 8 oktyabr tarixlərində Gəncə Şəhər Stadionunda baş tutacaq. Üzgüçülük yarışları isə 28 sentyabr - 2 oktyabr tarixləri arasında Gəncə İdman Sarayında keçiriləcək.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Nəsimi festivalında "İblis" yeni təqdimatda nümayiş olunacaq

**Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalının ilk günündə Hüseyn Cavidin "İblis" əsərinin simfonik orkestr musiqiçilərinin və Azərbaycan Dövlət Pantomim Teatrının iştirakı ilə yeni təqdimatı olacaq.**




AZƏRTAC xəbər verir ki, sentyabrın 23-də Heydər Əliyev Mərkəzində nümayiş olunacaq yeni quruluşun baş rejissoru Azərbaycan Dövlət Pantomim Teatrının yaradıcısı və baş rejissoru, Azərbaycan Respublikasının Xalq artisti Bəxtiyar Xanızadədir.

Əsərin yeni təqdimatının özəlliyi canlı orkestrin müşayiəti və orkestr musiqiçilərinin tamaşa müddətində həm də iştirakçıya çevrilməsidir. Tamaşa boyu musiqiçiləri, Pantomim Teatrının aktyorlarını və hadisələri isə dirijor idarə edəcək.

Yeni quruluşda baş rolun ifaçısı və dirijor Prezident mükafatçısı, bir sıra beynəlxalq müsabiqələrin laureatı Mustafa Mehmandarovdur. Simfonik orkestrin musiqiçiləri tamaşada dirijorun idarəçiliyi ilə Pantomim Teatrının aktyorlarının arasına qarışaraq plastik düşüncələrin iştirakçısına çevrilirlər.

Əsərdə həm bəşəri, həm də əbədi problem olan insanlıq və iblis arasında bitməyən mübarizə yer alır.

"İblis" səhnələşdirilən ilk Azərbaycan poetik dramıdır. Faciə ilk dəfə 1920-ci ildə sovet Azərbaycanının opera, teatr və səssiz kino aktyoru, kinorejissor Abbas Mirzə Şərifzadə tərəfindən səhnəyə qoyulub və bu, Azərbaycanın teatr həyatı üçün böyük hadisə idi. Əsər ikinci dəfə 1983-cü ildə Hüseyn Cavidin 100 illik yubileyi münasibətilə SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Mehdi Məmmədov tərəfindən səhnələşdirilib. 2024-cü ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadənin quruluşunda "İblis"ə üçüncü dəfə səhnə həyatı verilib. Nəsimi festivalı üçün isə tamaşanın yeni təqdimatı hazırlanıb.

Sentyabrın 23-dən 25-dək Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı və Şamaxıda keçiriləcək Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalı digər özəl təqdimatlarla da yadda qalacaq.

**Yeni dərs ili qarşısında**

# Valideyn və müəllimlərin üzərinə böyük vəzifələr düşür

**Yeni tədris ilinin başlanması hər bir ölkənin ictimai-sosial həyatında mühüm hadisədir. Təhsil sahəsi yalnız fərdi inkişafın deyil, bütöv cəmiyyətin tərəqqisinin əsasını təşkil edir. Məhz buna görə də yeni dərs ili sadəcə məktəblərin fəaliyyətə başlaması deyil, gələcəyin inkişafına yönəlmiş yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilməlidir.**



Cəmiyyətin üzərinə düşən vəzifələr bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Təhsil sisteminin keyfiyyətli inkişafı birbaşa ictimai dəstək və diqqət tələb edir. Məktəblərin infrastruktur təminatı, müasir tədris metodlarının tətbiqi, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması - bütün bunlar yalnız dövlət siyasətinin deyil, həm də ictimai məsuliyyətin tərkib hissəsidir. Cəmiyyət təhsili prioritet sahə kimi qəbul etdikdə, insan kapitalının inkişafı sürətlənir, bu isə ölkənin iqtisadi, elmi və mədəni sahələrdə mövqeyini möhkəmləndirir.

Valideynlərin üzərinə düşən məsuliyyət də az əhəmiyyət kəsb etmir. Uşağın məktəbdə əldə etdiyi biliklər yalnız müəyyən qədər formalaşdırıcı rol oynayır. Lakin bu biliklərin mənimsənilməsi və şəxsi keyfiyyətlərin inkişafı çox vaxt ailədən asılı olur. Valideyn övladının təhsil prosesinə yaxından maraq göstərməli, dərslərinə dəstək olmalı, eyni zamanda onun sosial-mənəvi inkişafında iştirak etməlidir. Məktəb və ailə arasında əlaqələrin gücləndirilməsi təhsilin səmərəliliyini artıran əsas amillərdəndir.

Müəllimlərin rolu isə təhsilin ən vacib dayağıdır. Onların üzərinə düşən vəzifə yalnız bilik ötürmək deyil, həm də şagirdləri müstəqil düşünən, məsuliyyətli və cəmiyyətə faydalı vətəndaş kimi yetişdirməkdir. Müəllimlərin peşəkarlığı, metodik hazırlığı və fədakarlığı olmadan təhsil sistemində keyfiyyətli nəticə əldə etmək mümkün deyil. Buna görə də müəllimlərin davamlı təlimi, peşəkar inkişaf imkanlarının yaradılması və onların əməyinin yüksək qiymətləndirilməsi zəruridir.

Yeni tədris ilinin başlanması həm də gələcək üçün strateji əhəmiyyət daşıyan mesaj verir. Təhsil hər bir ölkənin inkişaf göstəricisidir və bu sahəyə qoyulan sərmayə, əslində, gələcəyə qoyulan sərmayədir. Burada dövlətin, cəmiyyətin, valideynlərin və müəllimlərin birgə fəaliyyəti tələb olunur. Yalnız birgə əməkdaşlıq nəticəsində bilikli, bacarıqlı, milli və bəşəri dəyərlərə sadiq nəsil yetişdirilə bilər.

Nəticə etibarilə, yeni dərs ilinin başlanması yalnız tədris prosesinin startı deyil, həm də cəmiyyətin gələcəyinə yönəlmiş ortaq məsuliyyətin növbəti mərhələsidir. Təhsil sahəsinə göstərilən diqqət və dəstək gələcəkdə ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq. Bu səbəbdən hər kəs - cəmiyyət, valideyn və müəllim - üzərinə düşən vəzifəni dərk etməli və bu prosesdə fəal iştirak etməlidir.

***Nərminə ƏSGƏROVA, "Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

# Sebastian Lekornu Fransanın yeni Baş naziri təyin edilib

**Sentyabrın 8-də Fransanın Baş naziri Fransua Bayrunun tükdən asılmış siyasi gələcəyinə son qoyulub - parlamentin aşağı palatası hökumətə etimad səsverməsi keçirərək Emmanuel Makronun çoxdankı müttəfiqini istefaya göndərib.**



Nəticə mütləq səs çoxluğu ilə müəyyən edilib və səsvermə iştirakçılarının yarıdan çoxu baş nazir və onun hökuməti üçün etimad səsverməsini rədd edib.

Demək olar ki, bütün siyasi qüvvələr, ifrat sağçı "Milli Birlik"dən tutmuş sosialistlərə və ifrat solçu "Yenilməyən Fransa" Partiyasına qədər əvvəlcədən Bayru etimadından imtina etmək niyyətlərini açıqlamışdılar.

Səsvermə 2026-cı ilin büdcə layihəsi ilə bağlı fikir ayrılıqları nəticəsində yaranan uzun sürən böhran fonunda dəstəyi təmin etmək məqsədilə baş nazirin özü tərəfindən təşəbbüs edilib. Artan dövlət borcu kontekstində Bayru kabineti həm vergi dərəcələrinin, həm də sosial müavinətlərin və pensiyaların 2026-cı ildə mövcud səviyyələrdə dondurulmasını təklif edib.

Müxtəlif səbəblərdən həm sol, həm də sağ müxalifət partiyaları hökumətin 2026-cı ilə qədər 44 milyard avroya qənaət etmək planını tənqid edib və baş naziri yayda onlarla tam məsləhətləşmələr aparmağa vaxt tapmamaqda ittiham ediblər.

İfrat sağçı müxalifət növbədənkənar parlament seçkilərinin keçirilməsini, ifrat solçular isə Makronun istefasını tələb edir.

İndi Fransa Prezidenti Emmanuel Makronun bir neçə konstitusiya variantı olacaq: bunlardan biri yeni baş naziri təyin etməkdir. Keçən il Avropa seçkilərində makronistlərin son dərəcə zəif çıxışından sonra parlamenti qəfil buraxaraq ölkəni girdiyi siyasi böhrandan çıxara bilməyən dövlət başçısı üçün üç həll variantının heç biri ideal deyil.

Etimad səsvermesindən sonra Fransa ölkədəki vəziyyətdən narazı olanların güclü səfərbərliyi ilə üzləşə bilər. Aylardır sosial şəbəkələrdə "ölkəni sentyabrın 10-da bağlayın" çağırışları yayılır. Etiraz hərəkatı kortəbii şəkildə yaranıb və müxalifət, həmkarlar ittifaqları çətin ki, buna nəzarət etsinlər, baxmayaraq ki, bəziləri qəzəbli "X" və "Teleqram" istifadəçilərini lazım olan istiqamətə yönəltməyə çalışırlar.

Çərşənbə günü üçün planlaşdırılan oflayn aksiyaların miqyasını proqnozlaşdırmaq hələ də çətindir. Tətillər (nəqliyyat, dövlət qulluğu, təhsil, xəstəxanalar, mağazalar, zibil yığımı) və nümayişlərlə yanaşı, həmin gün bank kartından istifadədən imtina etmək, yollarda və ya bankomatlarda sürət kameralarının söndürülməsi kimi etiraz üsulları onlayn rejimdə müzakirə olunur.

Hesablamalara görə, aksiyada 100 minə qədər insan iştirak edə bilər.

Bu il senyabrın 18-i ölkənin ən böyük həmkarlar ittifaqlarının genişmiqyaslı tətil elan etdiyi tarixdir. Dəmiryolçular, aviadispetçerlər, "Air France" əməkdaşları, o cümlədən müəllimlər və digər dövlət qulluqçuları etirazlara qoşulmağı planlaşdırırlar. Hökumət həmin gün ölkənin nəqliyyat sisteminin faktiki olaraq iflic vəziyyətinə düşə biləcəyindən ehtiyat edir.

Bundan əvvəl internetdə sentyabrın 10-da tətil çağırışları yayılsa da, Paris kütləvi iştirak gözləmir. Bununla belə, mənbələrə görə, Makron administrasiyası mümkün zorakılıq aktlarından ehtiyatlanır və tətillərin sentyabrın 18-dən sonra da uzana biləcəyindən narahatdır.

"Le Figaro" qəzetinin dərc etdiyi son sorğunun nəticəsinə görə, Makronun reytinqi 2017-ci ildən bəri ən aşağı səviyyəyə - 15 faizə düşüb. Bayruya fransızların 14 faizi etibar edir.

Beləliklə, Baş nazir Fransua Bayru və onun azlıq hökuməti parlamentdə mühüm etimad səsverməsində məğlub olduqdan sonra Fransa bazar ertəsi günü yeni siyasi böhrana sürükləndi. Deputatlar onun əleyhinə 364-194 səslə Prezident Emmanuel Makronu növbəti dəfə yeni baş nazir axtarmağa məcbur ediblər.

Bir ildən az müddətdə vəzifədə olan Bayru, millət vəkillərinin Fransanın artan borcunu cilovlamaq üçün dərin xərclərin azaldılması təşəbbüsünü dəstəkləyəcəyinə ümid edərək, karyerasını görünməmiş bir etimad səsverməsinə qoymuşdu. Amma həm solçular, həm də ifrat sağçılar fürsətdən istifadə edərək onu hakimiyyətdən uzaqlaşdırdılar.

Fransa siyasi səhnəsində növbəti dəyişiklik baş verib. Prezident Emmanuel Makron rəsmi olaraq Sebastian Lekornu yeni Baş nazir təyin edib.

Bu barədə məlumatı Yelisey Sarayı yayıb. Fransanın keçmiş müdafiə naziri olan Lekornu 2017-ci ildən hökumətdə təmsil olunur və Makronun yaxın müttəfiqlərindən sayılır.

Yelisey Sarayının yaydığı bəyanatda bildirilir ki, Makron yeni Baş nazirdən parlamentdə təmsil olunan siyasi qüvvələrlə məsləhətləşmələr aparmağı, dövlət büdcəsinin qəbuluna və qarşıdakı aylar üçün vacib qərarların verilməsinə dair razılaşmalar qurmağı istəyib.

Yeni təyinat müxalifət tərəfindən kəskin tənqid edilib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4034
Sifariş 1850
Qiyməti 60 qəpik